www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu  Gündəlik qəzet 13 yanvar 2015-ci il  Çərşənbə axşamı № 7 (6035)  Qiyməti  40 qəpik


**Xəbər**

## "Azəristiliktəchizat"da cinayətə bərabər təxribatın təfərrüatı

yazısı səh.12-də

**Gündəm**

### "Amerikanın Azərbaycanla bağlı səbir kasası daşmaq üzrədir"



Devid Kramer hakimiyyəti yenə də sərt şəkildə qınadı: "Hökumət Birləşmiş Ştatlara meydan oxuyur... Bakıdakı rəsmilər anlamalıdırlar ki, bu cür davranış axırda onlara baha oturar"

yazısı səh.13-də

### Parisdəki etiraz yürüşündə ilginc olay

yazısı səh.3-də

### Cəmil Həsənli - Azər Əsgərov qalmaqalı daha da böyüdü

yazısı səh.4-də

### Prezidentin Qarabağa dair çıxışına reaksiyalar gəldi

yazısı səh.3-də

### Azərbaycan məmurlarına sanksiya tətbiqi xəbəri təkzib olundu

yazısı səh.6-da

### "Tubzon"a köçürülən məhkumların yaxınlarına görüş verildi

yazısı səh.11-də

### Dubay nəhəngi "Khazar İslands" layihəsinə maraq göstərir

yazısı səh.3-də

### Avropada millətçilik dalğası Azərbaycana sıçraya bilərmi?

yazısı səh.10-da

### Müxalifətdə kimlər ABŞ-dan "ağ atlı oğlan" gözləyir?

yazısı səh.13-də

### Müxalifətin yeni mərkəzində nə baş verir?

yazısı səh.4-də

### Azərbaycanlılara qarşı tarixi cinayətin 110 illiyi

yazısı səh.12-də

## Rusiya nəşrindən ölkəmizdə çevriliş planı anonsu

# "QƏRB AZƏRBAYCANDA DÖVLƏT ÇEVRİLİŞİ HAZIRLAYIR" - İDDİA VƏ RƏYLƏR

"Geopolitika" jurnalının baş redaktoru: "İlham Əliyev balanslı siyasət aparmağa çalışır, ancaq Qərb bütün mümkün yollarla onun hakimiyyətini devirməyə çalışacaq"; rəsmi Bakı ilə Vaşinqton arasında münasibətlərin gərginləşməsinin səbəbi üzə çıxır...



yazısı səh.5-də

# İŞİD Bakının neft yataqlarını vurmaqla hədələdi

MTN: "Bütün zəruri qabaqlayıcı tədbirlər həyata keçirilir"; **Arzu Nağıyev:** "Fransa ssenarisinin Azərbaycanda təkrarı inandırıcı görünmür..."

yazısı səh.11-də



*Asim Mollazadə:*

### "ABŞ Azərbaycanın önəmini çox yaxşı anlayır"

yazısı səh.6-da



*Hacı Qamət:*

### "Gedişat onu göstərir ki, müsəlmanların Avropa ölkələrindən sıxışdırılıb çıxarılması baş verəcək..."

yazısı səh.10-da



*İsa Qəmbər:*

### "Mən onları sındırmaq istəmirəm"

yazısı səh. 8 və 9-da



MMüsavat Partiyasının başqanı Arif Hacılı partiyanın Məclis üzvü Arifə Hüseynlini doğum günü münasibəti ilə təbrik edib. Təbrikdə deyilir:

"Hörmətli Arifə xanım!

Sizi doğum günü münasibəti ilə ürəkdən təbrik edir, uzun ömür, can sağlığı və işlərinizdə uğurlar arzulayıram. Siz Azərbaycan Xalq Hərəkatının ilk günlərindən onun sıralarına qoşulmuş, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizənin fəal iştirakçılarındansınız. Apardığınız bu şərəfli işi 1996-cı ildən Müsavat Partiyasının sıralarında davam etməkdəsiniz. Müsavat Partiyasına qəbul olunduğunuz gündən insan hüquqlarının qorunması, seçki kampaniyaları dövründə əlinizdən gələni əsirgəməmisiniz. Müsavat Partiyasının üzvü kimi göstərdiyiniz fəaliyyət həmişə örnək olub. Partiya Məclisinin katibi kimi vəzifənizin öhdəsindən layiqincə gəlmisiniz.

Boya-başa çatdırdığınız övladlarınız, Sizi tanıyanlar qayğıkeş ana və vətənsevər qadın kimi Sizinlə daim qürur duyurlar.

Hörmətli Arifə xanım!

Bir daha Sizi doğum gününüz münasibəti ilə ürəkdən təbrik edir, Sizə uzun ömür, can sağlığı, şəxsi həyatınızda xoşbəxtlik və apardığınız şərəfli mübarizə yolunda uğurlar arzulayıram".

## Rus hərbçi Gümrüdə 6 ermənini güllələdi

**Bazar ertəsi, səhər Gümrüdə 6 nəfərlik bir ailə avtomat silahla güllələnib. Ölənlər arasında iki yaşlı körpə də var. Südəmər körpə isə olduqca ağır vəziyyətdə xəstəxanaya çatdırılıb.**

Qətlin baş verdiyi evdə avtomat gilizləri, həmçinin Valeri Permyakovun adı yazılmış hərbi ayaqqabı aşkar edilib. Hərbçinin cinayəti sərxoş vəziyyətdə törətdiyi ehtimal edilir.

Olayla bağlı prezident Serj Sərkisyan təcili müşavirə keçirib. Rusiya səfirliyi isə rəsmi açıqlama yayaraq qətliamı qətiyyətlə pisləyib, başsağlığı verib.

Ermənistanın Gümrü şəhərindəki 102 saylı Rusiya hərbi bazasını tərk edən və qətldə suçlanan hərbçi hələ ki, tapılmayıb.

Musavat.com-un xarici qaynağa istinadən verdiyi məlumata görə, axtarışlara Ermənistanın hüquq-mühafizə orqanları və hərbi hissənin komandanlığı ən yüksək səviyyədə qatılsa da, hələlik nəticə yoxdur.

❑ Musavat.com

## 26 ildə yol qəzalarında 24 min 537 adam ölüb!

### Azərbaycan "yol terroru"nda Qarabağ müharibəsindən çox itki verib

**Respublika Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) son 26 ildə ölkədə qeydə alınan yol qəzalarının statistikasını açıqlayıb. Avtosfer.az xəbər verir ki, BDYPİ-dən avto.lent.az-a verilən məlumata görə, 1988-ci ildən 2015-cü ilədək Azərbaycanın avtomobil yollarında 69 min 622 yol qəza hadisəsi qeydə alınıb.**

Nəticədə 24 min 537 nəfər ölüb, 77 min 457 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Statistikaya görə, ötən 26 ildə ən çox yol qəzaları və insan tələfatı 1991-ci ildə qeydə alınıb. Həmin il respublika ərazisində baş verən 3336 yol qəzasında 1281 nəfər dünyasını dəyişib. Ən az yol qəzası 1999-2000-ci illərdə baş verib. 1999-cu ildə baş verən 1996 hadisədə 554 nəfər, 2000-ci ildə baş verən 1987 hadisədə isə 596 nəfər dünyasını dəyişib. 2014-cü ildə isə respublika ərazisində 2635 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Baş vermiş hadisələr nəticəsində 1124 nəfər ölüb, 2676 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Müqayisə üçün bildirək ki, I Qarabağ müharibəsində Azərbaycan Ordusu 14 min, ümumilikdə isə ölkəmiz 30 minə yaxın itki verib.

## "Rusiya SSRİ-ni bərpa etməyə hazırlaşmır"

**"Rusiya Federasiyasının rəsmi şəxsləri Rusiyanın SSRİ-ni bərpa etməyi bəyan etməyiblər ". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya xarici işlər naziri Sergey Lavrov latviyalı həmkarı Edqars Rinkeviçlə keçirdiyi mətbuat konfransında bildirib.**

"Siz əvvəl dediniz ki, Rusiyanın Sovetlər İttifaqını bərpa etmək arzusu hamını qorxudur. Xahiş edərdim ki, əgər sizin konkret mənbəniz varsa, mənə hər hansı bir Rusiya rəsmilərinin çıxışından sitat gətirin, kim Sovetlər İttifaqını bərpa etməyi, "Rus dünyası"nı toplamağı təklif edib", deyə Rusiya XİN başçısı Latviya KİV nümayəndəsinin sualına cavabında bildirib.

## Rusiyaya gedənlərə bəd xəbər...

**Əcnəbi vətəndaşlar Rusiyada qalma qaydasını pozsalar, 10 il ərzində bu ölkəyə daxil ola bilməyəcəklər. ANS TV-nin məlumatına görə, Rusiya Federasiyası miqrasiya qanunvericiliyində edilmiş və yanvarın 10-dan qüvvəyə minən dəyişikliklər bunu nəzərdə tutur. Edilən dəyişikliyə görə, Rusiya ərazisində qalmaq üçün təyin olunan 180 gün müddətini pozan xarici vətəndaşa 5 il ölkəyə giriş yasaqlanacaq. İcazə müddətini 180 gündən çox pozan şəxs isə 10 il müddətinə deportasiya olunacaq.**

Yanvarın 1-dən Rusiyada miqrantların əmək fəaliyyətini tənzimləyən qanuna edilən dəyişikliklər də qüvvəyə minib. Qanuna görə, xarici vətəndaş Rusiyada işləmək üçün əmək patenti almalıdır. İşləmək məqsədilə gələn əcnəbi Rusiya ərazisinə daxil olarkən, ölkəyə gəlişinin məqsədini göstərməlidir. Bundan sonra isə o, bir ay müddətində əmək patentini əldə edə bilər.

Xarici vətəndaş rus dili və tarixindən də imtahan verməlidir. Bu qanunun qüvvəyə minməsindən sonra Rusiyaya gələn miqrantların sayında azalma baş verib.

# Türkiyənin mətbuat təmsilçiləri "Yeni Müsavat"ı ziyarət etdilər





**Türkiyə səfirliyinin yeni mətbuat müşaviri Hamid Karadeniz, Türkiyənin "Anadolu Ajansı" agentliyinin Asiya və Qafqaz bölgəsinin təmsilçisi Tolga Özgenç və TRT-nin Bakı təmsilçisi Yıldıray Arslan yanvarın 12-də "Yeni Müsavat" qəzetinə ziyarətə gəliblər.**

Onlar qəzet rəhbərliyi və kollektivlə görüşüblər. Səfirliyin sözçüsü və mətbuat təmsilçiləri "Yeni Müsavat" rəhbərliyi ilə görüşdə Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərdən, bir millət, iki dövlət olan qardaş ölkələrin strateji də digər bağlılıqlarından, həmçinin hər iki dövlətin mətbuat orqanları arasındakı münasibətlərin daha da sıxlaşdırılması zərurətindən danışılıb.

❑ RÖYA

## Məhkəmə sədri barəsində intizam icraatına başlanılıb

**Azərbaycanda məhkəmə sədri barəsində intizam icraatına başlanılıb. Bu barədə "Report"a ədliyyə orqanlarından bildirilib. Belə ki, Məhkəmə-Hüquq Şurası tərəfindən 3 hakim barədə intizam icraatı başlanılıb. Buna səbəb vətəndaşların hüquqlarının həyata keçirilməsinə süni maneələr törətməklə korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə, qanunvericiliyi və etik normaları, habelə icra intizamını kobud pozduqları göstərilib.**

Həmin hakimlərdən biri isə Bakı Şəhər Nizami Rayon Məhkəməsinin sədri Məhəmməd Əkbərovdur.

Qeyd edək ki, M.Əkbərov 1998-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasının (MR) ədliyyə naziri, 2000-2007-ci illərdə Naxçıvan İqtisad Məhkəməsinin sədri işləyib. O, 2007-ci ildən Bakı Şəhəri Nizami Rayon Məhkəməsinin sədridir.

## Azərbaycan Britaniya şirkətinə qadağa qoya bilər

**Dağlıq Qarabağa turlar təşkil edən "Regent Holiday" adlı Böyük Britaniya şirkətinin Azərbaycanda fəaliyyətinə və yerli turizm şirkətləri ilə əməkdaşlığına qadağa qoyula bilər.**

Bunu APA-ya açıqlamasında **Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi İnformasiya və ictimai əlaqələr şöbəsinin müdiri Vüqar Şıxəmmədov bildirib.**

Onun sözlərinə görə, bu məsələ hazırda ətraflı araşdırılır: "The Guardian"da Azərbaycanın işğal altında olan ərazilərinə səfərlə bağlı məqaləni və orda adı keçən "Regent Holiday" şirkətinin saytındakı tur proqramlarını gördük. Saytda şirkətin Azərbaycana da turlar təşkil etdiyi bildirilib. Azərbaycanla bağlı təxribat xarakterli yazılar çox saytlarda çıxa bilər, amma biz bu məsələni dəqiqliklə araşdırmalı, həmin şirkətin Azərbaycanda fəaliyyətini, hansı şirkətlərlə əməkdaşlıq etdiyini öyrənməliyik. Aidiyyəti qurumlarımız bu işlə məşğuldur, tezliklə mətbuata əlavə məlumat veriləcək. Mümkündür ki, qanunvericiliyə uyğun olaraq həmin şirkətlə heç bir şəkildə əməkdaşlıq etməmək barədə Azərbaycan Turizm Assosiasiyasına və yerli turizm şirkətlərinə təlimat verilsin. Bu cür halların qarşısını almaq üçün tərəfimizdən digər lazımi tədbirlər də görüləcək".

**V.Şıxəmmədov əlavə edib ki, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi beynəlxalq hüquqa zidd olan bu kim halları pisləyir:** "Azərbaycanın ərazi bütövlüyü BMT tərəfindən də tanınır və xarici şirkətlər biznes fəaliyyəti ilə, turların təşkili ilə məşğul olarkən ərazi bütövlüyü amilinə ciddi şəkildə riayət etməlidirlər".



## Yanukoviç və oğlu beynəlxalq axtarışa verildi

**İnterpol Ukraynanın sabiq prezidenti Viktor Yanukoviç haqda beynəlxalq axtarış elan edib. Musavat.com-un məlumatına görə, bu barədə təşkilatın rəsmi saytında yer alan xəbərdə deyilir. Yanukoviç Ukrayna Ali Məhkəməsinin təşəbbüsü əsasında İnterpolun axtarış siyahısına salınıb. Keçmiş dövlət başçısı öz vəzifə səlahiyyətlərindən sui-istifadədə və dövlət əmlakını mənimsəməkdə ittiham olunur.**

Xəbəri Ukraynanın daxili işlər naziri Arsen Avakov da öz facebook səhifəsində təsdiqləyib.

Bundan əlavə, o, beynəlxalq axtarışa verilmiş başqa keçmiş vəzifəlilərin və Yanukovimin doğmalarının da adını çəkib.

Belə ki, İnterpolun axtardığı şəxslər arasında Yanikoviçin oğlu Aleksandrın və sabiq baş nazir Nikolay Azarovun da adları var.

❑ Musavat.com

## Avropa İttifaqının xüsusi nümayəndəsi Bakıya gəlir

**Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Herbert Salber Azərbaycana səfər edəcək. APA-nın Avropa İttifaqının Bakı nümayəndəliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, səfər 14-15 yanvar tarixlərində həyata keçiriləcək.**

Səfər zamanı Dağlıq Qarabağ münaqişəsinin həlli barədə müzakirə aparılacaq.

Nümayəndəlikdən onu da bildiriblər ki, səfər proqramı hələlik tam təsdiqlənməyib.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Nеftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



## Prezident 2015-i "Kənd təsərrüfatı ili" elan etdi

**Prezident İlham Əliyev 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda göstərilir:

1. 2015-ci il Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə birlikdə 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.



## MSK qalmaqallı seçki komissiyasını ləğv etdi

### Məzahir Pənahov: "Mümkün deyil ki, seçkidə xoşagəlməz hal olmasın"

**"Mümkün deyil ki, seçkidə xoşagəlməz hal olmasın". APA-nın məlumatına görə, bunu bu gün Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında MSK sədri Məzahir Pənahov deyib.**

M.Pənahov bildirib ki, bələdiyyə seçkilərində müəyyən xoşagəlməz hallar seçkilərin nəticələrinə təsir edəcək gücdə deyil: "Seçkidə əsas odur ki, çoxluğun iradəsi ortaya qoyulsun. Bələdiyyə seçkilərində narazı olanlar var, ancaq onlar da başa düşürlər ki, belə hallar seçkilərin nəticələrinə təsir edəcək gücdə deyil".

**Seçki məntəqələrindən daxil olan müraciətlərin çox az sayda olduğunu deyən MSK sədri bildirib ki, bununla belə, aşağı seçki komissiyalarının bəzilərində olan xoşagəlməz hallara da reaksiya verilir:** "Məsələn, MSK-nın bələdiyyə seçkilərinin yekunları ilə bağlı qərar layihəsində 15 saylı Yasamal Birinci Seçki Dairəsinin 12 saylı seçki məntəqəsinin məntəqə seçki komissiyasının ləğv edilməsi əksini tapıb. Ancaq Azərbaycanda keçirilən seçkilər 10 il əvvəl keçirilən seçkilərlə müqayisədə kifayət qədər yüksəkdir".

**Qeyd edək ki, 2014-cü il dekabrın 23-də 15 saylı Yasamal Birinci Seçki Dairəsinin 12 saylı seçki məntəqəsində səsvermə zamanı seçki pozuntusu ilə bağlı görüntü sosial şəbəkələrdə yayılmışdı.**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2014-cü ilin yekunlarına həsr olunmuş iclasında çıxışında cəmiyyət və dünya üçün önəmli mesajlar verib. Ölkə başçısı Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ötən ildə heç bir irəliləyişin olmadığını və Ermənistanın bu proseslərdə imitasiya taktikası yolunu seçdiyini bildirib.**

# Prezidentin Qarabağa dair çıxışına reaksiyalar gəldi

## Tanınmış siyasətçilər verilən mesajların pərdəarxası məqamlarını açıqladılar



İqbal Ağazadə



Fəzail Ağamalı



Zəfər Quliyev

“Hesab edirəm, bu, artıq nə bizim üçün, nə də vasitəçilər üçün sirr deyil ki, Ermənistan sülh istəmir. Ermənistan istəyir ki, bu münaqişə öz həllini tapmasın və işğal edilmiş torpaqlardan çıxmaq istəmir” deyə, prezident çıxışında bildirib.

**İlham Əliyev çıxışı zamanı Minsk Qrupunun da siyasətini sərt tənqid edib:** “Baxmayaraq ki, Minsk Qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları dəfələrlə deyiblər ki, status-kvo qəbuledilməzdir. Ancaq bu, sözlərdən başqa bir şey deyil. Bu sözlərin arxasında heç bir ciddi siyasət dayanmır. Əgər status-kvo qəbuledilməzdirsə, - bu, əlbəttə ki, qəbuledilməzdir, - onda bir tədbir görülməlidir”.

**Prezident çıxışında BMT Təhlükəsizlik Şurasının siyasətinin ikili standartlara cavab verdiyini də qeyd edib:** “Necə ki, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Heç biri 20 ildən çoxdur ki, icra edilmir. Nə üçün başqa yerlərdə qəbul edilmiş qətnamələr dərhal icra edilir, bizə gəldikdə icra edilmir?! Bu, ədalətsizlikdir, bu, ikili standartlardır”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** Dağlıq Qarabağ probleminin həllində Rusiyanın açar rolu oynadığını bildirdi: “Hamıya məlumdur ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllinə imkan verməyən Rusiyadır. Bu problemdə əsas açar rolunu oynayan Rusiyadır. Cənubi Qafqaza nəzarət baxımından problemi də onlar yaradıb. Abxaziya, Osetiya və başqa yerlərdə baş verən hadisələr, o cümlədən Dağlıq Qarabağ problemi Rusiyanın maraqlarına xidmət edir. Hesab edirəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməməsi üçün həm BMT, həm Minsk Qrupu, bunun içərisində də Rusiya hədəf kimi götürülə bilər. Demək olmaz ki, bu müharibə anonsudur. Hesab edirəm ki, bu tərəfləri daha qətiyyətli olmağa, Rusiya zəiflədikcə özünü ayaqda saxlamaq üçün atdığı addımların anonsudur”.

**İqbal Ağazadə ölkə başçısının çıxışına da münasibət bildirdi:** “Hesab edirəm ki, çıxışa ayrı-ayrı epizodlarda baxmaq lazımdır. Çünki çıxış müxtəlif istiqamətləri əhatə edirdi. Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı olan hissəyə diqqət ayırsaq, informasiyamız azdır. Minsk qrupu çərçivəsində gedən danışıqların nədən ibarət olmağını bilmirik. Bizə təklif olunan son variantlardan da xəbərsizik. Bu baxımdan çıxışa qiymət vermək çox çətindir”.

**İqtidaryönümlü deputat Fəzail Ağamalı** prezidentin çıxışını yüksək qiymətləndirdi: “Ölkə başçısına qədər Azərbaycan cəmiyyətində Minsk Qrupu həmsədrlərinin fəaliyyəti ilə bağlı tənqidi fikirlər yer alıb. Hətta bu Milli Məclisin iclaslarında dəfələrlə önə çəkilib. Minsk Qrupunun yarıtmaz fəaliyyəti dilə gətirilib. Vəziyyət o qədər ciddiləşib ki, ölkə prezidenti səviyyəsində bu məsələ qabardılıb. Prezidentin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin yerinə yetirilməsinin vacibliyini bildirməklə bərabər, Minsk Qrupu həmsədrlərinin fəaliyyətini tənqid etməyə məcbur olub. Çünki ölkə başçısı ərazi bütövlüyümüzdə heç bir güzəştə gedilməyəcəyini dəfələrlə bəyan edib. Ad çəkməsə də, bu problemin həllində mane olan qüvvələri nəzərdə tutdu. Hamımıza məlumdur ki, bu qüvvə Minsk Qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransadır. Bu üç dövlət faktiki Ermənistana təzyiq göstərmir. Minsk Qrupu birmənalı şəkildə Ermənistanın siyasətini müdafiə edir. Bu üç dövlətin kifayət qədər nüfuzu var. İstəsələr çoxdan torpaqlarımız azad olunmuşdu. Qarabağın açarı bu üç dövlətin əlindədir. Həmin açarlar seyfə qoyularaq, bərk-bərk möhürlənmişdi. O üç açarı çıxarıb bir yerə qoyub, Ermənistanın işğalçılıq siyasətinə son qoymaq olar. Təəssüf ki, onlar işğalçını müdafiə edirlər. Ona görə də işğalçı ilə onlar arasında bir fərq yoxdur. Ölkə prezidenti də xalqın iradəsini nümayiş etdirib. Biz artıq ABŞ, Rusiya və Fransa dövlətlərinin adını çəkməklə, onların mövqeyini ifşa etməliyik”.

**Politoloq Zəfər Quliyev** prezidentin çıxışında real həqiqətlərin olduğunu söylədi: “Bu qurumlar Qarabağ kontekstində tənqid olunub. Burada həm real həqiqət var, doğrudan tənqid olunmalıdır, həm də uzun illərin acı nəticələri prezidenti vadar edir ki, növbəti dəfə bu cür fikirlər səsləndirsin. Dövlət, vətəndaş və cəmiyyət bu cür fikirləri deməlidir ki, dünya ikili siyasətdən əl çəksin. Son illər göstərir ki, Minsk qrupunun fəaliyyəti sıfıra bərabərdir. Real addımlar atılmırsa, bu mənasız danışıqlar çox davam edə bilməz. Prezidentin çıxışındakı mesajlar tək daxilə hesablanmayıb. İlk növbədə xaricə ünvanlanıb. Siyasətdə ikili standart var. Təəssüf ki, hazırda Azərbaycan Qarabağ məsələsində bu siyasətin qurbanıdır. Bu siyasət davam edərsə, Azərbaycanın başqa yolu qalmır. Hərbi sənayesini gücləndirib, əlverişli zamanda müharibə yolu ilə problemini həll etməlidir. İşğal variantı ilə heç kəs barışa bilməz. Bu baxımdan ölkə başçısının çıxışı başa düşüləndir”.

❑ Cavanşir ABBASLI



# Dubay nəhəngi “Khazar İslands” layihəsinə maraq göstərir

**“Avesta Konsern”in həyata keçirdiyi “Khazar İslands” layihəsinə nəhəng tikinti şirkətlərinin marağı günü-gündən artır. Dubayın iki ən böyük tikinti şirkətindən biri hesab olunan DAMAC Properties şirkətinin prezidenti Hüseyn Sacvaninin başçılıq etdiyi nümayəndə heyətinin Bakıya səfər etməsi də “Khazar İslands” layihəsinə artan marağa bariz nümunədir.**



Şəxsi təyyarəsi ilə Bakıya gələn DAMAC Properties şirkətinin prezidenti Hüseyn Sacvani “Khazar İslnads” layihəsinin həyata keçirildiyi ərazidə olub, “Avesta Konsern”in prezidenti Hacı İbrahim Nehrəmli ilə görüşüb. DAMAC Properties şirkətinin prezidenti Hüseyn Sacvaniyə rəhbərlik etdiyi şirkət, onun həyata keçirdiyi layihələr və “Khazar İslands” haqqında geniş məlumat verən “Avesta Konsern”in prezidenti Hacı İbrahim Nehrəmli əməkdaşlığa hazır olduqlarını da hörmətli qonağın diqqətinə çatdırıb. DAMAC Properties şirkətinin prezidenti Hüseyn Sacvani də öz növbəsində rəhbərlik etdiyi şirkət, onun yalnız Dubayda deyil, eyni zamanda Qətər, Səudiyyə Ərəbistanı, İrak, İordaniya, Livan və digər ölkələrdə həyata keçirdiyi layihələr haqqında məlumat verib. Dubaylı iş adamı bildirib ki, bu günə kimi əsasən Yaxın Şərq ölkələrində fəaliyyət göstərməyə üstünlük versələr də, indi dünyanın başqa regionlarında da fəaliyyət göstərmək istəyirlər. Bu mənada “Khazar İslands” layihəsinin bir başlanğıc ola biləcəyinə, bu layihənin onların Azərbaycan və ümumiyyətlə Cənubi Qafqazda fəaliyyətə başlamalarına təkan verə biləcəyini qeyd edib. “Avesta Konsern”in prezidenti Hacı İbrahim Nehrəmli “Khazar İslands” layihəsinə dünyanın nəhəng tikinti şirkətlərinin maraq göstərdiyini, bir neçə şirkətlə əməkdaşlığın təməlinin qoyulduğunu bildirib və DAMAC Properties şirkəti ilə də əməkdaşlığa hazır olduqlarını bəyan edib. Danışıqların sonunda əməkdaşlığın sürətləndirilməsi üçün qərar qəbul edilib.

**Xatırlatmaq istərdik ki, DAMAC Properties şirkəti hal-hazırda Səudiyyə Ərəbistanının ikinci ən böyük şəhəri və maliyyə paytaxtı hesab olunan Ciddədə Versace Home, Dubayda DAMAC Maison Tower və DAMAC Towers by Paramount, eləcə də Akoya DAMAC kimi nəhəng layihələr həyata keçirir. DAMAC Properties şirkətinin Azərbaycanda fəaliyyət göstərməsi Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşuna marağı daha da artıra bilər.**

❑ Xəbər xidməti

# Parisdəki etiraz yürüşündə ilginc olay

## Olland həmrəylik yürüşünə qatılan Türkiyə baş nazirinin əlini havada saxladı...

**Xəbər verdiyimiz kimi, yanvarın 11-də Parisdə Fransa prezidenti Fransua Ollandın təşəbbüsü ilə yüz minlərlə insanın iştirak etdiyi etiraz yürüşə olub. Kütləvi aksiyada Avropa, Yaxın Şərq və Afrika ölkələrinin 50-yə yaxın dövlət başçıları Ollandla bərabər ələ-ələ tutub.**



Bir ölkə isə yürüşə qatılmayıb - Mərakeş “Charlie Hebdo” jurnalında Məhəmməd peyğəmbər (s.ə.s) və dini təhqir edildiyi üçün yürüşdə iştiraka nümayəndə göndərməyib. Həmrəylik yürüşündə Azərbaycanı baş nazirin müavini Əli Əhmədov təmsil edib.

Yürüşdə bir məqam jurnalistlərin diqqətini cəlb edib. Hücumçulardan biri olduğu təxmin edilən Amedi Kulibalinin ölümündən sonra sosial mediada yayılan videoda hücumların Fransanın müttəfiqi olduğu ABŞ-ın İŞİD- qarşı kampaniyasına cavab olduğu deyilib. Fransa polisi yəhudi marketində istifadə edilən silahın hadisədən iki gün əvvəl bir şəxsin öldürülməsində istifadə edilən silahla eyni olduğunu bildirib. Fransa hökuməti ölkədəki 700-dən çox yəhudi məktəblərinin mühafizəsinə 5 mindən çox polis və təhlükəsizlik qüvvəsi əməkdaşı cəlb edib. Ölkə boyu müxtəlif obyektlərin mühafizəsinə 10 minədək hərbçi cəlb olunacaq.

Bu arada Parisdə terror törədən yaraqlılardan birinin həyat yoldaşı olduğu güman edilən Hayat Boumedienne yanvarın 8-də Türkiyədən Suriyaya keçib. Türkiyənin xarici işlər naziri Mevlut Cavusoglu yanvarın 12-də Anadolu agentliyinə bildirib ki, o yanvarın 2-də İstanbul hava limanına gəlib və oteldə qalıb, 8-də isə Suriyaya keçib.

Öz növbəsində PKK-ının Suriya qolu olan YPG satirik jurnala edilən hücumu pisləyib. Eyni zamanda İŞİD-i hədələyib: “Kobani şəhərində İŞİD-lə döyüşən əsgərlərimiz, bunun cavabını verəcək”.

Türkiyə mətbuatı isə aksiya zamanı diqqət çəkən bir məqamı qabardıb. Belə ki, Fransua Olland digər ölkə rəhbərlərinə diqqət göstərərkən Türkiyənin baş naziri Əhməd Davudoğluna soyuq münasibət bəsləyib. Yürüş zamanı ölkə liderləri ilə salamlaşan Olland Davudoğlunun əlini havada qoyub.

**Fransadakı Azərbaycan diasporu da “Çarli Hebdo” jurnalının redaksiyasına edilmiş terror aktını pisləyən bəyanatla çıxış edib. Diasporla İş üzrə Dövlət Komitəsindən APA-ya verilən məlumata görə, Paris Azərbaycan Evinin yaydığı bəyanatda icma bu aktı insanlığa zidd addım kimi qiymətləndirib, bu dəhşətli cinayəti törədənlərin məsuliyyətə cəlb olunmasını tələb edib. Bəyanat “Çarli Hebdo” jurnalının redaksiyasına, Fransa parlamentinə, Yelisey sarayına və yerli mətbuata göndərilib.**

❑ Hazırladı: SEVİNC

YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015

# Cəmil Həsənli - Azər Əsgərov qalmaqalı daha da böyüdü

## Hər iki tərəf bir-birinin ünvanına ağır ittihamlar səsləndirirlər





**Cəmil Həsənli:** "Yazdıqlarımın sizi tutduğunuz səhv yoldan çəkindirəcəyinə əmin deyiləm"
**Azər Əsgərov:** "Hakimiyyətdən qorxmayıb mülkünü müxalifətə qərargah verən, öz ailəsini təhlükə qarşısında qoyan bir insanı iqtidarın əlaltıları ilə eyniləşdirməyi sizə yaraşdırmadım"

**AXCP-nin partlayış nəticəsində sökülən məlum qərargahının sahibi Azər Əsgərovla partiya arasında yaranan qalmaqal səngimək bilmir. Artıq bu prosesə Milli Şura rəhbərliyi də qoşulub.**

Qurumun sədri Cəmil Həsənli "feysbuq" səhifəsində özünün və AXCP sədri Əli Kərimlinin barəsində Azər Əsgərovun səsləndirdiyi ittihamlara sərt cavab verib: "Hörmətli Azər Əsgərov! Ötən ilin oktyabr-dekabr aylarında sosial şəbəkələrdə, bir sıra saytlarda yaydığınız yalanları dəfələrlə təkrarladığınız üçün onlara aydınlıq gətirməyi qərara aldım. Ötən ilin mart ayında sizin AXCP-yə kirayə verdiyiniz mülkin partladılması və indiyə qədər sizə dəymiş ziyanın ödənilməməsi təəssüf doğurur. Hadisə baş verəndən bəri ittiham etdiyiniz Əli Kərimli və mən bunu hər yerdə demişik və bu gün də həmin fikirdə qalırıq. Biz bunu insanlıq naminə etmişik və haqqı pozulan bir adam kimi sizə dəstək olmağı özümüzə borc bilmişik. Əminliklə demək istəyirəm ki, bu məsələlərlə bağlı yazdıqlarınız və yaydıqlarınız həqiqətdən çox uzaqdır. Amma siz elə danışır və elə şeylər uydurursunuz, elə bil mənim sizin qarşınızda hansısa bir öhdəliyim və ya borcum var".

**Cəmil Həsənli Milli Şuranın iclaslarının Azər Əsgərovun mülkündə keçirilməsi ilə bağlı fikirlərə də toxunub:** "Yazırsınız ki, Milli Şuranın seçki qərargahı sizin AXCP-yə verdiyiniz binada olub. Nəzərinizə çatdırıram ki, belə bir şey olmayıb. Milli Şuranın seçki qərargahı Müsavat Partiyasının ofisində olub və hətta, Xalq Cəbhəsindən olan qərargah üzvləri də Müsavatın ofisində onlar üçün ayrılmış otaqda fəaliyyət göstəriblər. Əlbəttə, sizin partlayış nəticəsində dağıdılmış binanızda Milli Şuranın bir neçə toplantısı keçirilib. Lakin biz Milli Şura olaraq heç vaxt sizin binadan ofis, qərargah və sair məqsədlərlə istifadə etməmişik. Sizinlə bu barədə hər hansısa yazılı sözləşməmiz və ya şifahi söhbətimiz də olmayıb. Şəxsən sizi isə mən yalnız ötən ilin mart ayında mülkünüz partladılandan sonra tanımışam. Ona qədər heç bir tanışlığımız olmayıb. Yeri gəlmişkən, bu gün sizin əməllərinizi gördükdən sonra buna yalnız sevinirəm".

**Milli Şura sədri xarici təşkilatlardan qrant alması ilə bağlı mülk sahibinin səsləndirdiyi ittihamlara da münasibət bildirib:** "Sosial şəbəkələrdə yazırsınız ki, guya mən xaricilərdən milyonlarla qrantlar alıram. Nəzərinizə çatdırıram ki, məlumatınız səhvdir. Mən nə indi, nə də keçmişdə heç bir xarici dövlətdən və xarici təşkilatdan qrant almamışam və ümumiyyətlə bu işlə məşğul olmamışam. Nəinki qrant, hətta, bir vaxtlar xalq arasında Soros fondu kimi tanınan Açıq Cəmiyyət İnstitutunun Bakı ofisində yönətici heyətin üzvü kimi mənə yazılan qanuni əmək haqqını belə almaqdan imtina etmişəm".

**Prezidentliyə sabiq namizəd statusunda Azər Əsgərovun onu debata çağırmasına da sərt təpki göstərib:** "Sosial şəbəkələrdə yayılan açıqlamalarınızda məni tez-tez debata çağırırsınız. Əgər unutmamısınızsa, 2013-cü ilin payızında sizin kimi bir neçə nəfəri mənimlə debata göndərmişdilər. Onların debatdakı aqibəti yəqin sizin də yadınızdan çıxmayıb. Şübhəsiz ki, yazdıqlarımın sizi tutduğunuz səhv yoldan çəkindirəcəyinə əmin deyiləm. Amma yalan yüz dəfələrlə təkrar olunanda, onun həqiqət donuna bürünmə şansı bir qədər artır. Sizə vaxt ayırmağımız da bu zərurətdən irəli gəlmişdir".

**Öz növbəsində Azər Əsgərov da "feysbuq" səhifəsində Cəmil Həsənlinin ona verdiyi cavaba aid status paylaşıb:** "Cəmil Həsənli, mənə ünvanladığınız tutarlı cavabınızı oxudum. Sağ olun ki o, qiymətli vaxtınızı ayırıb, mənə o cür tutarlı cavab yazmısınız. Mən sizinlə debata çıxan adamlardan deyiləm. Təəssüf ki, siz məni onlarla eyniləşdirdiniz. Hakimiyyətdən qorxmayıb mülkünü müxalifətə qərargah verən, öz ailəsini təhlükə qarşısında qoyan bir insanı iqtidarın əlaltıları ilə eyniləşdirməyi sizə yaraşdırmadım. Sizin onlardan bir fərqiniz yoxdur. Onlar açıq şəkildə hakimiyyəti müdafiə edirlər, siz və Əli Kərimli isə, gizlində... Siz ikiniz də həm hakimiyyətin, həm də xarici qüvvələrin adamısınız. Deyirsiniz ki, mən və Əli Kərimli dəfələrlə məsələmi xarici təşkilatların qarşısında qaldırmısınız. Sizlərə sərf edən zamanlarda hakimiyyətin müxalifətə qarşı terroru adı altında məsələ qaldıraraq, qrantlar almısınız. Əgər başqa bir sənədiniz varsa, qoyun ortaya. Siz bu yaxınlarda ABŞ-da olanda FREEDOM HOUSE təşkilatının icraçı direktoru David Kramerlə görüşünüz zamanı nədən məsələmi gündəmə gətirmədiniz? Dəfələrlə həmin təşkilata müraciət etmişəm və cavab almışam ki, məsələyə baxılacaq. Sizin və Əli Kərimlinin hakimiyyətlə əlbir olması nəticəsində baxılmadı. Mən bütün dünya dövlətləri və təşkilatlarına müraciət etmişəm. Əgər siz də etmisinizsə, göstərin. Siz ancaq cibinizi düşünən, məhbuslar üzərindən pul qazanaraq, qrant alanlarsınız".

**Azər Əsgərov növbəti dəfə Cəmil Həsənli və Əli Kərimlinin ünvanına ağır ittihamlar səsləndirib:** "Sizin kimi Azərbaycanda minlərlə professor var. Onlar dövlətdən aldıqları maaşla ailələrini güclə dolandırırlar. Bəs siz dünya dövlətlərini nə ilə dolaşırsınız? Təyyarə, hotel, yemək pulunu haradan alırsınız? Ölkə prezidentindən hesab sorursuz. Biz sizdən soruşa bilmərikmi? ... Hava ilə yaşamaq mümkündüsə, bunu bizə professor kimi öyrədin. Qoyun Azərbaycan xalqı da hava ilə dolansın"...

❑ **Cavanşir ABBASLI**

# Arif Hacılının müavini ADR yaradanları topa tutdu

## Səxavət Soltanlı: "Bu təşkilatın və orda olanların siyasi ömürləri maksimum 3 aydır"

**Müsavat Partiyasının qurultayından sonra narazılıq edənlər son günlər Demokratiya və Rifah Hərəkatı adlı yeni ictimai qurum yaratmaq işini sürətləndiriblər. Bir neçə rayonda yerli şöbələr yaratdıqlarını da elan ediblər. Hakimiyyətə yaxın media orqanlarında isə Müsavat Partiyasının rəhbərliyinin ADR-in yaranmasından qorxuya düşdüyü təbliğatı aparılır. Belə bir təbliğat da müşahidə olunur ki, ADR-ə Müsavat Partiyasının rayon təşkilatlarından kütləvi axın var.**



Bəs, Müsavat Partiyasının rəhbərliyi ADR-i partiya üçün ciddi təhlükə sayırmı? Partiyanın rayon təşkilatlarından oraya üzv olanların sayı kütləvidirmi? ADR-lə bağlı partiyanın Divanında hansısa müzakirələr olubmu?

**Bu suallarla Müsavat Partiyası başqanının müavini Səxavət Soltanlıya** müraciət etdik. Səxavət Soltanlı bildirdi ki, Müsavat rəhbərliyi ADR-in yaradılmasında qətiyyən narahat deyil. Çünki həmin təşkilat Müsavat Partiyası üçün təhlükə ola bilməz: "Bu təşkilatın və orda olanların siyasi ömürləri maksimum 3 aydır. O təşkilatın qarşıya qoyduğu əsas məqsəd guya Müsavat Partiyası parçalanır görüntüsü yaratmaqdır. Buna da nail ola bilməyəcəklər. Onların məqsədi həqiqətən səmimi olsaydı prosesə yeni insanlar cəlb edərdilər. Təşkilatın əsas adamları elə bil kimlərəsə hesabat xarakterli fəaliyyət göstərirlər. Orada təmsil olunan əsas adamlar, onların sayı 30 dan çox deyil. Onlar Müsavata qarşı olan, Müsavatdan istefa vermiş, Müsavata qarşı şübhəli fəaliyyətlə məşğul olan, Müsavata qarşı əkstəbliğat aparanlardır. Bu kimi fəaliyyətlə illərdir məşğul olanlar heç bir şeyə nail olmayıblar. Onların fəaliyyəti dediyim kimi kimlərəsə göstəri üçündür. Onların əsas təbliğatçılarından biri bu günlərdə dolayısı ilə qeyd edib ki, biz Müsavat Partiyasının ləyaqət prinspinin əleyhinəyik. Yəni hər şey ortadadır".

**S.Soltanlı onu da qeyd etdi ki, Müsavat Partiyasında Qubad İbadoğluna, Vurğun Əyyuba əvvəllər olan inam qalmayıb ki, onların yaratdığı təşkilata da kütləvi axın olsun:** "Onlar son fəaliyyətləri ilə artıq özlərini də və az sayda olan insanları da siyasi baxımdan bitiriblər. Onlar bu davranışla heç bir uğur qazana bilməzlər. Özləri də qəbul edirlər ki, onlara olan hörmət Müsavatla bağlı idi. Müsavatdan kənarda onlar və təşkilatları heç bir uğur qazana bilməzlər Müsavata qarşı olub heç cür uğur qazana bilməzlər. Qurultaydan sonra gündə bir söz deyən qeyri ciddi, Müsavatın ləyaqətlilik prinsipindən imtina edən və edənləri dəstəkləyənlər haqqında əlavə nə isə demək artıqdır".

Başqan müavini dedi ki, ADR-lə bağlı Müsavat Divanında xüsusi bir müzakirə hələ ki, olmayıb.

❑ **E.SEYİDAĞA**

# Müxalifətin yeni mərkəzində nə baş verir?

## Əhməd Oruc: "SPDİHM-ə daxil olan siyasi partiyaların ideoloji yönümündə də, hakimiyyətə münasibətində də ciddi fərqlər var"



**11 partiyanın (Müsavat, KXCP, ADP, Ümid, AXP, AzDP, VİP, ALDP, Aydınlar, Azadlıq, Böyük Azərbaycan Partiyası) təmsil olunduğu Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzində parlament seçkilərində nə şəkildə iştirak etmək məsələsi ilə bağlı fikir ayrılıqları yaranıb. Qurumun bəzi üzvləri 11 partiyanın hamısının seçki birgə bloku yaratmasının mümkün olmadığını bəyan ediblər. Bəziləri isə bunun əksini düşünürlər. Birincilər hesab edir ki, dağınıq, pərakəndə funksional birlik yox, sərhədləri və hədəfləri tam şəkildə bəlli olan, bütün diqqətini seçkiyə yönəldən birlik yaradılmalıdır.**

Fikir ayrılığının olması həm də orta onu çıxarıb ki, müxalifət birlik müzakirələri aparanda belə bölünmə daha çox qabarır.

Mərkəzdə təmsil olunan Azadlıq Partiyasının sədri Əhməd Orucun da dünən "Yeni Müsavat"a açıqlamasından açıq görünür ki, qurum üzvləri arasında fikir ayrılığı ciddidir. Əhməd Oruc hətta Mərkəzdəki hansısa həmkarlarına yönəlik sərt fikirlər də səsləndirdi: "Azərbaycanda əksər siyasilər hələ də siyasi blokla parlament seçkilərindəki seçki blokunun fərqini başa düşmür. Nəyinsə mümkün olub-olmadığını söyləyərkən müəyyən arqumentlər ortaya qoyulmaldır. Bu gün Azərbaycan siyasi səhnəsində bütün meyarlar, dəyərlər ortadan götürülüb. Müxalifətə heç bir aidiyyəti olmayanlar müxalifətdən danışır, bu millətə düşmən kəsilənlər milli maraqlardan dəm vurur, yüz ilin satılmışları əqidədən danışır, tərcümeyi-halını düzgün yaza bilməyənlər millətə yol göstərmək qədər irəli gedib. Elə bir vəziyyət yaranıb ki, heç kim heç kimin kitabını oxumaq istəmir".

**Ə.Oruc vurğuladı ki, Siyasi Partiyaların Demokratiya və İnsan Haqları Mərkəzinə daxil olan siyasi partiyaların ideoloji yönümündə də, hakimiyyətə münasibətində də ciddi fərqlər var:** "Biz DİHM-də siyasi məhbusların hüquqlarını müdafiə üçün bir araya gəldik. Sonradan ümumi razılıq əsasında funksional əməkdaşlıq sahəsi genişləndi. Mənim təklifim ondan ibarətdir ki, bu birlik çərçivəsində funksional əməkdaşlıq davam etdirilməlidir, bu birliyə daxil olan hansı partiyalar daha dərin əməkdaşlıqda maraqlıdırsa onlar seçkidə birgə iştirakın perspektivini müzakirə etməlidir".

Partiya sədri hesab edir ki, seçki bloku yaradarkən əsas məsələlərdən biri seçicilərin dəstəyini almağa hesablanan birliklərin oluşmasıdır: "İllərlə hakimiyyətə qulbeçəlik etmiş, bütün seçkilərdə yalançı alternativlik manikenlərini, millətin birmənalı şəkildə mənfi münasibəti olanları blokun vitrininə buraxmaq doğru olmaz. Bu prinsiplər gözlənəcəyi halda cəmiyyətdə hansısa canlanmaya və dəstəyə ümid etmək olar".

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015

## Rusiya nəşrindən ölkəmizdə çevriliş planı anonsu

**Qərb Rusiyanı daha da zəiflətmək üçün ona qonşu ölkələrdə dövlət çevrilişləri seriyası hazırlayır və sırada Azərbaycan da var. Virtualaz.org saytı xəbər verir ki, bu sensasion fikirlərlə rusiyalı ekspertlər "Svobodnaya pressa"da çıxış ediblər. Sözügedən materialda bildirilir ki, ABŞ Ukraynada 2014-cü ildə həyata keçirilmiş çevrilişlərlə kifayətlənmək niyyətində deyil və Rusiyaya qonşu digər ölkələrdə də siyasi rejimləri dəyişdirməyə çalışacaq.**



# "Qərb Azərbaycanda dövlət çevrilişi hazırlayır" - iddia və rəylər

## "Geopolitika" jurnalının baş redaktoru: "İlham Əliyev balanslı siyasət aparmağa çalışır, ancaq Qərb bütün mümkün yollarla onun hakimiyyətini devirməyə çalışacaq"; rəsmi Bakı ilə Vaşinqton arasında münasibətlərin gərginləşməsinin səbəbi üzə çıxır; Mehman Əliyev: "Qərbin belə bir planının olmadığına əminəm..."

"2015-ci ildə yeni "narıncı" inqilablar gözləmək olar. Prinsipcə, yeni heç nə yoxdur, dövlət çevrilişlərinin bütün texnologiyası köhnədir, təkcə ayrı-ayrı metodikalar modernləşdirilir. Bu da hakimiyyətdə kimin olmasından, əhalinin onu nə dərəcədə dəstəkləməsindən və hansı alətlərə malik olmasından asılıdır" - deyə, "Geopolitika" jurnalının baş redaktoru Leonid Savin bildirib. Onun fikrincə, 2015-ci ildə Qərb çox güman ki, Ermənistandakı vəziyyəti qarışdıracaq. Vəziyyətin qarışa biləcəyi ölkələr sırasına Azərbaycanı da daxil etmək olar, çünki L.Savinin qənaətinə görə, Bakının Vaşinqtonla və Qərbi Avropa ilə münasibətləri pisləşir. "İlham Əliyev balanslı siyasət aparmağa çalışır, ancaq aydındır ki, Qərb bütün mümkün yollarla onun hakimiyyətini devirməyə çalışacaq" deyə, baş redaktor bildirib.

**İddialara görə, Tacikistana təzyiqlərin artması da gözlənilir, çünki bu ölkəni Avrasiya İttifaqında gözləyirlər.** Eyni təxmini Qazaxıstan və Qırğızıstan haqda da demək olar. L.Savinin sözlərinə görə, Qərbin hədəfində Serbiya və Çernoqoriya, habelə Belarus və Moldova da yer ala bilər. Onun fikrincə, dövlətlər bu çevriliş cəhdlərinin qarşısını almaq üçün mümkün təxribat ocaqlarını aşkara çıxarmalıdır. Həmçinin media məkanına nəzarət etmək, diplomatik missiyaların, xüsusən də ABŞ səfirliyinin nə işlə məşğul olduğunu izləmək lazımdır. L.Savin ATƏT missiyalarının da fəaliyyətinin nəzarət altında saxlanılmalı olduğunu deyib. Baş redaktorun sözlərinə görə, Qərbin qeyri-hökumət təşkilatlarının fəaliyyətini də izləmək lazımdır. Çevriliş cəhdlərinin qarşısını almaq üçün vətəndaş cəmiyyəti ilə dövlət əlbir hərəkət etməli, cəmiyyətdə parçalanma meyllərinin qarşısı alınmalıdır.

***

**Sözsüz ki, bizi daha çox ölkəmizə aid inqilab anonsu maraqlandırır.** Azərbaycanla ABŞ, həmçinin bir sıra Qərb dairələri arasında münasibətlərin gərgin fazaya keçdiyi dövrdə hakimiyyət çevrilişi ilə bağlı xəbərdarlığın yayılması müxtəlif cür yozula bilər. İlkin olaraq burada Azərbaycanla ABŞ-ın münasibətlərini daha da gərginləşdirmək cəhdinin olduğunu da təxmin etmək mümkündür. Ancaq Bakı ilə Vaşinqton arasındakı münasibətlərdə "soyuq müharibə" elementlərinin olması, Vaşinqtondan Bakıya qarşı sanksiyalar tətbiqinə dair çağırışların cavabında Azərbaycan hakimiyyətinin ABŞ-ı terroru dəstəkləməkdə belə ittiham etməsi, Azadlıq Radiosunun Bakı bürosunun ofisinin möhürlənməsi, yanvarın 12-də Bakı vaxtilə gecə saatlarında ABŞ-da Azərbaycanla bağlı dinləmələrin keçirilməsi və s. faktlar məqalədəki iddialara marağı artırır.

Məsələn, iddia etmək olar ki, Azərbaycan hakimiyyətinin Ağ Evin inqilab və ya hakimiyyət dəyişikliyi ilə bağlı planından xəbərdar olduğu üçün belə aqressiv tövr nümayiş etdirir. O da istisna deyil ki, Qərbin çevriliş planları barədə gizli dosyelər Rusiya kəşfiyyat orqanları tərəfindən Bakıya ötürülüb və məqsəd münasibətlərin korlanması da ola bilər. Daha bir versiya da var ki, Moskva belə informasiyaları dövriyyəyə buraxmaqla təklənməkdə olan Rusiyanın ətrafında postsovet ölkələrinin haləsini yaratmaq, Qərbin çevriliş planlarından hakimiyyətləri "agah" etmək yolu ilə Avrasiya Birliyi projesinin maksimum tez gerçəkləşməsinə nail olmaq istəyir. Ancaq istənilən halda məsələ ciddi araşdırma tələb edir. Yeri gəlmişkən, bir neçə gün öncə rəsmi "Azərbaycan" qəzetində dərc olunan "ABŞ-Azərbaycan münasibətlərinə kiçik ekskurs və gələcək haqqında düşüncələr" adlı məqalədə ABŞ-a qarşı sərt ittihamlar yer almışdı, eyni zamanda Amerikanın 2005-ci ildə eks-spiker Rəsul Quliyev və sabiq nazir Fərhad Əliyev vasitəsilə dövlət çevrilişi etmək istədiyi iddia olunurdu.

***

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** hesab edir ki, bu kimi informasiyaları dövriyyəyə buraxmaqla ruslar sadəcə Azərbaycanı qızışdırır və bir sıra hallarda buna nail ola bilirlər: "Şəxsən mən Qərbin Azərbaycanda hər hansı çevriliş həyata keçirəcəyini gözləmirəm. İlham Əliyev prinsipcə Qərbə, ABŞ-a münasibətdə kifayət qədər sıx, səmərəli əməkdaşlıq nümayiş etdirir. Yəni geosiyasi, geostrateji, təhlükəsizlik, enerji, nəqliyyat təhlükəsizliyi kimi xeyli məsələlər var ki, bu sahədə əməkdaşlıq onları kifayət qədər qane edir və burda hər hansı problem yoxdur. Sadəcə olaraq onlar Azərbaycanda siyasi və iqtisadi sahədə islahatların aparılmasını istəyirlər. Çünki Qərb stabilliyin bərqərar olunmasında demokratiyanı önəmli sayır. Bu mənada kifayət qədər təkliflər, çağırışlar səslənir. Brayzanın, Morninqstarın dövründə də bunları eşidirdik, onlardan sonra gələn səfir də eyni sözləri deyəcək. Yəni bundan o tərəfə mən heç nə görmürəm".

M.Əliyev 2014-cü ildə yaşanan gərginliklərə, Qərbə bağlı vətəndaş cəmiyyəti nümayəndələrinin həbsinə, həmçinin AzadlıqRadiosu ətrafında yaşananlara baxmayaraq, Azərbaycan tərəfinin konfrontasiyada maraqlı olmadığını, həmçinin əməkdaşlıqdan qaçmadığını vurğuladı: "Keçən ilin sonunda bir sıra addımlar atıldı, həmçinin insan haqları ilə bağlı qrup yaradıldı, əfv sərəncamı verildi. İlham Əliyevin hansısa çevrilişlər planı barədə məlumatlı olub-olmadığını deyə bilmərəm. Ancaq şəxsən mən Qərbin belə bir planının olmadığına əminəm. 2003-cü ildə İlham Əliyev Amerikanın dəstəyi və yardımı ilə hakimiyyətə gətirilib. Artıq İlham Əliyevin şəxsi hakimiyyəti çox möhkəmlənib. Bu, onu göstərir ki, bunlar hamısı həmin dəstək əsasında baş verib. İndi bu hakimiyyəti devirmək kimə lazımdır? Üstəlik, Rusiyanın da belə bir planı yoxdur. Çünki Rusiya ilə də münasibətlər eynidir, 2003-cü ildə ruslar da eyni rolu oynayıb".

**AVP sədri, deputat Fəzail Ağamalı** isə rusiyalı ekspertlərin yaydığı məlumatları ciddiyə almağın tərəfdarıdır: "2005-ci ildə də "narıncı rəngə boyananlar" çox idi və hətta onlar parlament seçkilərində platformalarını da narıncı rəngə boyamışdılar. Bu qüvvələr geniş təbliğat və böyük maliyyə imkanlarına malik idilər. Onların "narıncı inqilab"ı reallaşdırmaq imkanları olmadı, çünki Azərbaycanda bunun üçün sosial dayaq yox idi. Bu gün də Qərbin Azərbaycana qarşı belə bir niyyəti ola bilər. ABŞ və ya onun müttəfiqi olan Qərbin Azərbaycanda kiməsə hakimiyyətə gətirərək burda bir oyuncaq dövlət yaratmaq məqsədinin olması mümkündür". F.Ağamalı 2013-cü ilin prezident seçkiləri ərəfəsində Rusiya tərəfindən hakimiyyət dəyişikliyi planının işlənib hazırlandığını da xatırlatdı: "O zaman Rüstəm İbrahimbəyovun və Cəmil Həsənlinin hansı vəziyyətə salındığı da faktdır və Azərbaycanın yaxın keçmişinin reallığıdır. Bu reallıqlara söykənərək, eyni zamanda ölkə prezidentinin qətiyyətli mövqeyinə, onun komandasının yüksək peşəkarlığına, Azərbaycan xalqının mütləq əksəriyyətinin prezident İlham Əliyevin siyasətini dəstəkləməsinə və dövlət başçısının təkcə icra deyil, eyni zamanda bütövlükdə müxtəlif siyasi partiyalarda belə böyük bir dəstəyinin olmasını nəzərə alaraq demək olar ki, bu planın gerçəkləşməsi mümkün deyil. Əgər belə bir plan olarsa, əminəm ki, Azərbaycan xalqı ortaya iradə qoyacaq və xalqı prezidentimizin yanında olacaq. Nəticədə Azərbaycanda bu cür narıncı, göy, mavi inqilablar reallaşmayacaq".

**İqtidaryönlü deputat razılaşır ki, ola bilsin, rəsmi Bakının Qərbə qarşı sərt münasibətinin kökündə Azərbaycanda hakimiyyət çevrilişi planlarının olması barədə informasiyalardır:** "Ölkə prezidentinin Nazirlər Kabinetinin son toplantısındakı çıxışında Ermənistanı müdafiə edən qüvvələrlə bağlı sərt fikirləri ola bilsin ki, Qərbin, ABŞ-ın Azərbaycana qarşı münasibətlərində fərqli bir planın olmasına cavabdır. Mənim bu barədə dəqiq informasiyam yoxdur, lakin bunu da istisna etmirəm".

**"Obama fevralda demokratik dövlətlərin liderlərinə diktatorlarla mübarizənin yeni strategiyasını təqdim edəcək".** Bunu isə NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov söyləyib (axar.az). O, fevral ayında keçiriləcək Vaşinqton sammitinin xüsusi önəm daşıdığını bildirib: "Fevral ayında Vaşinqton sammitinin olacağı gözlənilir. Obama demokratik dövlətlərin liderlərinə diktatorlarla mübarizənin yeni strategiyasını təqdim edəcək. Bu o deməkdir ki, 2015-ci ildən başlayaraq müxtəlif rejimlərə qarşı Qərb və Avropa fərqli siyasi xətt tutacaq. Vaşinqton sammiti çox önəmlidir, çünki Obama bağlı qapılar arxasında MKİ-nin (CİA) əldə etdiyi gizli fayllarla onları tanış edəcək. Tam məxfi olan bu sənədlərdə Yaxın Şərq, Cənubi Qafqaz və digər regionlar xüsusi yer tutur".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015



# İbn Ərəbi, Ziqmund Freyd və "Roma papsı"ndan daha artıq katolik olanlar

**Azər RƏŞİDOĞLU**

**Azərbaycanda islamofiya yenə də dəbdədir. Natamamlıq kompleksindən əziyyət çəkən, özünü aşağılanmış görən Ziqmund Freydin xəstələri üçün "Paris terroru" göydəndüşmə oldu. Bütün bu müzakirələr bir faktı meydana çıxartdı. Azərbaycanda islami, eyni zamanda Qərb dəyərlərini dərindən mənimsəyənlərin sayı olduqca azdır. Sosial şəbəkələrdəki qarşılıqlı nifrət püskürmələrinin əslində sivilizasiyaların toqquşmasına heç bir aidiyyəti yoxdur. Müzakirələr "Qərb rasionallığı" və "Şərq fenomeni" arasındakı fərqlərdən getmir, sadəcə olaraq, özünü "Roma papası"ndan daha artıq katolik sayan bir qrup qarşılarına çıxanları tapdamaqdan zövq alır.**

Müzakirələrdə ateistlərlə yanaşı, inanclı kəsimin durumunun da acınacaqlı olması faktı meydana çıxdı. İntellektual islami düşüncənin kasadlığı avropapərəstlərin cılızlığı fonunda daha da boz-bulanıq səhnə yaratdı.

Molla Sədra, Mühiddin Ərəbini mütaliə etməyən, yalnız risalələrdəki cənabət qüslünün növlərini əzbərləyən orta statistik islamçı üçün müzakirələr söyüşdən uzağa gedə bilmədi. İlk baxışdan daha intellektual görünən ateistlər də müzakirələrdə özlərinin heçliklərini, travmalı beyinlərinin heç nəyə yaramadığını nümayiş etdirdilər.

İslam barədə danışanlar əksər hallarda bu barədə yetərincə bilgisi olmayanlardır.

Bu gün inanclı kəsim də biliyini artırmaq zorundadır. Dünya intellektual düşüncəsində çevriliş edən İbn Ərəbinin baxışlarının öyrənilməsi zərurəti yaranır. Bütün dünyanın, Yaxın və Uzaq Şərqin, Çinin, Cənubi və Şimali Amerikanın, Qərbi və Şərqi Avropanın həvəslə öyrəndiyi İbn Ərəbi fəlsəfəsi Azərbaycanda çoxları üçün kəşf olunmamış bir adadır.

İslam dünyasının əsas problemlərindən biri də Molla Sədra, İbn Ərəbi kimi filosoflardan asanlıqla imtina edə bilməsidir. Yüzlərlə cilddən ibarət, elmi yüklü, dərin mənalı və sehrləyici kitab və risalələrində, sanki İbn Ərəbi sadəcə "vücud birdir" deyir... Və bunları oxuduqdan sonra, sanki insana minlərlə səhifəlik yazılar mənasız söz yığını kimi gəlir. Azərbaycan islamçısı və ateisti isə mənasız söz yığınının içində boğulur. Bunu müzakirəyə çıxarır və insanların din barədə düşüncələrini alt-üst edir.

Son müzakirələr bu faktı bir daha sübuta yetirdi.

"Paris terroru" yenidən, "Qərb tolerantlığı və Asiya vəhşiliyi", "Avropa dəyərləri və Şərq geriliyi" kimi terminləri aktuallaşdırdı.

Avropa və Şərqi müqayisə etmək, təbii ki, Şərqi, ələlxüsus da Azərbaycanı, islam və türklüyü aşağılamaq ölkə sekulyarlarının sevimli mövzusudur. Müzakirələr Qərbin tolerantlığı ilə Asiya vəhşiliyi, Avropa aydınlığı ilə Şərq zülməti, Qərbin demokratlığı ilə Şərq müstəbidliyi mövzuları ilə müşayiət olunur. Əksər hallarda, tərəflər subyektivliyə yuvarlanırlar. Əlbəttə ki, subyektiv mövqe əsassız fikir sayıla bilməz. Lakin ciddi müzakirələr aparmadan baş verənlərə cavab tapmaq mümkün deyil. Xarici və daxili ziddiyyətlərlə bol olan mövzunun müzakirəsi zamanı düşüncənin dialektik metodikası tələb olunur. Sosial şəbəkələrdə qarşılıqlı nifrət yağdıranlarda isə dialektik təfəkkürün özü mövcud deyil.

Rasional Qərb, irrasional Şərq arasında fərqi anlamaq üçün dialektik qanunauyğunluqlara və metafizik fərziyyəyə bələd olmaq lazım gəlir.

Müzakirələri "islam şəri" müstəvisinə çəkən ateistlər daha hirsli və hikkəli görünürlər. İslama qarşı çıxanların əsas mövzusu dözümlülük barədə çağırışlar olmasına baxmayaraq, əksər hallarda onların fikirləri birtərəfli, qərəzli və açıqca özünü reklam xarakteri daşıyır.

"Geridə qalmış, boz Şərq" və "mütərəqqi Qərb" anlayışından gen-bol istifadə edənlər tarixi inkişaf barədə səthi fikirlərə malikdirlər və odur ki, öz genetikalarına açıq-aşkar hörmətsizlik nümayiş etdirirlər. Şərqin çoxəsrlik durğunluğunu Qərb tərəqqisi ilə müqayisə edənlər bunu əbədi fenomen kimi təqdim edirlər.

Bu isə absurddur. Tarixi inkişaf mərhələləri ziqzaqlarla dolu olur və burada əbədi heç nə olmur.

Şərqi vəhşi, Qərbi humanist kimi dəyərləndirənlər unudurlar ki, faşizm, militarizm, konslagerlər avropalıların kəşfidir. Bir əsrdə iki dəfə dünya savaşına rəvac verən, insanların kəllə quruluşuna görə qaz sobalarına göndərənlər də müsəlmanlar olmayıb, avropalılar olublar.

Kommunizm, faşizm kimi ideologiyalar da Avropanın meydana çıxartdığı nəzəriyyələrdir.

Kilsənin qərarı ilə səlib yürüşlərinə çıxan Qərb tarixi inkişafı zamanı ən ağlasığmaz addımlar atıb. Lakin heç kəs Avropanı əbədi vəhşi obrazında görmək istəmir.

Avropa dəyərlərinin formalaşmasında müstəsna rol oynayan katolikliyin iç üzü barədə nədənsə susurlar. Katoliklər fərqli inanca görə yüz minlərlə insanın həyatına son qoyublar.

Yaxud Qərbi protestantlığını götürək. "İqtisadi fərd"ləri ifrat tərifləyə-tərifləyə mənəviyyatsız "vəhşi kapitalizm" üçün ileoloji zəmin rolu oynayan bu cərəyan minlərlə insanın məhvinə səbəb olub.

**Bu tarixi inkişafdır. Bu kimi mərhələlər keçilməlidir. Odur ki, dünyanı yalnız ağ və qara rənglərdə görənlər öz düşüncələrində düzəliş etmək zorundadırlar...**

# Azərbaycan hansı superdövlətə daha yaxındadır: Rusiyaya, yoxsa ABŞ-a?..

**ANS TV-nin efirində yaymlanan həftəlik "Hesabat" proqramında Mirşahin Ağayev son zamanlar rəsmi dairələrin yürütdüyü anti-Amerika siyasətini müzakirəyə çıxarıb.**

**M.Ağayev hökuməti Qərbdən imtina edib, Rusiyaya yaxınlaşmaqda ittiham edənlərə üz tutaraq, Azərbaycanın müstəqil bir ölkə olduğunu və heç bir dövlətə sədaqət andı içmədiyini bildirib:** "İndi Azərbaycanda müstəqilliyə qəribə bir sinonim tapılıb. Qərb deyib, kimlərisə "əlaqədar təşkilatlar" kimi səfeh ifadə altında ümumiləşdirməyəcək, hər şeyi öz adı ilə çağıracam. Deməli, müstəqilliyin və demokratiyanın təzə sinonimi tapılıb: Amerika... Amerika isə birmənalı toponim deyil. Onun Azərbaycanla bağlı siyasətində Bakını razı salmayan, elə bizim özümüzün ürəyimizcə olmayan bir sıra məqamlar var. Və ən qəribəsi də budur ki, Azərbaycının dövlət kursunu qəbul etməyənlər belə hesab edirlər ki, nə olursa olsun, nə baş verirsə versin, Azərbaycan mütləq Amerikanın yanında olmalıdır. Hətta yanda olmaq Azərbaycanın ziyanına olsa belə...

Azərbaycan müstəqil dövlətdir! Yəni Rusiyadan asılı deyil, Birləşmiş Ştatlardan asılı deyil, İrandan asılı deyil, Nikaraquadan, Lixtenşteyndən asılı deyil. Bu, müstəqil olmaq deməkdir. Müstəqil olmaq Rusiyadan asılı olmayıb, Amerikadan asılı olmaq demək deyil. Və Azərbaycan heç vaxt əl basıb and içməyib ki, mən həmişə Amerikanın yanında olacağam.

Belə bir andı elə Amerika Birləşmiş Ştatlar da heç vaxt içməyib. Ona görə də bu gün nə Birləşmiş Ştatların Azərbaycanın yanındalığı əbədidi, nə də Azərbaycanın Birləşmiş Ştatların yanındakı yeri... Dövlətin öz yeri, öz yolu var və bu yolda Amerika da, Rusiya da müxtəlif təyinatlı məntəqələrdir".



**Ərəstun Oruclu:** "Faktlar göstərir ki, Azərbaycan Qərbdən və Amerikadan imtina edərək, Rusiyaya yaxınlaşıb"



**Asim Mollazadə:** "ABŞ Azərbaycanın önəmini çox yaxşı anlayır"

**Musavat.com-a açıqlamasında Mirşahin Ağayevin fikirlərinə münasibət bildirən politoloq Ərəstun Oruclu bu siyasətin Azərbaycanı yeni sanksiyalar hədəfinə çevirəcəyini bildirib:** "XXI əsrdə bir dövlətin digərindən asılılıq anlayışı və ya asılı olmamaq anlayışı, əvvəlki təsəvvürlərdən xeyli fərqlidir. Hazırda bir qloballaşma dövrüdür və bütün dövlətlər iqtisadi-siyasi əlaqələr quraraq, bu və ya digər birliklərdə birləşərək, ümumi fəaliyyətlə məşğuldurlar. Yəni, bu əməkdaşlıq orada iştirak edən bütün dövlətlər üçün gəlir gətirməlidir. Asılılıq anlayışı artıq tarixdə qalıb. Bu gün müstəqillik sözünü istismar etmək, Azərbaycanın müstəqil, azad olduğunu dəfələrlə vurğulamaq, artıq başqa mətləblərdən xəbər verir. Azərbaycan dünyada mövcud olan digər dövlətlər kimi tərəfdaşlıq qurur. Bu günə qədər Azərbaycanın həm iqtisadi, həm də siyasi tərəfdarı Qərb dövlətləri olub. Amma son bir ildə bu situasiya dəyişib və Azərbaycan-Qərb münasibətlərində müəyyən qədər gərginlik yaşanıb. Mən istisna etmirəm ki, bu gərginliyin səbəbi Azərbaycan hökumətinin Qərbdən imtina edib, Rusiyanı seçməsidir. Yüksək ehtimalla bu gərginlik onun əlamətləridir".

**Politoloq vurğuladı ki, Azərbaycan hökumətinin Amerikanı baykot etmək siyasəti artıq iki ölkə arasındakı münasibətlərə təsir edib:** "Ancaq bu haraya qədər davam edə bilər? Azərbaycana da digər dövlətlər kimi sanksiyalar tətbiq olunacaqmı və olunacaqsa, bu, hansı nəticələrə gətirib, çıxara bilər? Görünən odur ki, bu proses qarşılıqlı söz savaşı və ittihamlar səviyyəsində qalmayacaq. İstənilən halda, bunun real təsirləri özünü göstərəcək".

**Ərəstun Oruclu Azərbaycanın Qərbdən və Amerikadan imtina edərək, Rusiyaya tərəf yönəldiyi fikrinə də aydınlıq gətirib:** "Ancaq bu, hələlik açıq görünmür. Əgər, Azərbaycan Rusiya və Qazaxıstanla birgə Xəzərdə hərbi təlimlər keçirirsə, bu, artıq Azərbaycanın Rusiyaya yaxınlaşması deməkdir. Əgər, 3-4 il əvvəl Azərbaycan müdafiə xarakterli silahlarını İsraildən alırdısa, ancaq son iki ildə bunu Rusiyadan alırsa, bu da Rusiyaya yaxınlaşmaq mənasını verir".

**Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin üzvü Asim Mollazadə isə musavat.com-a açıqlamasında Azərbaycanın ABŞ-la tərəfdaş ölkə olduğunu və iki ölkənin bir neçə sahədə əməkdaşlıq etdiyini vurğulayıb:** "Xüsusilə də, təhlükəsizlik, enerji və iqtisadi məsələlərdə iki ölkə arasında əməkdaşlıq mövcuddur. Düzdür, demokratiya, insan haqları və bu kimi məsələlərdə ciddi fikirayrılıqları var. Lakin Azərbaycanın xarici siyasətində hər hansı dəyişiklik yoxdur. ABŞ-da da Azərbaycana qarşı illərdir ki, çox ciddi, nüfuzlu və təhlükəli erməni diasporası fəaliyyət göstərir.

Son illərdə qondarma "erməni soyqırımı"nın yüzilliyi" ilə bağlı Azərbaycana və Türkiyəyə qarşı bu fəaliyyət daha da artıb. Ancaq bütün bunlarla yanaşı, mən Azərbaycanın xarici siyasətində heç bir ciddi dəyişiklik görmürəm. Azərbaycan ABŞ-la tərəfdaşdır, antiterror koalisiyasının üzvüdür və qeyd etdiyim sahələrdə əməkdaşlığımız var.

Təbii ki, azərbaycanlı rəsmilər tərəfindən Amerikaya qarşı fikirlər səslənir. Ancaq bu, o demək deyil ki, iki ölkə arasındakı münasibətlər pozulur. ABŞ Azərbaycanın önəmini çox yaxşı anlayır və bu cür mürəkkəb bölgədə Amerikanın ən etibar elədiyi tərəfdaşlar Türkiyə və Azərbaycandır".

❑ **Nərgiz LİFTİYEVA**

# Azərbaycan məmurlarına sanksiya tətbiqi xəbəri təkzib olundu

## XİN, Baş Prokurorluq və Avropa İttifaqından reaksiya gəldi

**"Azərbaycan saatı" proqramı 11 yanvarda efirə gedən buraxılışında ABŞ və Avropa Birliyinin 31 Azərbaycan məmuruna sanksiya tətbiq etməsi haqda xəbər yayıb. Xüsusilə də rəsmi Bakıya qarşı sanksiyaların tətbiqi barədə Avropa Parlamenti və ABŞ-dan çağırışların səslənməsindən sonraya təsadüf edən bu informasiya ciddi müzakirələrə səbəb olub.**

Xatırladaq ki, "Azərbaycan saatı" verilişində Aİ və ABŞ Dövlət Departamentinin insan haqlarını pozan 31 Azərbaycan məmuruna sanksiya tətbiq etməsi barədə xəbər verilib. Verilişdə həmin 31 nəfərin adı da sadalanıb. Onlar əsasən hakimlər və prokurorluq əməkdaşlarıdır.

Ancaq rəsmi Bakı məlumatı təsdiqləmir. XİN-in mətbuat katibi Hikmət Hacıyev "Yeni Müsavat"a bildirdi ki, nazirlik KİV-lərdə yayılan bu cür məlumatları şərh etmir.

Baş Prokurorluq da bəzi KİV-in prokurorluq əməkdaşlarına sanksiya qoyulması xəbərini təkzib edib. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov APA-nın sorğusuna cavabında bildirib ki, sosial şəbəkələrdə və bəzi KİV-də prokurorluq orqanlarının 11 nəfərinə qarşı sanksiya qoyulması barədə yayılan xəbərlər əsassızdır və tərəfimizdən qəti şəkildə təkzib olunur. E.Sultanov həmçinin bildirib ki, Baş Prokurorluğun əməkdaşları mütəmadi olaraq beynəlxalq tədbirlər və ezamiyyətlərlə bağlı xarici ölkələrdə səfərlərdə olur: "Baş Prokurorun birinci müavini Rüstəm Usubov ötən ilin noyabrında Almaniya və Avstriyaya səfər edib. Baş Prokurorluğun Ağır Cinayətlərə dair işlər üzrə istintaq idarəsinin rəisi Eldar Əhmədov ötən ilin iyul ayında Almaniyada, həmin idarənin müstəntiqi Qasım Məmmədov ötən ilin noyabr-dekabr aylarında Finlandiyada, digər müstəntiq İbrahim Ləmbəranski isə dekabr-yanvar aylarında Avstriya və İtaliyada ezamiyyətdə olub, hazırda isə Finlandiyadadır".



"Avropa İttifaqı nə Azərbaycana, nə də azərbaycanlı olan hər hansı şəxsə qarşı sanksiya tətbiq edib". Bunu isə Avropa İttifaqının (Aİ) xarici əlaqələr şurasının mətbuat katibi Suzanna Keiefer APA-nın sorğusuna cavabında deyib. ABŞ-ın Azərbaycandakı səfirliyi də bu dövlət və Aİ tərəfindən 31 azərbaycanlı məmura sanksiya tətbiq edilməsi xəbərinə münasibət bildirib. Səfirlikdən APA-ya deyilib ki, bu xəbər doğru deyil: "Azərbaycana qarşı hər hansı sanksiya tətbiq edilməyib".

❑ **Cavìd TURAN**

# Ümid seçkilərə hazırlıqla bağlı müzakirə apardı

**Yanvarın 12-də Ümid Partiyası Rəyasət Heyəti növbəti toplantısını keçirib. Toplantıda regionda, ölkədə və dünyada baş verən ictimai-siyasi proseslər, 2015-ci ildə keçiriləcək növbəti Parlament seçkiləri, partiyanın seçkilərə hazırlığı və qarşıda duran vəzifələr müzakirə olunub. Partiya sədri İqbal Ağazadə seçkilərə hazırlıqla bağlı funksionerlərə tapşırıq və tövsiyələr verib.**











# "2015 yeni mərhələnin başlanğıcı olacaq"

## Taleh Əliyev: "Mövcud geosiyasi qarşıdurma yeni dünya düzəninin formalaşması ilə yekunlaşacaq"

**Ümid Partiyası İcra Aparatının rəhbəri, politoloq Taleh Əliyev dünyada və ölkədə baş verən hadisələrlə bağlı partiyanın Mətbuat Xidmətinə danışıb. Müsahibəni oxuculara təqdim edirik.**

***- Taleh bəy, Yaxın Şərqdə baş verən hadisələr, Krımın ilhaqı, İŞİD-in meydana gəlməsi və ən nəhayət Parisdə baş verən terror aktı kontekstində 2015-ci ili necə dəyərləndirərdiniz?***

- Sadaladığınız problemlərin hamısı bir-biri ilə əlaqəli olan məsələlərdir. Bütün bunların baş verməsinin əsas səbəbi qlobal güclərin mövcud beynəlxalq hüquqa və beynəlxalq təşkilatlara qarşı saygısızlığıdır. Bu gün dünyada demokratiya ilə onun əleyhdarları arasında həlledici mübarizə gedir. Neftin sürətlə ucuzlaşmsının arxasında da bu mübarizə dayanır. Baxmayaraq ki, Sovetlər birliyi dağıldıqdan sonra dünya birqütblü hesab olunurdu, amma qeyd etdiyim kimi müasir dünyada iki dünya görüş hakim idi. Demokratiya və onun əleyhdarları. Avtoritar rejimlər, terror təşkilatları və s. müasir dünyada sülhə, tolerantlığa və birgə yaşayışa qarşı ən böyük təhlükə mənbəyinə çevrilib. Əslində bu hadisələr də birdən -birə baş verməli. Son illər qeyd etdiyim kimi qlobal güclərin mövcud beynəlxalq hüquqa və beynəlxalq təşkilatlara qarşı saygısız davranışı buğunki qlobal böhrana gətirib çıxartdı. Amma bu krizis uzun sürməyəcək. Hesab edirəm ki, 2015-ci il yeni mərhələnin başlanğıcı olacaq. Mövcud geosiyasi qarşıdurma yeni dünya düzəninin formalaşması ilə yekunlaşacaq. Çünki qarşı duran tərəflər arasında qüvvələr nisbəti qeyri-bərabərdir. Əgər bir tərəfdə demokratiya və insan haqlarının heç bir ölkənin daxili işi olmadığını bəyan edən və xalqını arxasına alan demokratik rejimlər dayanıbsa, digər tərəfdə isə nəinki beynəlxalq hüquqa, heç öz qanunlarına da məhəl qoymayan və xalqını da qarşısına alan avtoritar rejimlər yer alır. Belə bir mübarizədə ikincilərin məğlub olacağı isə şübhəsizdir.

***- Söhbət neftdən düşmüşkən sizcə neftin ucuzlaşması bizim ölkəyə və ən əsası siyasi proseslərə necə təsir edəcək?***

- Neftin ucuzlaşmasının ölkənin gəlirlərinin azalacağına gətirib çıxaracağı barədə Nazirlər Kabinetinin son müşavirəsində prezident İlham Əliyev də bildirdi. Hesab edirəm ki, iqtisadiyyatı neftdən asılı olan bir ölkə kimi neftin ucuzlaşması bizim ölkənin də sosial-iqtisadi həyatına mənfi təsir edəcək. Məsələnin sosial və iqtisadi aspektləri barədə iqtisadçı ekspertlər daha detallı danışdıqlarına görə bu barədə geniş danışmaq istəməzdim. O ki, qaldı neftin ucuzlaşmasının siyasi proseslərə təsirinə, 2015-ci ilin seçki ili olduğunu da nəzərə alaraq çox böyük təsir edəcəyini deyərdim. Amma 2015-ci ili ölkəmizin həyatında təkcə neftin ucuzlaşması və seçki ili olması ilə dəyərləndirmək tam doğru deyil. Düzdü başqa heç bir hadisə olmasaydı da bu iki hadisə kifayət qədər mühüm idi. Amma bilirsiniz ki, bu il ölkəmiz ilk dəfə keçiriləcək Yay Avropa Olimpiya Oyunlarına ev sahibliyi edəcək. Eyni zamanda Şərq Tərəfdaşlığı Proqramının növbəti sammiti keçiriləcək. Bax bütün bunlar 2015-ci ildə ölkəmizdə baş verəcək siyasi proseslərə əhəmiyyətli dərəcədə yön verəcək.

***- Seçkilər barədə nə deyə bilərsiniz? Ümid Partiyası seçki hazırlıqlarına start veribmi?***

- Bu ilki parlament seçkiləri hakimiyyət üçün o qədərdə əlverişli olmayan bir dövrdə keçiriləcək. Yuxarıda sadaladığımız faktorlar və geosiyasi güclərin region uğrunda açıq savaşdığı bir vaxtda keçirilən seçkilərdə bütün bu faktorlar nəzərə alınmalıdır və yaqin ki nəzərə alınacaq da. Xüsusilərdə geosiyasi güclərin regiondakı qüvvələr nisbəti və Azərbaycan hakimiyyətinə təsir imkanları seçkinin taleyinə əhəmiyyətli dərəcədə təsir edəcək. Çox yaxşı olardı ki, hakimiyyət son illər keçirilən seçki ənənəsinə son qoyaraq ölkədə barış və dialoqa zəmanət verən etimadlı bir seçki keçirəydi. Geosiyasi güclərin hər hansı birinin regionda söz sahibi olmasından asılı olmayaraq ölkədə sabitliyə, təhlükəsizliyə və dövlətçiliyə zəmanət verən bir parlament formalaşaydı. Bunun üçün isə ilk növbədə xalqın narazı təbəqəsini təmsil edən siyasi partiyaların seçkilərdə normal iştirakına şərait yaradılmalıdır. Düzdür, parlament seçkiləri Azərbaycanda yeganə seçkidir ki, bütün aparıcı müxalifət partiyaları hər zaman bu seçkidə iştirak edib. Nə mövcud Seçki Məcəlləsi, nə seçki öncəsi vəziyyət, nə də azad, ədalətli və şəffaf seçkilərin keçirilməsinə mane olan digər faktorlar aparıcı müxalifət partiyalarına parlament seçkilərində iştirak etməyə mane olmayıb. Bunun başlıca məqsədi isə müxalifətin ölkə idarəçiliyində yalnız parlamentdə təmsil olunmaqla iştirak etməsidir. Ümid Partiyası da öz prinsiplərinə - ölkədə barış və dialoq mühitinin yaradılması ideyalarına sadiq qalaraq parlament seçkilərində aktiv iştiraka hazırlaşır. Hədəfimiz parlamentdə ÜMİD fraksiya yaratmaqdır.



**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**



# Robert Dauni-oğula məsləhətlərim

Zamin HACI
zaminhaci@mail.ru

**Bir maraqlı müşahidəmi bölüşmək istəyirəm: o hərəkətlər ki, Azərbaycanda törətsən cinayət sayılmır, azərbaycanlılar həmin hərəkətləri başqa dövlətlərə qarşı edəndə cinayətkar olurlar. Bunu mən ancaq YAP-ın planetar siyasəti ilə izah edərdim. Bütün dünyada haqqı pozulan, imperializm zülmündən, eboladan, quş qripindən, canım sənə desin, qlobal istiləşmədən əziyyət çəkən xalqları, məzlumları bir qoruyan olmalı idi, ya yox? Hal-hazırda bu qutsal (müqəddəs) görəv (vəzifə - yazılarımı türkləşdirirəm, fikir verməyin) uca millətimizin üzərinə düşübdür.**

Misal üçün, Fransada terror olandan sonra fransızların keçmişdə Əlcəzairi işğal edib adamları öldürməsini ən çox kim qınadı? Biz! Çünki bizim qan yaddaşımız, müsəlman təəssübkeşliyimiz hamıdan güclüdür. Lazım gəlsə Parisi partladarıq. Ali baş komandanın əmrini gözləyirik. Hətta yaponların amerikalılardan qisasını almaq kimi bir vəzifəmiz də vardır. Atom bombasına görə. Hələ özümüz dinmirik, başımız Əlcəzairə qarışıb.

Azadlıq Radiosunu bağlamaq da həmçinin, bu xarici siyasətin davamıdır. Orda əsas ittihamlardan biri belənçikdir: ABŞ-dan redaksiyaya pul gəlib, baş mühasib İbiş işçilərə kağızdakından az pul verib. Sadə desək, İbiş işçini çağırıb deyirmiş, Mamed, burda sənin adına 3 min dollar yazıram, ancaq maaşın olacaq 1000 dollar, qalanını özüm bilərəm neyləyəcəyəm. Mamed yazıq da neyləsin, işsizlikdir (əlbəttə, mövzunun bu hissəsi önəmli deyil, respublikamız inkişaf edir, 1 milyard yeni iş yeri açılıbdır), o üzdən məcbur olurmuş 1000 dollara razılaşsın.

İndi hörmətli baş prokuror deyir ki, nə üçün İbiş dövlət vəsaitini mənimsəyibdir, buna görə cavab verməlidir (Yəni, gətir qus görək nə qədər yemisən).

Xub, pakizə, əla, gözəl, yes! Ancaq axı İbiş və ətrafındakı dəhşətli jurnalist çetəsi burda hansı dövlətin vəsaitini mənimsəyib?! Gördüyümüz kimi, ABŞ-ın. Deməli, Zakir müəllim bu halda Amerika vergi ödəyicilərinin, Florida və Arizona xalqının mənafelərini qoruyur!

Halbuki, heç bizim dövlət vəsaitlərini ceviz yerinə kisəyə yığan yoxdur. Örnək üçün, elə keçən ay Müdafiə Nazirliyinin bir əski polkovniki türmədən buraxıldı, onun ittiham maddəsi məhz "dövlət əmlakını mənimsəmə" şəklində idi. Bizim pulumuz çoxdur, bunu yeyəni tutmuruq.

Amerikadan söz düşmüşkən, keçən il Hollivudda çəkilən filmlərdən biri "Hakim" adlanır, mən buna baxdım. Məhkəmə hakimi, onun vəkil işləyən oğlu, ümumən ABŞ ədliyyə sistemi haqda filmdir. Elə də fısqırıq film deyildi, ümumən Amerikada belə bir film cərəyanı var, məhkəmə işləri haqda çoxlu tanınmış filmlər də çəkilib. Bunlardan adlarını çəkə bilərəm: "12 qəzəbli kişi", "İblisin vəkili", "Nürnberq prosesi", "Erin Brokoviç", "Amistad", "Çobanaldadan quşunu öldürmək" və sairə. "Hakim" o səviyyədə film deyildi.

Sözgəlişi, kimin əlaqəsi varsa bu filmdə baş rollardan birini oynayan Robert Dauni-oğula desin ki, bəsdir özünü Al Paçino kimi apardın, biz bu kinonu bir dəfə görmüşük! Təkrarsız olmaq lazımdır. Dünya kinosunda qayda yaratmaq da bizim borcumuzdur, o üzdən yazdım. Bütün müsəlman xalqı da mənim kimi düşünür.

Ancaq "Hakim" filminə baxarkən mən ayrı bir şey fikirləşdim. Fikirləşdim ki, misal üçün, bizdə belə məhkəmə-filmləri çəkəsən, orda hakimlə vəkil, prokurorla şahid arasında diskussiyalar ola, kimsə yaxşı çıxış edib, güclü hazırlaşıb prosesi uda, hakim öləndə dövlət bayrağını endirələr və sairə. Çətin. Bizdə nə fantastika, nə komediya filmləri janr olaraq inkişaf etməyibdir.

**Əslində bizdə heç kino yoxdur, çünki fransız Lümyer qardaşları kino qurğusunu kəşf edəndə bizim başımız məzlum Əlcəzair xalqını qorumağa qarışmışdı. Hələ də ordayıq. Zinəddin Zidan qorxub qaçıb, ancaq biz aslan kimi vuruşuruq.**

# İsa Qəmbər: "Mən onları sındırmaq istəmirəm"

## "Özünü ciddi siyasi qüvvə sayan istənilən partiya gec-tez bunu edəcək"

**"Bizim qonaq" rubrikasının qonağı Müsavat Partiyasının eks - başqanı, Milli Strateji Düşüncə Mərkəzinin sədri İsa Qəmbərdir. Söhbətin üçüncü hissəsini təqdim edirik.**

(əvvəli ötən saylarımızda)



***- Maşınlara gömrük rüsumu artdı, bank hesablarına vergi tətbiq olundu, mülkiyyət vergiləri artırıldı, digər tədbirlərin də olacağı çox gözləniləndir. Necə düşünürsünüz, bu tədbirlər manatın möhkəmliyini qoruya biləcəkmi?***

- Azərbaycan hakimiyyəti böhran olmadığını iddia edirsə, gərək bu addımları atmayaydı. Atırsa, demək, böhran var, yaranır. Bütün bu addımlar büdcə gəlirlərini artırmaq cəhdidir. Bütövlükdə görünür ki, hakimiyyətin iqtisadi bloku yığışıb yaxınlaşan böhrandan, neftin qiymətinin düşməsindən nə cür müdafiə olunmaq olar, büdcəni nə cür doldurmaq olar mövzusunda ciddi müzakirələr aparıblar, təkliflər veriblər, bu təkliflərin önəmli bir hissəsi də qəbul olunub. Ola bilər, hələ yeni təkliflər də olsun. İstər siyasi, istər iqtisadi baxımdan, Fransada baş verənlər də mənəvi baxımdan dünyada ciddi bir silkələnmə yaranıb və bunların bölgəyə təsiri də qaçılmazdır.

***- 2015-ci il siyasi gündəmində bir amil də var - Müsavat Partiyası amili. Bayaq böhrandan danışdıq, kənardan görünən budur ki, böhran Azərbaycandakı müxalif düşərgədə, o sıradan Müsavat Partiyasında da var. Bu fikri bölüşürsünüzmü? Müsavat Partiyası ötən ilin sonlarına doğru sizin də atdığınız addım sayəsində gündəmə uzunmüddətli partiyadaxili münaqişələr, çəkişmələr, söz, mövqe çəkişməsi, bir sıra hallarda istefalarla gəlir. 2015 kimi həssas, həlledici bir məqamda partiyanın bu durumda starta başlaması nəticələri hansı şəkildə təsirləndirə bilər? Seçkilərlə bağlı, ümumi demokratikləşmə prosesi ilə bağlı Müsavat Partiyası geridə qala bilərmi? Bəzilərinin də iddia elədiyi kimi Müsavat Partiyası siyasi səhnədə arxa plana keçməyə başladımı? Sizin rəhbərlik etdiyiniz uzun bir dönəmdə Müsavat Azərbaycan siyasətinin əsas amili idi. İndi iddialar var ki, əsas amil artıq Müsavat deyil.***

- Əvvəla, indi də aydın şəkildə görünür ki, əsas mübarizə xətti hakimiyyət və Müsavat arasındadır. Müsavat Partiyası sıradan, sadəcə hakimiyyət uğrunda mübarizə aparan, cari siyasi hədəfləri olan partiya deyil. Müsavat Azərbaycanın taleyi ilə bağlı, dünəni, bu günü, gələcəyi ilə bağlı böyük bir missiyadır. 100 ildən artıq davam edən bu missiyanın daşıyıcıları olub, indi də var. Müxtəlif mərhələlərdə partiya daha güclü və daha zəif ola bilər. 1992-ci ildə Müsavatın Azərbaycanda bərpasına qədər də partiya müxtəlif mərhələlərdən keçib. 1992-ci ildən bu günə qədər də çox ciddi sınaqlar olub. Heç bir böhran, heç bir çətinlik, heç bir partiya daxili problem müsavat ideyasının, Müsavat Partiyasının missiyasının zəifləməsinə gətirib çıxara bilməz. Məhəmməd Əmin Rəsulzadə bir neçə silahdaşı ilə tək qalanda da Azərbaycanın müstəqilliyinin bayraqdarı idi, Azərbaycan xalqının gələcəyinin mənəvi-siyasi təminatçısı idi, gələcəkdə də məncə, bu belə davam edəcək. Konkret situasiyaya gəldikdə isə, Azərbaycanda avtoritar rejim formalaşıb. Bu rejim bütün azadlıqları məhdudlaşdırır. Heç bir normal, demokratik prosesə imkan vermir. Seçki adıyla saxta proseslər düzənlənir. Biz demokratik düşərgə, müxalifət olaraq hakimiyyətdən tələb edirik ki, ölkədə həqiqi seçki keçirilməlidir, ölkədə azad, ədalətli seçki olmalıdır. Namizədlərə bərabər imkanlar yaradılmalıdır, seçki komissiyaları paritet əsaslarla formalaşdırılmalıdır. Bunlar olmadan seçki proses iştirakçılarının etimadını qazana bilməz. Seçkidə səslər düzgün, şəffaf sayılmalıdır. Biz illərdir bunu hakimiyyətdən tələb edirik, ancaq hakimiyyət bunu etmir. Bu mərhələdə Müsavat Partiyası hər zaman olduğu kimi yenə də demokratik inkişaf məsələsində öncüllük edir, ortaya nümunə qoyur, dediyimiz şərtlərin hamısına - təbii dövlət miqyasında yox, partiya miqyasında - əməl edir. Namizədlərin öncədən bəyan olunması ilə, onlara bərabər təbliğat imkanları yaradılması ilə, tərəflərin təqdim etdiyi şəxslərdən ibarət paritet əsasda seçki komissiyası yaratmaqla, səslərin şəffaf, düzgün sayılmasını təmin etməklə bir proses təqdim edir. Bununla həm cəmiyyətə, xalqa, həm də hakimiyyətə bir nümunə göstərir. Bu mən əminəm ki, həddən artıq zəruri bir addım idi. Bunu kimsə birinci etməliydi əvvəl-axır.



## "Onu da bilirəm ki, Müsavat Partiyasının indiki rəhbərliyi bu məsələlərə məndən daha təmkinli yanaşır"

***- Baha başa gəlmədimi?***

- Bu yeniliyi bizim etməyimiz məntiqlidir. Təvazökarlıqdan uzaq olsa da deyim ki, Azərbaycanda ilk və yeganə demokratik seçki mən prezident səlahiyyətlərini icra edəndə - 1992-ci ilin iyunun 7-də mənim nəzarətim altında təşkil olunub. İndi də Müsavat Partiyasının timsalında biz yeni bir nümunə ortaya qoymalıydıq və qoyduq. Mən əminəm ki, özünə sayğı duyan, özünü ciddi siyasi qüvvə sayan istənilən partiya gec-tez bunu edəcək. Əks halda bu partiyaların tənqid etdiyimiz avtoritar Əliyev rejimindən fərqi nədir ki? Bu dəyişiklik, bu nümunə olmalıydı və Müsavat Partiyası olaraq biz bunu etdik.

***- Partiya zədələndimi?***

- Yenilik hər zaman fədakarlıq tələb edir. Prosesdə nöqsanlar olub-olmayıb sualına cavabda partiya daxilində narazı kəsimin nümayəndələri deyirlər, olub. Partiya çoxluğu, rəhbər orqanları isə araşdırmalardan sonra deyir ki, ciddi, nəticələrə təsir edən bir nöqsan yoxdur. Bunları təbii, diskussiya etmək olar. Amma məsələ burasındadır ki, mən bunu Müsavatın Məclisində də dedim, bizim standartlar çox yüksəkdir. Yəni heç bir partiyada kiminsə növbəti qurultayda sədr, məclis başqanı, sədr müavinləri olacağı müzakirə olunmur. Çünki standartlar çox aşağıdır, ortada müzakirəlik bir şey yoxdur. Müsavatda isə standartlar çox yüksəyə qaldırılıb. Standartlar çox yüksək olduğu üçün iradlar səslənir. Bu, məsələnin birinci tərəfidir. İkinci tərəf isə odur ki, Müsavatdakı bu demokratik proses, seçki prosesinin təkmilləşdirilməsi bir gündə yaranmayıb, bir gündə də ideala çata bilməz. Partiyanı 1992-ci ildə təhvil alanda biz onu necə idarə edəcəyimizi özümüz müəyyənləşdirirdik. Təbii, ənənələr vardı, ancaq qərarları biz verirdik. Səvermənin gizli olmasını biz müəyyən etmişik. 10-12 ildən sonra, yeni əsrin ilk illərində qərar verdik ki, namizədlər qurultayda, məclisdə irəli sürülməsin, öncədən kim hansı vəzifəyə iddia edirsə, ərizə yazsın, konkret postlara namizədlər öncədən məlum olsun, bundan sonra onlara təbliğat imkanı yaradılsın. Biz partiyada paritet əsasda Seçki Komissiyasının yaradılmasını təşkil etmişik. Bu ciddi bir prosesdir, əgər qurultayda, seçkinin keçirilməsində hər hansı nöqsan varsa, bu nöqsanlara görə süni gərginlik yaratmaq yox, gələcəkdə o nöqsanlara yol verilməməsinə diqqət cəlb etmək, çalışmaq lazımdır. Seçkinin gedişində namizədlərdən biri deyirdi ki, İcra Aparatının nümayəndələri seçkinin gedişinə qarışmamalı, təbliğat prosesində iştirak etməməlidirlər. İddia edirdilər ki, guya onların böyük təsir imkanları var. Ancaq heç kim demirdi ki, Mərkəzi Nəzarət Təftiş Komissiyasının üzvləri seçki prosesinə qarışmamalıdır. Halbuki, məntiqlə MNTK üzvləri seçkiyə qarışmamalıdırlar. Çünki, seçkidən sonrakı şikayətləri və narazılıqları məhz MNTK araşdırır. MNTK partiyanın bir növ məhkəməsidir. Məhkəmənin üzvləri tərəf olmamalıdırlar ki, müraciətlərə tərəfsiz baxa bilsinlər, şikayətləri araşdırmağa mənəvi əsasları da olsun. Bunu heç kim demədi. MNTK-nın da, Mərkəzi İcra Aparatının da kimləri müdafiə etdiyi bəlli idi. Mən o zaman daxili müzakirələrdə fikirlərimi demişdim, indi açıq deyirəm. Bəli, mən hesab edirəm ki, İcra Aparatı nümayəndələrinin təbliğatda iştirak etməsinin qarşısını almaq doğru deyil, çünki aparatın üzvləri Müsavatın ən fəal üzvləridir, partiya üçün daha çox əziyyət çəkən, işləyən insanlardırlar. Onların da buna hüquqları var. Ancaq MNTK üzvlərinin seçki təbliğatına qatılmamasını müzakirə etmək olar, çünki dediyim kimi onlar obyektiv bir mövqe sərgiləməlidirlər, hamıya bərabər məsafədə dayanmağı bacarmalıdırlar. Bunu ona görə misal gətirirəm ki, yaşananları gələcəkdə Müsavat Partiyasının seçki təcrübəsini təkmilləşdirmək üçün nəzərə almaq lazımdır. Mənim fikrim budur. Məsələnin üçüncü tərəfi də var - situasiya xoşagəlməz situasiyadır. Təbii, narazılıq bu tərzdə, bu cür aqressiv şəkildə ifadə olunmasaydı, Müsavat Partiyasının qurultayının Azərbaycan demokratiyasının inkişafına etdiyi bu xidməti cəmiyyət də ciddi qiymətləndirərdi, etiraf etməsə də hakimiyyət də bununla müəyyən dərəcədə hesablaşmağa məcbur olardı. Hər halda müsbət nəticələr olardı. Təəssüf ki, müəyyən partiyadaxili cəhdlər nəticəsində bugünkü müsbət təsirlər taktiki baxımdan xeyli məhdudlaşdırıldı. Amma istər-istəməz, kimin xoşuna gəlsə də, gəlməsə də, bu qurultay Azərbaycanın demokratiya tarixinə qızıl hərflərlə yazılıb və bunu heç kim dəyişə bilməyəcək.

## "Əgər qurultayda, seçkinin keçirilməsində hər hansı nöqsan varsa, bu nöqsanlara görə süni gərginlik yaratmaq yox, gələcəkdə o nöqsanlara yol verilməməsinə diqqət cəlb etmək, çalışmaq lazımdır"

***- Axı, nəticə böhrana səbəb oldu. Siz partiya daxilindəki böhranı ciddi hesab etmirsiniz?***

- Problem nə qədərdirsə, o qədərdir. Onu nə böyütməyə, nə də kiçiltməyə ehtiyac yoxdur. Böyütmək istəyənlər var... Məncə, böhran yoxdur. Partiya öz proqram və nizamnaməsinə uyğun şəkildə yolunu gedir. Başqan seçilib, MNTK seçilib, Məclis üzvlərinin çoxu seçilib, Məclis sədri seçilib, Mərkəzi İcra Aparatının rəhbəri təyin edilib, müavinlər təyin olunub, Divan seçilib. Artıq partiya strukturlarının yenidən formalaşması rəhbər səviyyədə yekunlaşıb, artıq rayon təşkilatları yenidən toparlanır.

***- İddialar var ki, Müsavat rəhbərliyinin plankası aşağı salınıb. Qabaqkı rəhbər heyətlə indiki rəhbər heyət arasında çox kəskin fərqlər var, deyirlər. İddia edilir ki, Müsavat Partiyası daha öncəki miqyasda yük götürə bilməyəcək.***

- Bunu deyənlər kimdi? Müsavat Partiyasının hər qurultayından sonra dəyişikliklər olub. Kim istəyirsə, maraqlana bilər. 1992-ci ildə seçilən birinci Divan heyətini, hər qurultaydan sonrakı Divan heyətlərini müqayisəsi aparsınlar. Dəyişikliklər labüddür, heç bir Partiyanın rəhbər qurumu daimi, eyni tərkibdə qala bilməz. Yenilənmə qaçılmazdır. Yenilənmə də obyektiv faktorların təsiri altında baş verir. Mən detallara getmək istəmirəm, ancaq kimsə partiya rəhbərliyində iştirak eləmək istəmirsə, onu bu işə zorla sövq eləmək olmaz ki? Bugün Müsavatın Məclis sədri də, MNTK sədri də, Mərkəzi icra aparatı rəhbəri də alim statusuna malik şəxslərdir, müvafiq olaraq filologiya, biologiya, fizika elmləri namizədidirlər. Onu da qeyd edim ki, 4 rəhbər vəzifədən ikisinə qadınlar seçilib. Bütövlükdə mən əminəm ki, Müsavat Partiyasının orqanları yenidən formalaşma mərhələsini yetərincə sürətlə davam etdirir, rayon təşkilatları səviyyəsində də bu proses normal axarla davam edir. Mən əminəm ki, Müsavat Partiyası 2015-ci ildə 2014-cü ildən daha güclü bir şəkildə fəaliyyət göstərəcək. Yenə də Azərbaycan siyasi gündəmini müəyyənləşdirən qüvvələrin önündə olacaq. Buna heç bir şübhəm yoxdur. Mən bu məqamlarda xırda-para məsələlərə toxunmaq istəmirəm. Ancaq bu gün adı narazılar sırasında çəkilənlər arasında fəal müsavatçılar olduğu kimi, xeylisi Müsavat Partiyası ilə əlaqələrini bir neçə il idi ya tamamilə kəsmişdi, ya da onların partiya ilə əlaqələri formal xarakter daşıyırdı. Bu baxımdan o insanların yalnız qurultay ərəfəsində, səsvermədən sonra, qurultaydan sonra partiyadaxili narazılıqlar yaranan zaman fəallıq göstərməsi o demək deyil ki, həmin insanlar doğrudan da fəallıq göstərmək niyyətində idilər.

## "Bu gün adı narazılar sırasında çəkilənlərin xeylisi Müsavat Partiyası ilə əlaqələrini bir neçə il idi ya tamamilə kəsmişdi, ya da onların partiya ilə əlaqələri formal xarakter daşıyırdı"





***- Partiyada təşəbbüsü ələ almağa, rəhbərliyə gəlməyə şans yarandığı üçün belə bir addım ata bilməzdilərmi? Bu onların hüququ deyilmi?***

- Hüquqi cəhətdən bu qurultaya qədər Müsavat Partiyasında təmsil olunan hər kəsin hüququdur. Təbii, Müsavat Partiyası üçün daim çalışan insanlarla 10 ildə partiyanın qapısını 5 dəfə açmayan insanların mənəvi haqlarının eyni olub-olmaması ciddi bir diskussiya mövzusu ola bilər. İstənilən halda, qurultay oldu, bitdi, ən yüksək səviyyədə seçki oldu, məsələ yekunlaşdı. Bundan sonra qurultay nəticələrini qəbul edənlər bir yerdə yollarına davam edəcəklər, nəticələri qəbul etməyənlər də özləri qərar verməlidirlər ki, Müsavatladırlar ya Müsavata qarşı. Nə etmək olar? Seçim onlarındır. Mən onu da bilirəm ki, Müsavat Partiyasının indiki rəhbərliyi bu məsələlərə məndən daha təmkinli yanaşır.

***- Sizin rəhbərliyiniz zamanı indi tərəf olan şəxslər çox uğurlu fəaliyyət göstərirdilər...***

- Mən bu söhbətlərə qayıtmaq, fərdiləşdirmək istəmirəm, çünki dərinə getmək istəmirəm. Mən insanları aşağılamaq istəmirəm, mən adamları yüksəltmək istəyirəm. Kim ki Müsavat Partiyasında namusuyla, vicdanıyla, ləyaqəti ilə partiyaya, xalqa, cəmiyyətə xidmət edib, mən hər zaman o adamları yüksəltməyə, gücləndirməyə, onları cəmiyyətə təsirini artırmağa çalışmışam. Mən onların nöqsanlarını görəndə də onları aşağılamaq, sındırmaq, onların qüsurlarını ictimailəşdirib nüfuzdan salmaq istəmirəm.

***- İsa bəy, sizcə, bu prosesdə hakimiyyətin rolu var idimi?***

*(Ardı var)*

**Qələmə aldı: Aygün MURADXANLI**

## "Narazılıq bu cür aqressiv şəkildə ifadə olunmasaydı, Müsavat Partiyasının qurultayının Azərbaycan demokratiyasının inkişafına etdiyi bu xidməti cəmiyyət də ciddi qiymətləndirərdi, etiraf etməsə də hakimiyyət də bununla müəyyən dərəcədə hesablaşmağa məcbur olardı"

# Biz niyə M.Tvenin yubileyini qeyd etmirik?



Hüseynbala SƏLİMOV

**O gün gördüm ki, M.Lermontovun yubileyini qeyd edirdilər. Təbii ki, sevimli şairi M.Lermontov olan bir kəs üçün bundan maraqlı şey ola bilməzdi...**

Amma nədənsə mənə elə gəldi ki, ora toplaşanlar heç də Lermontov poeziyasının işığına yığışmayıblar. Dünyada əcaib-qəraib şeylər çox olur. Zira mənə həmişə elə gəlib ki, Lermontovu oxuyan, onun yaradıcılığını sevən insan heç vaxt şər əmələ xidmət etməz...

Burada bir incə məsələ də var. Təbii ki, Puşkin, Lermontov bizə digər dünya klassiklərindən bir köynək yaxındır- onlar, necə deyərlər, bizim uşaqlıq dostlarımızdır. Amma biz uşaqlıqda və gənclikdə Mark Tveni də, Viktor Hüqonu da sevə-sevə oxumuşduq. Bu məntiqlə gərək onların da yubileyini keçirək. Həqiqətən də niyə görə Mark Tvenin yubileyi keçirilməsin? Və yaxud da ki, Viktor Hüqonun...

Doğrusu, mən bilmirəm, o yazarların ölkəsində belə bir ənənə-yəni, yubiley keçirmək ənənəsi var, ya yox? Güman ki, yoxdur...

Elə bu səbəbdən də Lermontovun da yubileyinə siyasi bir hadisə kimi baxmaq lazımdır - bunlar bunu ona görə etmirlər ki, Lermontov poeziyasının vurğunudurlar, ona görə edirlər ki, Rusiyanın bunlardan xoşu gəlsin...

Bu ölkənin ab-havası elə bil Van Qoqun bir rəsminə, bir də Lermontovun poeziyasına hopub-xəfif bir kədər var bu ölkədə... Sevinmək olmur, o saat elə bir şey edirlər ki, ovqatın tamam pozulur...

Mən heç vaxt anarxizmə meyl etməmişəm və etmərəm də, anarxizm bir qədər başqa şeydir - bu adamlar mütləq azadlıq axtarışında elə uzaqlara gedib çıxırlar ki, başər övladı hələ belə səfərlərə hazır deyil...

Amma mən də bir insan kimi, bir vətəndaş kimi oturub özüm-özümlə danışıram. Soruşuram ki, dövlət, məndən nə istəyirsən? Mənə iş vermirsən, maaş vermirsən, qorumursan, təhlükəsizliyimi təmin etmirsən, amma nə vaxt başımı qaldırıram, yumruğunu görürəm! Dövlət, axı, məndən nə istəyirsən? Bu ölkədə özümüz özümüzə iş qururuq, dolanışıq yaratmağa çalışırıq, amma nə özün bizim üçün bir şey edirsən, nə də bizi bir iş görməyə qoyursan!..

Axı, dövlət, məndən nə istəyirsən? Siz elə bilirsiniz ki, Lermontov Qafqaza romantika ardınca getmişdi? Yox, onu ora göndərmişdilər ki, orada da ölsün!

O da elə mənim kimi belə suallar verməkdən yorulmurdu... Elə sual verdiyinə görə də Qafqaza göndərmişdilər...

Yaradıcı adamın işi nədir? Yaradıcı adam neyləməlidir? O ətrafındakı gerçəkliyi başa düşməyə çalışmalıdır, onu dəyişməyə cəhd etməlidir. Bəli, bu dövlət adamları adlanan kəsimin onu dəyişmək fikri yoxdur, ona görə ki, elə belə də onlara sərf edir...

Amma bu dünyada "tənha yelkən" kimi dolaşanlar da var. Onların gözündə xəfif kədər olur. Bu adamlara ölkələrində yer tapılmır... Mark Tven ölkəsindən tam razı idimi? Viktor Hüqo Fransanı başqa cür görmək istəmirdimi?..

O vaxtkı Fransa təkcə Napoleonlardan, Bürbonlardan, kübar məclislərindən ibarət deyildi, Qavroşlar da vardı bu ölkədə...

İndi biz nə deyirik? Nə yazırıq? Deyirik ki, siz ey Lermontovun yubileyinə toplaşan kübar əhli, xəbəriniz varmı ki, sizin ölkənizdə də Qavroşlar var?.. Elə Qavroşlar ki, onlar sizin qapılarınızdan qovduqlarınız körpələrə qahmar çıxırlar!

Bəli, Lermontovun bir böyük əsəri də var - "Maskarad". Mən Bakıda keçirilən bu yubileyə də elə maskarad kimi baxıram...

Lermontov lord Bayronu çox sevirdi... Bəlkə Bayronun da yubileyini keçirəsiniz? Ona qalsa, mən Lermontovun yubileyini hamıdan əvvəl qeyd etmişəm - bu haqda ciddi bir yazı da yazmışam bu il...

İndi yubileylə də bir işim yox-keçirin... Amma kaş həmin yubileydə səslənən mahnılar, şeirlər sizə təsirsiz ötüşməsin, nəsə bir təsiri olsun...

Vaxt gələcək, kimsə bu ölkədə Markesi də, Folkneri də anmağa cəhd edəcək.

Bəlkə də məhz elə bundan qorxurlar. Qorxurlar ki, insanlar, xüsusən də gənclər yüz illər ərzində cızılan "mədəniyyət arealı"ndan kənara çıxarlar. Bəli,

Lermontov bizim gəncliyimiz olub. Amma biz böyüdük. Böyüdük və yeni adlar eşitdik, Lermontova olan münasibətimiz də özünün sakrallığını itirdi və biz hər şeyə açıq gözlə baxmağa başladıq...

Amma bu, hakimiyyətdəkiləri qorxutdu. Niyə qorxutdu? Ona görə qorxutdu ki, bunlar istəyirlər ki, biz dünyanı onların təqdimatında görək! Onlar hər şeyi öz süzgəclərindən keçirəndən sonra bizə təqdim etsinlər...

**Elə ona görə də mən bir daha soruşmaq zorundayam: dövlət, bizdən nə istəyirsən?..**



# Sheakspeare-dən Maykl amcaya

Samir SARI

**Heç kim bilmir ki, dəqiq necə olmalıdır: əcnəbi adları ana dilimizdə necə yazılmalıdır - ingiliscə yazıldığı kimi, yoxsa səsləndiyi kimi? Mübahisə gedir. Hamı öz bildiyi kimi yazır və ortaya xeyli dərəcədə satirik-yumoristik mənzərə çıxır. Məsələn, ABŞ-ın ölkəmizdə bir keçmiş səfiri vardı, adı ingiliscədə Anna Dersi yazılırdı. Amma biz azdan-çoxdan ingiliscə oxuduğumuz üçün bilirdik ki, bunu "Anna Dersi" kimi yazsaq, düz olmayacaq, ictimai-siyasi fəallarımız xanım səfiri harda görsələr, "Anna xanım" deyib yaxalayacaqlar, o da elə biləcək ki, söhbət başqa adamdan gedir. Axı onu heç vaxt "Anna" çağırmayıblar, həmişə "Enn" deyiblər. Çünki ingilis dilinin transkripsiyasında A hərfi ya "Ə" ya da "E" oxunur (hələ bu da zövqə və adamın baza təhsilinə bağlıdır, rusdilliləri öldürsən də, "E" deyəcəklər, çünki Ə-yə dilləri dönmür).**

Bu üzdən xanım səfirin adı ilk günündən səlahiyyətlərini icra etdiyi son günə qədər müxtəlif variantlarda yazıldı və oxundu. Variantlar beləydi: Anna, Enn, Ənn və s. Hələ xanımın soyadı da təhriflərə məruz qalırdı: Dersi, Dörsi, Dərsi, Ders, Dörs və s. Əlbəttə, bu variantların içində bir düzü də vardı, amma biz sona qədər də aydınlaşdıra bilmədi ki, səfir xanımın ad-soyadının ən düzgün səslənişi necədir. Tərs kimi, səfir xanımın vaxtı bitdi və biz ona bir dəfə düz-əməlli xitab eləmədən ayrıldıq.

Hərçənd mən özüm bir dəfə onunla qabaqlaşıb əl tutuşanda "Salam, xanım Dersi" deməyə arlandım (qorxdum ki, yanlış olar), vəziyyətdən diplomatikcəsinə çıxdım, "salam, xanım səfir" dedim, tərcüməçi də o cür tərcümə elədi. O da üzümə amerikansayağı güldü, hiss etdim ki, yanlışlıq olmayıb.

O gün bir ingilis diplomatı nəsə qırıldatmışdı, adamın soyadı yadımda deyil, amma adı ingiliscədə Andrew idi. Bildiyiniz kimi, Türkiyənin saytları da əcnəbilərin adını ingilscədə yazıldığı kimi yazırlar. Yazmasına yazırlar da, amma sonra oxuya bilmirlər, ən azı düzgün oxumurlar. Məsələn, dünyaca ünlü futbolçu Zidana Türkiyədə Zidane deyirlər. Elə Andrew-ə Andrev deyirlər. Bizim əməkdaşlardan biri isə həmin informasiyanı öz dilimizə çevirərkən diplomatın adını "Andrey" yazmışdı. Ta neynəsin? Yaxın gələn variant budur. Axırda analitik təfəkkürmüz hesabına tapdıq ki, həmin diplomatın adı Endryu ola bilər. Özləri məhz o cür tələffüz edir.

İndi işi qəlizləşdirən də budur. Bir çox həmkarlar israr edirlər ki, yox, ad-soyadlar latınca yazılmalıdır. Xub. Yazaq. Onda da oxucuların 90 faizi Endryunu Andrey oxuyacaq.

Şəxslən mənim üçün problem yoxdur, təvazökarlıqdan Liverpool (Liverpul) şəhəri qədər uzaq olsa da, deyim ki, mən Shakespeare-i problemsiz "Şekspir" oxuyan adamam, amma gəl görək, bu, hamıda belə alınırmı? Yox. Ona görə ki, bizim öz ana dilimiz, baza təhsilimiz, transkripsiya oxuma tərzimiz var. Azca yanlışlıq oldumu, tutub Şekspirə Sekspir deyib, özümüzü biabır edəcəyik.

Bunu əvvəllər bir-iki dəfə də yazmışıq. Əslində ABŞ-dakı məşhur ştatın adı "TEXAS" deyil, məhz "Teksas"dır. Özləri də elə deyir, bütün dünya da. Bir biz, bir də Rusiya və onun vassalları israrla hələ də "Texas" yazırıq, "Texas" da oxuyuruq və heç vecimizə də deyil ki, latıncadakı andır X hərfi "iks" kimi oxunur (Bunu hətta Vasif Talıbov da bilir). Biz Teksasa "Texas" deyəcəyiksə, onda gərək "kseroks"a "xerox", "taksi"yə "taxi" deyək.

Bəs çıxış yolu nədir? Məncə, biz bu məsələdə sovet dövrünün qaydalarından istifadə etməliyik. O vaxt əcnəbi şəhərlərin, ad-soyadların hamısı dilimizdə orijinal variantında səsləndiyi kimi yazılırdı və elə də oxunurdu, yanlışlıq olmurdu. Əvvəlcədən terror basqınına məruz qalmış "Charilie Hebdo" jurnalının adını düzgün oxuyub yazsaydıq, indi o jurnalın adı iki variantda, gah "Şarli", gah "Çarli" kimi getməzdi.

**Ümumilkdə götürsək, bu Mikayıl məsələsidir. İngilislər Michael yazır, Maykl oxuyur, fransızlar - Mişel, ispanlar - Mikel, itlyanlar - Miçel, almanlar və ruslar - Mixail, gürcülər - Mixeil, ermənilər - Mikael və s... Ən düzünü isə biz yazır və deyirik - Mikayıl. İndi nə edək, özümüzü ingilisdillilər kimi aparaqmı? Vallahi, belə getsə yeni böyüyən cocuqlar qonşumuz Mikayıl əmiyə "Maykl amca" deyəcəklər. Bəs niyə "amca"? Eyni zamanda türk şivəsində qonuşmaq da dəbdədir axı...**

# Avropada millətçilik dalğası Azərbaycana sıçraya bilərmi?

## Paris qətliamından sonra Qərb ölkələrində irqçilik və ksenofobiya güclənib; İsgəndər Həmidov isə qoca qitədən ölkəmizə millətçi hərəkat yox, dini dözümsüzlük gələcəyini düşünür

**Paris qətliamından sonra Avropa ölkələrinin rəhbərləri birlik nümayiş etdirdi. Fransa paytaxtında keçirilən mitinqdə İslam və ərəb miqrasiyasının qoca qitəyə gətirdiyi problemlər müzakirə olundu. Bu müzakirələrdə Avropanın simasını dəyişməsindən söz açıldı. Bu isə öz növbəsində Qərb ölkələrində irqçiliyin, ksenofobiyanın geniş yayılmasına rəvac verdi.**

**Danimarka, İsveçdən başlayan irqçi proses artıq mərkəzi və qərbi Avropa dövlətlərinə də sıçramaqdadır. Almaniya, Fransa, Çexiya və başqa ölkələrdə millətçilik geniş vüsət almaqdadır. Dünyada millətçiliyin güclənməsi dalğası Türkiyə və o cümlədən Azərbaycana da təsir edə bilərmi?**

Azərbaycan Milliyyətçi Demokrat (Boz Qurd) Partiyasının lideri İsgəndər Həmidovun fikrincə, Avropadan Azərbaycana millətçilik dalğası yox, dini dözümsüzlük gələ bilər. İ.Həmidovun sözlərinə görə, Avropanın ərəblərə qarşı siyasəti dəyişməsə terror davam edəcək.

"Parisdə baş verən hadisələr dini dözümsüzlük dalğasıdır və Azərbaycana da bu gələ bilər. Çünki baş verənlər millətçiliklə əlaqədar deyil. Avropada fransızlaşma, almanlaşma var. Ancaq hadisələr sırf dini dözümsüzlüyə qarşıdır. Bu dövlətlərin İslam və ərəb siyasəti mütləq dəyişməlidir. Əks halda terror davam edəcək. Qərb isə istəyir ki, İslamafobiya yaransın və miqrant ərəblərin qarşısı alınsın. Ancaq fikir verin ki, Parisdə terror edənlər Suriyada Qərbin silahlandırdığı adamlardır ,"- deyə İ.Həmidov vurğuladı.



İsgəndər Həmidov

Partiya lideri qeyd etdi ki, ərəb ölkələrində müsəlmanlar bombalanır, Avropada isə İslamafobiya yaradılır. İ.Həmidov İslama qarşı müharibə elan edildiyini və millətçi hərəkat olmadığını söylədi: "Biz terroru pisləyirik və İslama qarşı çağırışlar terroru körükləyə bilər. Amerika Fələstin əleyhinə çıxırsa, terror davam edəcək. Ona görə də siyasət dəyişməlidir".

Qeyd edək ki, Avropa Şurasının irqçiliyə qarşı mübarizə Komissiyası Avropa Birliyi ölkələrində bu vəziyyətə dair hesabatını açıqlamışdı Bütün Avropa ölkələrində faşizm, ksenofobiya, diskriminasiya, miqrantlara qarşı nifrət və zorakılıq halları artdığı qeyd edilirdi.

**Millətçi və faşist meylli partiyalar həm parlamentdə, həm də hökumət koalisiyalarında yer almağı bacarıb. Bu da 2014-cü ildə Avropada seçkilər zamanı ifrat sağ qüvvələrin güclənməsi ilə nəticələnib.**

❑ E.SALAMOĞLU

# "Sələfilər peyğəmbərin təhqirini də, jurnalistlərin qətlini də pisləyir"

## Hacı Qamət Paris qətliamından danışdı; "Gedişat onu göstərir ki, müsəlmanların Avropa ölkələrindən sıxışdırılıb çıxarılması baş verəcək..."

**"Əbu-Bəkr" məscidinin imamı, sələfilərin lideri Hacı Qamət Süleymanov Paris hadisələrindən danışıb. Hacı Qamət "Yeni Müsavat"a müsahibəsində Avropada baş verən prosesləri dəyərləndirib. Müsahibəni təqdim edirik:**

***- Hacı, sələfilər peyğəmbərin karikaturasını çəkməyə necə baxır?***

- Nəinki sələfilər, ümumiyyətlə islamda karikatura, təhqir yolverilməz hal kimi qiymətləndirilir. Əgər Allahın seçdiyi elçisinə sən tənə edirsənsə, onu aşağılayan hərəkətə yol verirsənsə, milyonlarla insanın əsrlər boyunca qəbul etdiyi bir dəyəri ələ salırsansa, bu, artıq düşünülmüş şəkildə heysiyyata toxunmaqdır. İkincisi, Məhəmməd peyğəmbərin karikaturasını çəkib təhqir etməklə radikalların əlinə bir bəhanə vermiş oldular. Daha əvvəl də başqa Avropa ölkələrinin mətbuatında karikatura çəkilib və etirazlarla qarşılanıb. Bunu niyə edirlər? Məqsəd nədir və nəyə nail olmaq istəyirlər. Ümumiyyətlə, adi insanı da təhqir etmək olmaz.

***- İndi bu karikatura çəkilibsə, o halda jurnalistlər öldürülməli idi?***

- Mən belə düşünmürəm. Jurnalistləri öldürmək doğru deyildi. Bu təhqirə görə dövlət var və onları cərimələyə bilərdi, ya hansısa inzibati cəza tətbiq olunardı. Sadəcə, Fransada azadlıqlar mövcuddur və orada istədiyi adamı söyməkdə sərbəstdirlər. Ancaq əvvəldən fikirləşmək lazımdır ki, təhqir olmaz və əvvəlki hadisələr nümunə olmalı idi. Əslində demək olmaz ki, bütün müsəlmanlar karikaturaya görə radikal mövqedə dayanıb. Amma müsəlmanlar İsa peyğəmbər barəsində təhqirə yol vermir.



Hacı Qamət

Biz onu da peyğəmbər kimi qəbul etmişik. Ancaq faktiki bu gün Avropa ölkələrində islama qarşı bir çağırış başlanıb, yürüşlər, nümayişlər keçirilir. Bu gedişat onu göstərir ki, müsəlmanların Avropa ölkələrindən sıxışdırılıb çıxarılması baş verəcək.

***- Bəzi fikirlər belədir ki, Paris terroru "11 sentyabr" hadisələrinin təkrarıdır, növbəti ərəb ölkəsi işğal ediləcək...***

- Mən inanmıram ki, hadisələrin miqyası bu dərəcədə böyüsün ki, hansısa ölkəyə hücum edilsin. Amma qeyd etdiyiniz versiya istisna deyil. Yəni, bu terrorun özləri tərəfindən təşkili və ardınca İslama qarşı bir kampaniya aparmaq siyasətini nəzərdə tuturam. Bu gün Avropanın hər yerində islam əleyhinə çıxışlar var. Terrorçuların məhv edilməsindənsə, onları diri şəkildə ələ keçirilməsi yaxşı olardı. O zaman bu hücumun kimlər tərəfindən sifariş edildiyi və yaxud həmin şəxslərin öz təşəbbüsü olduğu müəyyən edilərdi. İndi söyləmək çətindir ki, bunu hansısa radikal qüvvə təşkil edib, yoxsa Fransada kəşfiyyat idarələrindən birinin planıdır. İnanmıram ki, proses ərəb dövlətlərindən birinin işğalına gətirib çıxarsın. Ancaq Avropada yaşayan müsəlmanların sıxışdırılması, onların şengen vizalarının ləğvi və ya Qərb ölkələrinə getmək istəyən müsəlmanların girişinə əngəl yaradılması halları olacağını gözləyirəm.

***- Bu proseslərin Azərbaycana hansı təsirləri ola bilər?***

- Azərbaycanda peyğəmbərin karikaturası çəkilmir, belə təhqirə yol verilmir. Mən düşünmürəm ki, elə bir təhlükə ölkəmizi gözləyir. Ancaq müəyyən psixoloji təsirlər var ki, insanların heysiyyatına toxunur. Bilmək lazımdır ki, karikatura çəkməklə peyğəmbəri təhqir etmək radikallar üçün terrora başlamağa fürsət verir.

***- Sələfilərlə görüşlərinizdə onlar Paris hadisələrinə necə reaksiya verirlər?***

- Aydındır ki, sələfilər bu hadisəni pisləyirlər. Onlar terroru da pisləyir, karikaturanın çəkilməsini də. Ümumiyyətlə, terrorun islama aidiyyəti yoxdur. Bunu bilərəkdən islama bağlayıb gözdən salmağa çalışırlar. Normal müsəlman ibadətini edir, namazını qılır, dualarını oxuyur. Avropanın özü də islama qarşı kampaniya apardığı üçün bu din haqda terrorçu, radikal imici yaratmaq istəyirlər.

***- MTN bu günlərdə İŞİD-ə qoşulan daha 10 nəfəri həbs etdi, sizcə, hüquq-mühafizə orqanları görüntü yaradır, yoxsa bu təhlükə realdır?***

- Real ola bilər. İŞİD təhlükəli bir hərəkatdır. Normal adam bu hərəkata qoşulmaz. İŞİD-in elədiyi nə cihaddır, nə islam adına, nə insanlıq adına yaraşan hərəkətdir. Dəfələrlə çıxışlarımda qeyd etmişəm ki, Suriya, İraqda döyüşmək cihad sayılmır.

❑ E.SALAMOĞLU

YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015

# "Tubzon"a köçürülən məhkumların yaxınlarına görüş verildi

## Qohumları məhbusların bədənində işgəncə izlərinin olduğunu deyirlər

**14 saylı Cəzaçəkmə Müəssisəsindən Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə("Tubzon") köçürülən məhkumların yaxınları onlarla görüşüblər.**
**Görüşdə iştirak edən hazırda məhkumluq həyatı yaşayan jurnalist Araz Quliyevin qardaşı Anar Quliyev "Yeni Müsavat"a deyib ki, qardaşının vəziyyəti pisdir: "Təxminən yarım saatlıq görüş oldu. Görüşdə Araz bizdən metr yarım aralıda, stolun arxasında oturmuşdu.**



Səsini güclə eşidirdik. Əziyyətlə oturmuşdu. Onun başının üstündə, ətrafında 5 nəfər nəzarətçi dayanmışdı. Suallarımıza konkret cavab vermirdi. Danışığı ləng idi. Bilinirdi ki, Arazın vəziyyəti ağırdır. Ona çox əziyyət verilib. Suallarımıza ümumi sözlərlə cavab verirdi. Başqa söz deyə bilmirdi. Bizə onun bədəninə baxmağa imkan vermədilər. Belə nəticəyə gəldik ki, çox təzyiqə məruz qalıb".

A.Quliyev dedi ki, "Tubzon"un rəisi Nizami Quliyevlə də görüşüblər:"O dedi ki, 10 günə Araz və başqa məhkumların hara köçürüləcəyi bilinəcək. Sual verdik ki, uşaqlar vərəmdir. Dedilər ki, vərəm deyil".

**A.Quliyev deyib ki, məhkumların "Tubzon"a 2 aylıq köçürülməsələri haqda məlumat var:** "Orada karsa salınıblar. 14-cü "zon"dan ora aparılanlar 2 ayrı karsda saxlanır.

A.Quliyev dedi ki, məhkumlar Anar Qasımlı və İsa Yaqubov da yaxınları ilə görüşə biliblər.

Aygün Yaqubova görüşdə "Tubzon"un rəis müavini və 4 nəzarətçinin iştirak etdiyini deyib: "İsa dedi ki, yuxudan it, qışqırıq, dubinka səsinə oyanıb. Ayağına ayaqqabı da geyinə bilməyib. Tutub döyə-döyə maşın salıb "Tubzon"a gətiriblər. İsanı tutduran 14-ün rəisi Əli olub. Qara maskalılara deyib ki, bunu da tutun aparın. İsa axsayır, əlləri göm-göydür, üstlərində deşiklər var, arıqlayıb. Dizləri sıyrıq içindədir. Bədənlərində xəsarətlər var. Döyülməkdən beziblər. Elşad haqda danışıb. Deyib ki, o namaz qılan olub. Başlarına gətirilən müsibətləri həyatında görmədiyini söyləyib. O, Ağdamda müharibə zonasında olub, ayağından yara alıb. Bir ayağından ətini kəsib o biri ayağına tikiblər. Yəni o, daha dəhşətli vəziyyət görüb. Daha böyük vəhşiliklərin şahidi olub".

**Məhkumun yaxını bildirdi ki, 14 saylı CM-ə dekabrın 22-də ordu yeridilməsinin qarşısını Penitensiar Xidmətin rəis müavini alıb:** "İsa dedi ki, İmran Tağızadə həmin gün müəssisəyə qoşun yeridilməsinə imkan verməyib. Dekabrın 26-da isə səhərə yaxın hucum olub. Uşaqları ayaqyalın, alt paltarında döyüb, maşınlara doldurub "Tubzon"a gətiriblər. İsanın əlinin üstündəki, bədənindəki izlər döyülmədəndir. Sərbəst deyil ki, ondan dəqiq soruşaq. Rəis müavini, 4 nəzarətçi dayanıb başının üstündə. "Qızıl Aypara"dan xahiş etmik ki, gedib baş çəksinlər. Bizə təkbətək görüşə icazə vermirlər".

**Məhkumun yaxını onun xəstə olmadığı halda "Tubzon"da saxlanılmasına etiraz etdiklərini də bildirdi:** "İsa özü də dedi ki, onun heç bir xəstəliyi yoxdur. Onun öd kisəsində daş var. Bundan başqa heç bir problemi yox idi. Adamı döyəndə, işgəncə verəndə onda vərəm əmələ gəlir? Bu uşaqları vərəm müəssisəsinə niyə köçürüblər bunu heç kim bilmir. Müəssisənin rəisi deyir bilmirəm. Biz kimdən soruşaq?"

Məhkumun yaxını 14 saylı Cəzaçəkmə Müəssisəsinin rəhbərliyinin istefasını tələb etdiklərini də bildirdi: "Rəis Əli başda olmaqla Elşad Babayevi öldürən "nadzor" və digər vəzifəlilərin istefasını tələb edirik. Bu adamlar sabah başqa bir məhkumu da orada döyüb öldürə bilərlər. Bunun məsuliyyəti Penitensiar Xidmət rəisinin üzərindədir".

**Dekabrın 30-da saxlanıldığı 14 sayı Çəzaçəkmə Müəssisəsindən əfv fərmanı ilə azadlığa çıxan jurnalist Sərdar Əlibəyli isə moderator.az-a müsahibəsində S.Əlibəyli 2014-cü il dekabrın 22-də müəssisəsdə baş verənlər və müəssisəsdəki vəziyyətlə bağlı bunları deyib:** "Mən 14 saylı müəssisədə 2 dəfə olmuşam. Bunu birmənalı şəkildə deyirəm ki, orda məhbus, insan saxlamaq cinayətdir. Oranın birinci iqlim şəraiti, ikinci relyefi, üçüncü də onun içərisində olan şəraiti nəzərə aldıqda orda insan saxlamağın özü qatı cinayətdir. Yay vaxtı orda bəzən əl yumağa belə su olmurdu. 800 adam suyu olmayan, kanalizasiyası işləməyən yerdə həftə ilə necə yaşayırlar artıq siz qərar verin. Mən belə hesab edirəm ki, bu həbsxana bilavasitə insanları öldürməyə hesablanıb. Yəni vəziyyət bu qədər pisdir. Mənə dedilər ki, həkimlər burda işləmək istəmir. Necə olur, həkimlər müharibə bölgəsində gedib işləyir, burda işləmir? Maaşını artıq verin, işləsinlər".

**S.Əlibəyli E.Babayevin ölümü ilə bağlı bunları deyib:** "O uşaq öldü. Ölüm səbəbi onun döyülməyi idi. Bir az dikbaş olan, özündən razı olan adamlar çox ağır şəkildə döyülür. Buna "pres" deyirlər. Adnan tanınan "pres" verənlər var. Onun ölüm səbəbi döyülməkdi. Qəsdən döyüb öldürmək başqa məsələdir. Bu sistemdən gələn bir "qayda"dır, hamı keçdi bu keçə bilmədi. "Bunt"un səbəbi də əslində onunla bağlı idi. "Zon"a çox biabırçı şəkildə qoşun girdi. Səhər saat altıda yaşlı demədən, xəstə demədən hamını döyərək yerindən qaldırdılar. Həmin vaxt bir dubinka da mənim başımdan dəydi. Müəssisənin rəhbərliyi də mənim vəziyyətimlə maraqlandı. İçəri birinci mən qayıtdım və dəhlizdə insan qanından ayaq basmağa yer tapmaq olmurdu. Tutaq ki, S.Əlibəyli kiməsə bir yumruq vurmuşdu ona 4 il iş verdiniz. Bəs bu qədər tökülən qanların məsuliyyətini kim daşımalıdır? Qarşılıqlı olaraq deyirlər ki, məhbuslar da düz etmədi. Məhbus düz eləməyə bilər, zatən o günahkardır. Bəs, siz kimsiniz?"

### Baş Prokurorluq: "Cinayət işi başlanıb"

Məhkum E.Babayevin Cəzaçəkmə Müəssisəsində ölümü ilə bağlı Baş Prokurorluğun Mətbuat Xidməti məlumat yayıb. Məlumatda deyilir: "Ötən ilin dekabrın 22-də saat 07 radələrində Penitensiar Xidmətin 14 saylı Cəzaçəkmə müəssisəsindən məhkum Babayev Elşad Səid oğlunun ölümü ilə bağlı daxil olan məlumata əsasən Qaradağ rayon Prokurorluğunun müstəntiqi tərəfindən məhkəmə-tibb ekspertinin və Ədliyyə Nazirliyi Tibb Xidmətinin əməkdaşlarının iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. İlkin araşdırma ilə müəyyən edilib ki, müəssisədə cəza çəkən bir qrup məhkum baş vermiş hadisədən istifadə edərək rejim qaydalarını pozub, əməkdaşların tələblərinə əməl etməyək müəssisənin normal iş fəaliyyətinin pozulmasına yönəlmiş hərəkətlərə yol veriblər. Bununla əlaqədar E.Babayevin ölümünün səbəblərinin, habelə həmin məhkumların qeyd olunan hərəkətləri nəticəsində dəyən ziyanın müəyyənləşdirilməsi məqsədilə müvafiq ekspertizalar təyin edilib. Eləcə də müəssisə əməkdaşları və məhkumlardan izahatlar alınıb, E.Babayev barədə aidiyyəti sənədlər, o cümlədən tibbi sənədlər götürülüb və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib. Penitensiar Xidmət tərəfindən hadisə üzrə xidməti yoxlama və müvafiq təhlükəsizlik tədbirləri həyata keçirilib, toplanmış sənədlər aidiyyəti üzrə prokurorluğa göndərilib. Qaradağ rayon Prokurorluğunda faktla bağlı cinayət işi başlanıb, hazırda istintaq hərəkətləri davam etdirilir".

**E.Babayevin bacısı Simuzər Babayeva "Yeni Müsavat"a Baş Prokurorluğun yaydığı məlumatla tanış olduğunu deyib. Bildirib ki, qardaşını öldürən 14 saylı Çəzaçəkmə Müəssisəsi əməkdaşlarının cəzalandırılmasını tələb edir.**

❑ **E.MƏMMƏDƏLİYEV**



# İŞİD Bakının neft yataqlarını vurmaqla hədələdi

## MTN: "Bütün zəruri qabaqlayıcı tədbirlər həyata keçirilir və əməliyyat şəraitinə nəzarət olunur"

## Arzu Nağıyev: "Fransa ssenarisinin Azərbaycanda təkrarı inandırıcı görünmür..."


Arzu Nağıyev

**"İraq Şam İslam Dövləti"nin (İŞİD) daxili işlər naziri Abdul Vahid Xudayar Əhməd Azərbaycandan olan yaraqlıları bir yerə toplayaraq onları tərifləyib və Qərbin dəstəklədiyi Azərbaycan hakimiyyətinə qarşı silaha sarılmağa çağırıb. Virtualaz.org bildirir ki, bu barədə "Another Western Dawn News" adlı Avropa nəşri məlumat yayıb. Məlumatda bildirilir ki, İŞİD artıq Yaxın Şərqə ayaq açıb. Bu səbəbdən də kəşfiyyatçı-ekspertlər neftlə zəngin Qafqaz regionunu gözlənilən təxribat təhlükəsi ilə bağlı ayıq-sayıq olmağa çağırırlar. Artıq dəqiq məlumdur ki, İŞİD keçmiş SSRİ respublikalarında, o cümlədən Bəşər Əsəd tərəfdarlarına qarşı döyüşlərdə iştirak etmək üçün yüzlərlə vətəndaşının Suriyaya yollandığı Azərbaycanda mövcud sabitliyi pozmaq üçün konkret planlar hazırlayır. Abdul Vahid Xudayar Əhməd öz çıxışında Bakının əfsanəvi neft yataqlarından danışıb və xatırladıb ki, İkinci Dünya müharibəsi vaxtı Hitler Almaniyası da ona sahib olmağa çalışıb: "Biz Bakını, İslamın ən qiymətli şəhərlərindən birini xilas etməliyik. Heç şübhəsiz, Azərbaycanın və onun təbii sərvətlərinin İslam dünyasındakı yeri bərpa olunacaq".**

Nəşr onu da iddia edir ki, İslam cihadçılarını yönləndirən və maliyyələşdirən Səudiyyə milyonçuları hələ 1998-ci ildən etibarən Azərbaycanda gizli radikal mücahidlərin hazırlanmasına və formalaşdırılmasına başlayıblar. Məlumatda vurğulanır ki, sonradan Suriyaya yollananlar məhz həmin dəstələrdə hazırlıq keçənlərdir.

İŞİD rəsmisinin dedikləri nə dərəcədə realdır? Paris terroru hansısa formada Bakıda reallaşa bilərmi? Bu suallarla **Təhlükəsizlik Orqanlarının sabiq əməkdaşı Arzu Nağıyevə** müraciət etdik.

A.Nağıyev bildirir ki, Fransada baş verənlərin Azərbaycanda təkrarı real deyil: "Fransada bir gündə baş vermiş terror aktı və girov götürülməsi ilə əlaqədar 16 nəfər saxlanılıb. Parisin prokuroru Fransua Mollen bildirib ki, bu şəxslər Səid və Şərif Kuaşi qardaşları və Ahmedi Kulibali ilə əlaqəli olublar. O da məlumdur ki, Şərif Kuaşi 2011-ci ildə Yəməndə yaşayıb, "Əl Qaidə" ilə təmasda olub. 20-yə yaxın insanı girov götürərək "Charlie Hebdo" jurnalına silahlı hücum edən Kuaşi qardaşlarının buraxılması tələbini irəli sürən A.Kulibali isə "İŞİD" qruplaşmasının üzvü olduğunu etiraf edib. Bu işdə diqqət çəkən məqamlardan biri də həmin terrakt hadisəsinin təhqiqatı ilə məşğul olan polis komissarı Elrik Fredunun iş otağında intihar etməsi və şübhəli şəxslərdən birinin Həyat Bumeddyenin Fransadan Türkiyəyə, oradan isə Suriyaya qaçmasıdır. Terror hadisəsindən sonra Yəməndə yerləşən "Əl Qaidə" və İŞİD, yenidən terror hadisələrinin təkrarlanacağı ilə bağlı bəyanatlar verdi. Bu hadisələr zamanı insan haqlarını və digər azad sözü bəhanə gətirənlər Fransa hüquq-mühafizə orqanlarının bir neçə terroristin əlində qaldığını və gücsüz olduğunu büruzə verdi. Necə ola bilər ki, həmin terrorçulardan biri Yəməndə olub və özü ilə silah gətirir və yenidən ora qayıdır və s. Müşahidə kameraları ilə izlənən bir şəhərdə belə hadisələr baş verir. Azərbaycanla bağlı onu demək olar ki, dini ayinlərin icrası, dini əqidəyə hörmət və bu kimi məsələlər qanunlarla tənzimlənir. Bundan başqa terror hadisələrinin baş verməməsi üçün müvafiq tədbirlər həyata keçirilir. Əlbəttə, 100 faiz bundan sığortalanmaq da mümkün deyil. Eyni zamanda bu gün Azərbaycanda bu dərəcədə dini radikallaşma da yoxdur. Tolerantlıq mühiti mövcuddur. Hüquq-mühafizə orqanlarının anti-terror əməliyyatlarını keçirilməsi ilə ələqədar qarşılıqlı əməliyyat tədbirləri planı mövcuddur. Əsas məsələ isə Suriya, İraq, Əfqanıstan və digər ölkələrdə radikal dini hərbi birləşmələrdə iştirak edərək Azərbaycana qayıdan həmin şəxslərin cəmiyyətdən təcrid edilməsi öz bəhrəsini verir və bu günün siyasətdir. Məhz buna görə də Fransa ssenarisinin Azərbaycanda təkrarı inandırıcı görünmür..."

**Milli Təhlükəsizlik Nazirliyindən verilən açıqlamada vəziyyətin nəzarət altında olduğu bildirilib:** "Azərbaycan Respublikasının milli maraqlarına, mənafelərinə, təhlükəsizliyi əleyhinə mümkün təhdidlərin qarşısının alınması üçün bütün zəruri qabaqlayıcı tədbirlər həyata keçirilir və əməliyyat şəraitinə nəzarət olunur".

❑ **E.MƏMMƏDƏLİYEV**

YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015

# "Azəristiliktəchizat"da nə baş verir?

## Cinayətə bərabər təxribatın təfərrüatı



**"Azəristiliktəchizat" ASC-nin Bakının Yasamal rayonundakı 8 saylı İstilik Sistemlərinin İstismar Sahəsində minlərlə mənzilin istiliksiz qalmasına səbəb olan təxribat baş verib. "Yeni Müsavat"ın əməkdaşı Yeni Yasamal qəsəbəsindəki əksər binalara şaxtalar başlayan gündən istilik verilməsinin dayandırılmasının pərdəarxası məqamlarına aydınlıq gətirib.**

Əməkdaşımız son günlər Yeni Yasamal qəsəbəsində yaranan istilik böhranının səbəblərini araşdırmaq üçün 8 saylı İstilik Sistemlərinin İstismar Sahəsinin qazanxanasında olub. Onun orda əldə etdiyi məlumata görə, baş verənlər arxasında təxribat əməli dayanır. Belə ki, qazanxanaya məsul olan Arif adlı şəxsə işdən çıxarıldığı elan edilib. Lakin onun yerinə təyinat olanadək vəzifəsinin icrasını davam etdirib. Müvəqqəti anlaşılmaz vəziyyət və şaxtalı havanın da həmin vaxta təsadüf etməsi Arifə müdiriyyəti cəzalandırmaq üçün əvəzsiz şərait yaradıb. Yanvarın 8-i axşam saatlarında - Bakıya güclü qar yağmağa başlayanda, o, Yeni Yasamal qəsəbəsini istiliksiz qoymağa nail olub. Qazanxananın müvəqqəti rəisi axşam saat 21 radələrinə əvvəlcə qazanxananın elektrik ayırıcısını sıradan çıxarıb. Daha sonra, o, bütün qazanların suyunu, o cümlədən. 56 tonluq su ehtiyyatını boşaldıb. Beləliklə, minlərlə mənzili əhatə edən və onminlərlə sakinə ziyan vuran istilik böhranı yaradılıb.

Yanvarın 10-da "Azəristiliktəchizat" ASC-nin rəhbərliyi də məsələyə müdaxilə edib və vurulan zərərin aradan tez bir zamanda qaldırılmasına cəhd edilib. Yanvarın 11-i elektrik ayırıcılarının fəaliyyətini bərpa etmək mümkün olub. Amma qazanların su ilə doldurulması məsələsində işlər yolunda getməyib. Daha doğrusu, "Azəristilik" və "Azərsu"nun Yasamal rayonundakı idarələrinin rəhbərləri arasında intriqa buna mane olub. Belə ki, Yeni Yasamal qəsəbəsində əhaliyə su bəlli saatlarda verilir. Bu saatlarda isə suyun təzyiqi aşağı olur və qazanları dolsurmaq üçün vaxt çatmır. 8 saylı İstilik Sistemlərinin İstismar Sahəsi qrafikdən əlavə su verilməsini istəsə də, artıq neçənci gündür ki, rədd cavabı alır.

"Yeni Müsavat" 8 saylı İstilik Sistemlərinin İstismar Sahəsindəki təxribatla bağlı Yasamal rayonunun hüquq-mühafizə orqanları ilə də əlaqə saxlayıb. Amma məlum olub ki, bu barədə nə prokurorluğa, nə də polisə məlumat verilib. Qeyd edək ki, əmlakın qəsdən zədələnməsi və ya məhv edilməsi cinayət məsuliyyəti nəzərdə tutan əməldir.

**"Azəristiliktəchizat"ın nədən hüquq-mühafizə orqanlarına müraciət etməməsi ilə bağlı ehtimallar var. Bu ehtimallardan ən tutarlısı budur ki, işdən çıxarılan qazanxana rəisi istilik sisteminə yeni qoşulan binalarda mənzillərin hər otağına görə 40 manat pul yığılmasının birbaşa icraçısıdır. Onun barəsində hüquq-mühafizə orqanlarına şikayət edilməsi bu cinayətin də üstünün açılmasına və yığılan vəsaitin ASC rəhbərliyinə qədər ötürülməsi "nərdivan"ı ifşa oluna bilər. Odur ki, "Azəristiliktəchizat" rəhbərliyi məsələni sakitliklə yoluna qoymağa çalışır. Yeni Yasamalda isə artıq 4 gündür ki, istilik yoxdur...**

❑ **MƏMMƏD**



# Mərkəzi Bank ehtiyatının 10 faizini itirib

## Samir Əliyev: "Bu, Rusiyadakı böhranla bağlıdır"



**Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları azalıb. Yerli ekspertlər bunu Rusiyada baş verən və davam etməkdə olanm iqtisadi böhranla əlaqələndirirlər. İqtisadçı Samir Əliyev bildirir ki, Rusiya böhranına görə Mərkəzi Bank ehtiyatının 10 faizini itirib: " Gözlənildiyi kimi, 2014-cü ildə Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları 2,3 faiz azalıb. Ehtiyatların həcmi il ərzində 14152,0 milyondan 13758,3 milyon dollara düşüb. Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları artıq 5-ci aydır azalma tendensiyası nümayiş etdirir. İyul ayında ehtiyatın həcmi özünü ən yüksək həddində olub - 15193 milyon dollar. Sonrakı aylarda azalma müşahidə edilib. Azalma daha çox dekabr ayına təsadüf edib. Mərkəzi Bank ötən ilin son ayı 1238 milyon dollar itirib.**

MB-nin valyuta ehtiyatının azalmasının əsas səbəbi Rusiya amilidir. Rusiyada rublun ucuzlaşması həmin ölkədə daşınmaz əmlakın dəyərini ucuzlaşdırdı. Azərbaycanlı sahibkarlar kütləvi şəkildə öz vəsaitlərini dollara çevirərək Rusiyanın əmlak bazarına yönəltdilər. Dekabr ayı manat üçün çox gərgin keçdi. Mərkəzi Bankın gündəlik intervensiyası manatı saxlaya bildi. Mərkəzi Bank təkcə dekabrda bazara 1,2 milyarddan çox dollar çıxartmaq məcburiyyətində qaldı. Rusiya böhranı noyabr-dekabr aylarında Mərkəzi Bankın ehtiyatlarının 10 faizini itirməsi ilə nəticələndi".

**Ekspertin sözlərinə görə, bu il manatı çətin sınaq gözləyir:** "Proqnozlaşdırdığımız kimi 2015-ci il manatı sınaq gözləyir. Mərkəzi Bank manatın sabitliyini təmin etmək üçün valyuta ehtiyatını xərcləməli olacaq. Bu işə təbii ki, Neft Fondu da qoşulaşacaq. Neft Fondunun da aktivlərində azalma müşahidə ediləcək. İstənilən halda hər şey asılı olacaq dünya bazarında neftin qiymətinin hansı istiqamətdə hərəkət etməsindən".

**İqtisadçı Rövşən Ağayev** isə sosial şəbəkədə faktla bağlı bildirib ki, Mərkəzi Bankın valyuta ehtiyatları son 4 ayda 9,5 faiz əriyib: "Hökumətimiz dönə-dönə deyir ki, ətrafımızda baş verən iqtisadi böhranın, sarsıntıların bizə heç bir təsiri yoxdu. Amma Azərbaycan Milli Bankının valyuta ehtiyatları son 4 ayda 9,5 faiz və ya 1,435 milyard dollar əriyib. Təbii ki, buna səbəb manatı qorumaq olub. Əgər doğrudan da iqtisadiyyatımıza heç bir neqativ amillərin təsiri yoxdursa, valyuta rezervlərinin əriməsinin səbəbi nədir? İqtisadiyyat da insan orqanizmi kimidi - diaqnostika dəqiq olmalı və gizlədilməməlidir".

❑ **RÖYA**

# Azərbaycanlılara qarşı tarixi cinayətin 110 illiyi

## QAT 50 min azərbaycanlının qətlə yetirildiyi 1905-ci il hadisələri ilə bağlı dünya birliyinə müraciət etdi

**Ermənilər qondarma "soyqırım" iddiaları ilə bağlı 100 illik tədbirlər şousuna hazırlaşdığı bir məqamda Qarabağ Azadlıq Təşkilatı (QAT) Azərbaycan tarixinin faciəli səhifəsi barədə tarixi arqumentlərə əsaslanan ciddi bir hadisəyə diqqət çəkib. Təşkilat XX əsrin ilk soyqırımı, 1905-ci ildə azərbaycanlılara qarşı erməni terror təşkilatları və silahlı dəstələri tərəfindən törədilən soyqırımın 110 illiyi ilə bağlı beynəlxalq təşkilatlara, dövlətlərə, Azərbaycan hakimiyyəti və cəmiyyətinə müraciət ünvanlayıb.**

**Bu barədə QAT sədri Akif Nağı** məlumat verdi. Müraciətdə deyilir: "Haqq, ədalətin bərpa olunması, insanlığa qarşı cinayətlərin təkrar olunmaması, hər kəsin həqiqəti bilməsi naminə sizlərə müraciət edirik. Azərbaycan xalqı tarixi boyunca ayrı-ayrı dövlətlər, imperiyalar, ordular tərəfindən dəfələrlə işğala, təcavüzə məruz qalıb. Son 200 ildə isə biz özünün gücü olmayan, başqalarının əlində alətə çevrilən murdar və eybəcər bir toplumun, ermənilrin və onlar üçün süni şəkildə Azərbaycan torpaqlarında yaradılan yaramaz bir dövlətin, Ermənistanın təzyiq, təhdid, böhtan, işğal, terror siyasəti ilə üz-üzə qalmışıq. Bu qırmızı-göy-narıncı bəla (bayraqlarının rəngi) Azərbaycanın bütün işlərinə mane olur, əl ayağımızdan ağır daş kimi asılıb qalır. Bunlar bəşəriyyətin də bədənində sağalmaz bir yardırlar. Bu toplum bizə qarşı çox cinayətlər törədib, torpaqlarımızı işğal edib, bu gün də işğal altında saxlayır".

**QAT-ın bəyanatında daha sonra deyilir ki, budəfəki müraciət ermənilərin Azərbaycan xalqına qarşı 110 il əvvəl törətdikləri ağır cinayət, soyqırım siyasəti ilə bağlıdır:** "Düz 110 il əvvəl, 1905-ci ilin fevral ayında Azərbaycanın Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Zəngəzur və digər bölgələrində erməni silahlı dəstələrinin, terror təşkilatlarının azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar XX əsrin ilk soyqırım cinayəti idi. XX əsrdə məhz azərbaycanlılar ilk olaraq soyqırıma məruz qaldılar. Azərbaycanlılar 200 il əvvəl, 1805-1830-cu illərdə vətəni, yurdu olmayan ermənilərə qucaq açdı, ən yaxşı yerlərində yerləşdirdi. Ermənilər 100 il ərzində özlərinə yer etdikdən sonra öz nanəcibliyini etdilər, 1905-ci ildə azərbaycanlılara qarşı ilk soyqırımı törətdilər.

Həmin vaxt erməni terror təşkilatları və silahlı dəstələri azərbaycanlılara qarşı soyqırım siyasətini Rusiya imperiyasının dəstəyi ilə həyata keçirdi. Rusiya həmin ərazilərdə azərbaycanlıların, müsəlmanların sayının azalmasında, ermənilər isə həmin ərazilərə köçüb məskunlaşmaqda, saylarını artırmaqda maraqlı idilər. Erməni dəstələri 1905-ci il fevralın 2-də Bakıda azərbaycanlıları qırmağa başladılar. Tezliklə qırğınlar kütləvi xarakter alaraq Bakı ilə yanaşı, Qarabağ, Gəncə, Naxçıvan, İrəvan, Zəngəzur və digər ərazilərı əhatə etdi. Bu qırğınlar nəticəsində 50 mindən artıq azərbaycanlı qətlə yetirildi, 200-dən artıq yaşayış məntəqəsi dağıdıldı, yandırıldı. Ermənilər 100-ə qədər kəndi ələ keçirərək məskunlaşdılar, bir çox yaşayış məntəqələrindən azərbaycanlılar tamamilə çıxarıldılar, ya da sayları kəskin şəkildə azaldı. Bu əsl soyqırım idi. Azərbaycanlıları yalnız azərbaycanlı, müsəlman olduqlarına görə məhv edirdilər".

**QAT yekunda bəyan edir:** "Biz hesab edirik ki, dünya birliyi, beynəlxalq təşkilatlar 110 il əvvəl baş vermiş bu dəhşətli hadisələrə qiymət verməli, azərbaycanlıları XX əsrdə soyqırıma məruz qalan ilk xalq kimi tanımalıdır. Ermənilər isə XX əsrdə soyqırım törətmiş ilk xalq kimi tanınmalı, onların hərəkətlərinə adekvat qiymət verilməlidir. Ermənilərin maskası çıxarılmalı, onların yalançı "soyqırım" təbliğatına, kampaniyasına son qoyulmalı, dünya onların həqiqi sifətini tanımalı, dəhşətli cinayətləri haqqında həqiqəti bilməlidir.

Azərbaycan hakimiyyəti, ictimai-siyasi qurumları, diaspor təşkilatları, tədqiqatçılar geniş miqyasda fəaliyyət göstərməli, ermənilərin azərbaycanlılara qarşı 110 il əvvəl törətdikləri soyqırım haqqında məlumatların dünyaya çatdırılması, ermənilərin dünyada ifşa olunması üçün bütün vasitələrdən istifadə etməlidir. Biz susduqca, ermənilər daha da həyasızlaşır, yalanlarını dünyaya qəbul etdirməyə çalışır və çox vaxt istəklərinə nail olurlar. Biz erməni yalanlarını ifşa etməli, həqiqəti dünyaya çatdırmalıyıq. Dünya həqiqəti bilməli, qərarını verməlidir".

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015

**ABŞ-ın McCain İnstitutunun İnsan Haqları və Demokratiya məsələləri üzrə direktoru, “Freedom House” nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatının sabiq rəhbərin Devid Kramer AzadlıqRadiosuna müsahibə verib. Müsahibədə o, ölkəmizdə təməl insan haqlarının durumu, habelə Bakı-Vaşinqton münasibətlərinin indiki vəziyyəti və perspektivinə toxunub, hakimiyyətin ünvanına növbəti dəfə sərt fikirlər səsləndirib.**

# “Amerikanın Azərbaycanla bağlı səbir kasası daşmaq üzrədir”

**Devid Kramer hakimiyyəti yenə də sərt şəkildə qınadı:** “Hökumət Birləşmiş Ştatlara meydan oxuyur... Bakıdakı rəsmilər anlamalıdırlar ki, bu cür davranış axırda onlara baha otura bilər”



Devid Kramer

**Kramerə görə, Azərbaycanda insan haqları sahəsində son baş verənlər nəinki münasibətlərə ziyan vura bilər, artıq vurmaqdadır:** “Konqresin aparıcı üzvlərindən bəziləri artıq bəyanatlar verib. Administrasiya da bu məsələdə ritorikanı gücləndirib. Bəzi şəxslərə söhbətlərimdən belə qənaətə gəlmişəm ki, məyusluq həddi artır. Elə bir həddə çatır ki, onlar mümkün variantları nəzərdən keçirirlər... Artıq narahatlıq ifadələri işləmir və Bakıdakı rəsmilər də anlamalıdırlar ki, bu cür davranış axırda onlara baha otura bilər. Onlar ABŞ-ı sınağa çəkir, yoxlayırlar ki, nə qədər uzağa gedə bilərlər. Məncə, təhlükəli oyun oynayırlar. İstər administrasiyanın olsun, istər Konqresin, müəyyən nöqtədə Azərbaycanla bağlı səbir kasası daşmaq üzrədir”.

**Kramer bu xüsusda fikirlərini daha da inceləyərək bildirib:** “Ola bilsin Bakıda düşünürlər ki, ABŞ geri çəkiləcək və bütün bunları qəbul edəcək. Bir sıra Amerika təşkilatları və beynəlxalq qurumlar ölkədən çıxmağa məcbur olublar. Məncə, Administrasiyanın olmasa belə, Konqresin ”Artıq yetər!" qərarını verməsi vaxt məsələsidir. Ümid edirəm ki, belə də olacaq. Nəzərə alın ki, Sergey Maqnitskinin ölümünə görə Rusiyaya tətbiq olunan “Maqnitski aktı” Konqresdə qəbul olunana qədər 2 il çəkdi. Sonra həmin sənəd Konqres tərəfindən qəbul olundu və prezident onu imzaladı. Məncə, bir az vaxt keçməlidir ki, Azərbaycanda baş verənlərə reaksiyaların real siyasi dəyişikliyə və mümkün nəticələrə çevrilməsini görək".

**“Freedom House”nin keçmiş direktoru növbəti dəfə AzadlıqRadiosun Bakı ofisinin bağlanmasını kəskin şəkildə tənqid edib. “Azərbaycandakı vəziyyət isə elə həddə çatıb ki, sakit dura və yalnız narahatlıq bəyanatları səsləndirə bilmərik”, deyib. Onun fikrincə, ABŞ “sanksiyalar Azərbaycanı Rusiyaya təslim edəcək” deyə, sərt mövqedən narahat olmamalıdır:** “Bəzi hökumət rəsmilərinin Rusiya ilə münasibətlərinin yaxınlığına dair xeyli spekulyasiya var və onlar Rusiya ilə bir az da yaxınlaşmaya getməyə də bilər. İkincisi, mümkün hərəkətlərimizin Azərbaycanı Rusiyanın qucağına atacağından çox narahatıqsa, gərək əl-qolumuzu bağlayaq və səmərəli siyasət hazırlamayaq. Biz sadəcə əyləşib Azərbaycandakı hadisələri izləyə və heç nə etməyə bilmərik. Tövsiyələrimdəki sanksiya çağırışı da Azərbaycan hökumətinin addımlarına cavabdır. Bunu ancaq sanksiya istədiyim üçün etmirəm. Azərbaycan hökumətinin hərəkəti elə bir həddə çatıb ki, öz xalqı ilə rəftarı belə qorxu yaradır, həmçinin, Birləşmiş Ştatlara meydan oxuyur... Biz fərqli bir yanaşma ilə Bakıdakı rəsmilərə anlatmalıyıq ki, demokratiya və insan haqları Birləşmiş Ştatlar üçün iqtisadi, enerji, təhlükəsizlik və terrorçuluqla mübarizə maraqları qədər vacibdir”.

**Kramer bu kontekstdə 2015-in dəyişikliklər ili olacağına ümid etdiyini söyləyib.**

❑ **Hazırladı: Siyasət şöbəsi**

# Müxalifət seçki hazırlıqlarına başlayır

Bir qrup partiya toplantı keçirdi



**Müxalifət partiyaları 2015-ci il parlament seçkiləri ilə bağlı fəaliyyətə başlamaq üçün müzakirələrə start veriblər. Yanvarın 12-də Azərbaycan Milli İstiqlal Partiyasının qərargahında bir qrup partiyanın-KXCP, AMİP, Aydınlar Partiyası, ADP, İslam demokrat, XAP, BAP, ALP və AXP təmsilçilərinin görüşü olub. “Yeni Müsavat”a verilən məlumata görə, həmin görüşdə 2015-ci ildə keçiriləcək parlament seçkiləri ilə bağlı fikir mübadiləsi aparılıb.**

Bu görüş Demokratiya və İnsan Haqları Mərkəzində əməkdaşlıq edən bir qrup siyasi partiyanın təşəbbüsü ilə keçirilib.

Görüşün sonunda partiyalar arasında məsləhətləşmələrin davam etdirilməsi məqsədəuyğun hesab edilib.

Vətəndaş və İnkişaf Partiyası (VİP) Siyasi Şurasının dünənki iclasında da parlament seçkilərinı hazırlığa başlamaq müzakirə edilib. Qarşıdan gələn parlament seçkilərini 2015-ci ilin əsas siyasi kampaniyası kimi dəyərləndirən Siyasi Şura üzvləri VİP-in bütün hallarda bu seçkilərində iştirak etməsinin zəruriliyini bildiriblər. Seçkilərə yönəlik hazırlığın bir neçə variant əsasında aparılmasının daha məqsədəuyğun olduğunu deyən müzakirə iştirakçıları partiyanın namizədlər korpusunun artıq indidən müəyyənləşdirilməsinə başlamağa tərəfdar olublar.

Siyasi Şura üzvləri VİP-in parlament seçkilərində təkbaşına və digər müxalifət partiyaları ilə bloklaşma, eyni zamanda, proporsional seçki sisteminin mümkün bərpası şəraitində qatılması variantlarına dair təklifləri irəli sürüblər.

Yanvarın 15-də saat 16:00-da isə İsa Qəmbərin sədrlik etdiyi Milli Strateji Düşüncə Mərkəzi (MSDM) 2015-ci ildə keçiriləcək parlament seçkilərini müzakirəyə çıxaracaq.

Bu qurumdan musavat.com-a verilən məlumata görə, Dəyirmi Masa formatında keçiriləsi nəzərdə tutulan müzakirələr mətbuat üçün açıq olacaq.

Məlumatda o da bildirilir ki, bu müzakirələrə seçkilərlə maraqlanan ictimai-siyasi təşkilatlar, ekspertlər və media nümayəndələri dəvət olunacaqlar.

**Müzakirələrin əsasən “2015-ci ilin parlament seçkiləri: Gerçəkliklər və demokratik qüvvələrin hədəfləri” mövzusu ətrafında aparılması planlaşdırılır.**

❑ **E.SEYİDAĞA**

# Müxalifətdə kimlər ABŞ-dan “ağ atlı oğlan” gözləyir?

“Birdəfəlik insanlar başa düşməlidir ki, sən vəziyyətindən narazısansa, taleyin ilk növbədə öz əlindədir”

**Azərbaycanda ABŞ-ın siyasi maraqlarına xidmət edən bir neçə beynəlxalq siyasi təşkilatın fəaliyyətinin dayandırılması, ABŞ-dan Azərbaycan iqtidarına qarşı sanksiyalar tətbiqi məsələsinin son vaxtlar qaldırılması, son olaraq dünən Vaşinqtonda Azərbaycanda demokratiya və insan haqlarının durumu ilə bağlı dinləmələrin keçirilməsi və dibləmələrdə Azərbaycan iqtidarına qarşı sanksiyaların tətbiqi üçün ABŞ hökumətinə çağırış edilməsi ölkəmizdə bəzi müxalif qüvvələrin təbliğat predmetində əsas yer tutmaqdadır.**

Xüsusilə də AXCP və Milli Şuraya yaxın media orqanlarında hakimiyyətə qarşı piar ABŞ-Azərbaycan münasibətlərinin gərginləşməsi üzərində qurulub. “Vaşinqton Azərbaycanda iqtidarı dəyişəcək” tipli təbliğat yenidən cəmiyyətə təlqin edilməkdədir. Halbu ki, indiyə qədər bu cür təbliğatın, cəmiyyəti demokratiyanın ölkəmizə kənardan gətiriləcəyinə kökləməyin sonda böyük xəyal qırıqlığı ilə nəticələndiyi təcrübəsi dəfələrlə olub. Siyasi ekspertlər hesab edir ki, 2015-ci ildə parlament seçkilərinə bəzi qüvvələri yenə də əvvəlki illərdəki təbliğatla gedəcəksə sonda xəyal qırıqlığı, məğlubiyyət ehtimalı böyükdür.

Ona görə də ortaya suallar çıxır ki, bu təbliğatı aparıb cəmiyyəti yenə də arxayınlaşdıranlar sanksiyalar tətbiq olunmayacağı halda hansı vəziyyətlə üzləşəcəklərini düşünürlərmi?

Hər dəfə seçkilər ilində tətbiq olunan bu taktikaya son qoyulmalı deyilmi?



Qabil Hüseynli

**Politoloq Qabil Hüseynli** bildirdi ki, başda AXCP olmaqla bəzi siyasi qüvvələr və media orqanları həqiqətən də hadisələri elə bir tonda qələmə verirlər sanki Azərbaycanda çox yaxın vaxtlarda hakimiyyətə elə sanksiyalar tətbiq ediləcək ki, hakimiyyət dəyişəcək. Əslində isə bunlar real faktlara söykənməyən şişirdilmiş təxəyyülün məhsuludur: “Belə təbliğatı aparanlar nədənsə düşünmürlər ki, sanksiyalar olmayanda və heç bir dəyişiklik baş verməyəndə, hakimiyyətlə ABŞ-ın münasibətləri yenidən normallaşanda özləri pat vəziyyətində qalacaqlar. Ətrafındakı insanları, elektoratı belə şişirdilmiş vədlərlə öz ətrafında saxlamağın dövrü artıq keçib. Son zamanlar müəyyən qədər gərginləşən Azərbaycan-ABŞ münasibətlərindən çox uzağa gedən nəticələr çıxarıb bu nəticələrin təsiri altında insanları ümidləndirmək düzgün deyil. İndiyə qədər ki, təcrübə də sübut edib ki, bu düzgün deyil. Azərbaycan hakimiyyətinə qarşı sanksiyalar tətbiq edilməsi çağırışları ABŞ-da bəzi qüvvələr tərəfindən səsləndirilsə də Vaşinqtonun buna gedəcəyi gözlənilmir”.

**Q.Hüseynli vurğuladı ki, kənardan dəstək, kənardan “ağ atlı oğlan”ın gələcəyini gözləmək həm müxalifətin özünün inkişafına, həm siyasi mübarizəyə, həm də siyasi sistemin özünün təkmilləşməsinə ciddi zərər vurur:** “Birdəfəlik insanlara izah etmək lazımdır ki, sən vəziyyətindən narazısansa taleyin ilk növbədə öz əlindədir, əgər ölkədə dəyişikliklər istəyirsənsə, ilk növbədə özün aktiv olmalısan, sıralarını sıxlaşdırmalısan: ”Müxalif siyasi qüvvələr isə ilk növbədə kütləni inandıra biləcək ciddi ideoloji siyasi dəsti-xətt qoymalıdır. Konstitusiyanın yol verdiyi çərçivədə özünün siyasi mübarizəsini təşkil eləməlidir. Xaricdən nəsə olacağını gözləmək məncə, özünü tükətmiş, artıq heç nəyə yaramayan və tərəfdarları məyusluğa düçar eləyən məsələdən başqa bir şey deyil".

❑ **Etibar SEYİDAĞA**

# Müxalifət proporsional sistemin bərpasına inanmır

Bununla belə, düşərgə seçkilərə əvvəlki dönəmlərdən daha ciddi hazırlaşmaq niyyətindədir...

**Parlament seçkiləri də nəzərə alınaraq 2015-ci ilin siyasi baxımdan aktiv il olacağı proqnozları səslənməkdədir. Lakin müxalifət funksionerlərin bu illə bağlı müəyyən gözləntiləri olsa da, bir sıra məsələlərin həllini tapacağına da onlar inanmırlar.**

**Müsavat Partiyasının başqan müavini Elman Fəttah** proporsional seçki məsələsinin partiyanın siyasətinin əsas tərkib hissəsi olduğunu dedi: “Müsavat Partiyasının 2015-ci ilin fəaliyyət planında öndə tutulmalı və uğrunda mübarizə aparılmalı əsas məsələlərdən bir də proporsional seçkinin bərpasıdır. Amma hakimiyyətin belə bir mütərəqqi addıma gedəcəyini düşünmürük. Amma biz yenə də mübarizəmizi davam etdirəcəyik. Nə zaman hakimiyyət bunun qaçılmaz olduğunu dərk edəcəksə, o zaman da Azərbaycan bu sistemə qayıdacaq”.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bütün işlərini seçki istiqamətində quracaqlarını dedi: “Bilirsiniz ki, seçki ilidir. Biz də çalışacağıq ki, bu istiqamətdə həm müxalifətin ümumi vəziyyəti, həm seçicinin aktivliyi, həm partiyamızın namizədlərinin seçkidə qalib gəlməsi üçün demokratik şəraitin yaradılması və seçki məcəlləsinə dəyişikliklər edilməsi istiqamətində bütün gücümüzü ortaya qoyacağıq. Bu zaman içərisində də müəyyən nailiyyətlərə imza ata biləcəyik. Proporsional seçki sisteminin isə bu il bərpa olunacağına inanmıram”.

**ADP sədri Sərdar Cəlaloğlu** hakimiyyətin siyasi islahatlara proporsional seçkini bərpa etməkdən başlamalı olduğunu dedi: “Azərbaycan iqtidarı əgər Azərbaycanda siyasi islahatlar həyata keçirmək istəyirsə öncə bu sistemi bərpa eləməlidir. Bu gün istər Avropa ölkələrinin istərsə də, keçmiş SSRİ məkanlarının əksəriyyəti proporsional seçki sisteminə keçib. Məsələn, Rusiya. Azərbaycanın sıx əməkdaşlıq etdiyi bir çox ölkələrdə isə qarışıq seçki sistemidir. Yəni Azərbaycan bu gün Türkiyə ilə strateji müttəfiqdirsə, Avropaya inteqrasiya edirsə, Rusiya ilə siyasi münasibətlərini yüksək səviyyədə saxlamaq istəyirsə, ən azı bu dostlarının, tərəf müqabillərinin siyasi həyatı ilə modifikasiya olunmalıdır. Əks halda, ölkədə siyasi inkişaf mümkün olmayacaq. Bu da son nəticədə iqtisadi inkişafı çox ciddi təhlükəyə atacaq”.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015

# İçdiyimiz meyvə şirələri öldürür?

**Eyyub Hüseynov:** "Nə yerli, nə də xaricdən gətirilən şirələrin heç biri 100 faiz təbii deyil"
**Adil Qeybulla:** "Bu tip şirələrdən mümkün qədər az istifadə etmək məsləhət görülür"

**Meyvə şirələri hər kəsin menyusuna daxil olan və sevə-sevə içdiyi içkidir. Əksər insanlar şirə içmək istəyərkən şirənin dadından öncə onun təbiiliyi haqqında düşünür. Ancaq məlum məsələdir ki, heç bir meyvə şirəsi qatqısız həftələrlə mağazada qala bilməz.**



Şübhə yox ki, meyvə şirələrini istehsal edən şirkətlər meyvəyə qənaət etmək məqsədilə əldə etdikləri şirəyə su əlavə edərək miqdarını çoxaldırlar. Şirənin dadının insanlar tərəfindən bəyənilməsi və daha çox içilməsi məqsədilə ona şəkər tozu qatırlar. Nar, albalı və ya hansısa turş meyvənin özünü yeyə bilmədiyiniz halda, şirəsini çox bəyənərək içirik. Bunun əsas səbəbi şirələrə qatılan şəkər tozudur.

Alıcılar da çox zaman meyvə şirəsi stəkana süzülərkən su kimi axar şəkildə deyil, nisbətən qatı tərkibə malik olduğundan ağır süzüldüyünün şahidi olur və şirənin təbii olduğuna özlərini inandırırlar. Amma meyvə şirəsinin nisbətən qatı tərkibə malik olması şirəyə sirop əlavə edilməsindən irəli gəlir. Siropun köməyi ilə meyvə şirəsi daha dadlı olur, nisbətən qatılaşır və buna görə də meyvə şirəsi istehsal edən şirkətlər məhsulun təbiiliyinə zəmanət verib insanları aldatmaqdan çəkinmirlər.

Şirələrin uzun müddət saxlanılmasının əsas səbəbi isə istehsal edilərkən tərkibinə limon turşusunun əlavə olunmasıdır. Limon turşusundan istifadə edilməsi nəticəsində təbii halda əldə etdiyimiz şirə hətta 3 gün tərkibini dəyişmədən saxlanıla bilmədiyi halda, zavodda istehsal edilən şirə aylarla tərkibini dəyişmədən qalır.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** bildirdi ki, nə yerli, nə də xaricdən gələn şirələrin heç biri reklamda deyildiyi, üzərinə yazıldığı kimi 100 faiz təbii deyil: "Bunu istehlakçı çox asanlıqla sübut edə bilər. Narı bir stəkana sıxın. Mağazadan aldığınız nar şirəsini də bir stəkana süzüb ikisini də qoyun pəncərənin qabağına, yaxud soyuducuya. 3 gündən sonra hətta soyuducuda olmasına baxmayaraq nar şirəsi qıcqırmış olacaq. Amma mağazadan alıb süzdüyümüz nar şirəsi isə necə qoymuşuq eləcə də qalmış olacaq. Hətta aylarla stəkanda qalsa belə o qıcqırmayacaq. Bunun özü də sübut edir ki, onun tərkibində kimyəvi maddələr var. Ekzotik meyvələrdən yığılmış adı altında olan şirələr heç də ekzotik meyvələrdən hazırlanmır. Çünki ekzotik meyvə Azərbaycanda bitmir. Çoxu da müxtəlif kimyəvi maddələrdən və qarışıqlardan hazırlanır. Düzdür ilk baxışdan təbii meyvə şirəsi ilə kimyəvi tərkibli şirəni ayırd etmək çətindir. Amma bayaq dediyim kimi, primitiv bir üsulla buna əmin ola bilərsiniz. Bütün bunlardan qaynaqlanan Avropa İttifaqı yanvarın 15-də Azad İstehlakçılar Birliyinin təşəbbüsü ilə böyük bir yığıncaq keçirəcək. Bütün maraqlı dövlət qurumları bu tədbirə qatılacaq və qidanın təhlükəsizliyi haqqında vəziyyəti müzakirə edəcəyik".

Bu cür təbii olmayan şirələr insan səhhəti üçün də zərərlidir. **Tibb elmləri doktoru, professor Adil Qeybullanın** sözlərinə görə, bu tip şirələrin orqanizmə müəyyən təsiri var: "Meyvə şirələrinin əksəriyyəti təəssüflər olsun ki, konsentratlardan hazırlanır. Yəni xaricdən gətirilmiş xüsusi meyvə ətirli konsentratların hazırlanır. Həmin konsentratların dad xüsusiyyəti xüsusi kimyəvi maddələrin köməyi ilə meyvələrin dad xüsusiyyətlərinə çatdırılır. Beləcə bunlar təbii meyvə şirəsi adı ilə satılır. Əslində bunların ilkin meyvədən hazırlanması absurd görünür. Amma dünyanın hər yerində bu cür yolla şirələr istehsal olunur. Sadəcə olaraq, mümkün qədər bu tip şirələrdən az istifadə etmək məsləhət görülür. Əhaliyə daha çox tövsiyə edirik ki, ev şəraitində təbii yolla çəkilmiş, heç bir konsentratı olmayan, tərkibində qida əlavələri, qatqıları olmayan təbii şirələrdən istifadə etsinlər. Konsentratlarla bağlı xeyli problemlər var. Ümumdünya Səhiyyə Təşkilatının qida əlavələri haqqında bölməsi var. Orada qidaların tərkibinə daxil olan, ayrılıqda qida kimi istifadə edilməyən, lakin qidaya dad, rəng və sairə verən maddələr var ki, bunların orqanizmə müəyyən zərərli təsirləri var. Ona görə də bu süni maddələr uzun müddət istifadə edildikdə qida əlavələri bədəndə yığılaraq müəyyən problemlər yarada bilər".

❑ **Günel MANAFLI**

## Nişanlandı, bir gün sonra qəzada öldü

**Ağstafa rayonunda ağır yol-nəqliyyat qəzası baş verib. Ağstafa rayon Polis Şöbəsindən APA-nın qərb bürosuna verilən məlumata görə, hadisə ötən gecə rayonun Poylu kəndi ərazisində qeydə alınıb. Ağstafa rayonunun Aşağı Kəsəmən kənd sakini, 26 yaşlı Elçin Məmmədov idarə etdiyi "Mercedes" markalı avtomobili yolun kənarına aşırıb.**

Qəza nəticəsində sürücü dünyasını dəyişib, maşında olan sərnişinlər Aşağı Kəsəmən kənd sakinləri - 19 yaşlı Qara Məmmədov, 25 yaşlı Emin Pənahov, onunla eyni yaşda olan Tərlan Hüseynli müxtəlif bədən xəsarətləri alaraq Ağstafa Mərkəzi Rayon Xəstəxanasına yerləşdiriliblər. Məlumata görə, dünyasını dəyişən E. Məmmədovun dünən nişan mərasimi olub. Faktla bağlı Ağstafa rayon Polis Şöbəsində araşdırma aparılır.

## Oğuz sakini donub öldü

**Oğuz sakini bədbəxt hadisə nəticəsində ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, yanvarın 11-də Oğuz rayonunun Kərimli kəndində rayoni Əsman Umarovun üzərində zorakılıq əlamətləri görünməyən donmuş meyiti "VAZ-2103" markalı avtomobilinin yaxınlığında tapılıb. Araşdırmalar aparılır.**

## Dəm qazı daha iki nəfərin həyatına son qoyub

**Azərbaycanda iki nəfər bədbəxt hadisə nəticəsində ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, yanvarın 11-də Xətai rayonunun Həzi Aslanov qəsəbəsində yaşayan Tehran Kazımov dəm qazından boğulub.**

Quba rayonunun Zizik kəndində yaşayan Elmiyə Mirzəyeva da evlərində dəm qazından boğularaq dünyasını dəyişib.


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


## Elan

**Akademik Cəlal Allahverdiyiev, Hacı MirAbdullah, Hacı Ramiz, professor Telman Əliyev, Zahid Quliyev, Tariyel Əzimov, Turan Levent, Umudvar Qaçayoğlu və Şuşu Birlik Cəmiyyəti Şahin Abbasova, Məzahir, Eyvaz, Zaur, Rauf qardaşlarına və yaxınlarına**
**İbrahim Həşim oğlu Əliyevin**
**vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

***

**Akademik Cəlal Allahverdiyiev, Hacı MirAbdullah, Hacı Ramiz, professor Telman Əliyev, Zahid Quliyev, Tariyel Əzimov, Gülağa Zeynalov, Rövşən Atakişiyev, Şünasi Babayev, Mərkəz Əliyev, Etibar Laçınlı, Zəlimxan Məmmədli, Umudvar Qaçayoğlu Şuşu Birlik Cəmiyyəti, Borçalı İctimai Cəmiyyəti, Baxşeyiş Mehdiyevə, Vaqif Rəhimova və yaxınlarına əzizləri**
**Rəşxan kişinin**
**vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.**

## Təbrik



**Bu gun sevimlimiz, dəyərli qardaşımız Mahmud Şahməmmmədzadənin doğum günüdür. Qardaşımıza həyatın bütün gözəlliklərini arzu edirik. Tanrı Səni və sevdiklərini qorusun. Təbrikə Arif, Səfa və Əlişir qoşulur.**



## «Azercell» jurnalistlər üçün iki günlük təlim keçirib



### Mobil media sahəsində biliklərin artırılmasına beynəlxalq təlimçi yardımçı olub




**«Azercell» şirkəti jurnalistlər üçün iki günlük təlim təşkil edib. Yanvarın 8-də və 9-da media nümayəndələri üçün keçirilən növbəti peşəkar təlim mobil media ilə bağlı olub. Təlimdə ölkənin çap və internet mediası, həmçinin elektron KİV nümayəndələri, ümumilikdə 20-yə yaxın jurnalist iştirak edib. Tədbir mobil media sahəsində jurnalistlərin biliklərinin artırılmasına yönəlmişdi.**

Təlimlərdə təlimçi qismində Böyük Britaniyadan dəvət olunmuş peşəkar jurnalist Den Meyson iştirak edib. Rəqəmsal jurnalistika və sosial media sahəsində ixtisaslaşmış mütəxəssis olan Den Meyson Azərbaycanla yanaşı, Gürcüstan, Qətər, İsrail, Misir, Çin, Abu Dabi, İordaniya, Kipr və Avropa ölkələrində təlimlər keçib. Den Meyson 25 il ərzində Böyük Britaniyada gündəlik qəzetlərdə, jurnallarda fəaliyyət göstərib.

«Azercell»-in təlim etdiyi bu dəfəki təlimdə Den Meyson iştirakçılara Google - axtarış sisteminin multimedia imkanları, sosial şəbəkələrlə iş, bloq sayt yaratmaq vərdişlərini izah edib. İki gün ərzində iştirakçılar saytların işlənib hazırlanması veb-sayt və bloqa nəzarət, foto şəkillərin çəkilməsi və redaktə edilməsi və bir sıra yeni bilgilər əldə ediblər.

Təlimin sonunda «Azercell» tərəfindən jurnalistlərə sertifikat təqdim olunub.

**Xatırladaq ki, indiyə qədər jurnalistlər üçün «Azercell» tərəfindən çoxsaylı təlimlər keçirilib. Regional jurnalistlər üçün ilk təlim də «Azercell» tərəfindən təşkil olunub. Təlimlərlə yanaşı «Azercell» jurnalistlərin hərtərəfli inkişafı üçün müxtəllif layihələr həyata keçirir. Artıq 6 ildir ki, jurnalistlərin inkişafına kömək etmək məqsədilə onlar üçün ingilis dili kursları təşkil olunmaqdadır. «Azercell» yeganə mobil operatordur ki, sırf KİV işçiləri üçün xüsusi tarif planı - Mediacell tarifini hazırlamışdır. Hazırda «Azercell»in təklifləri sırasında Mediacell ən populyar paketlərdən biridir.**

❑ **RÖYA**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 7 (6035) 13 yanvar 2015



# Qarabağa dair gecikən öhdəliklər

## Onları münaqişə tərəflərindən öncə həmsədr dövlətlər götürməlidir; nizamlanma prosesinin taleyi indi daha çox Ukraynada müəyyən edilir; **rusiyalı ekspert:** "Moskva və Bakını toqquşdurmaq istəyirlər..."

**Qarabağ münaqişəsi ilə bağlı daim optimist bəyanat verənlər öz ənənələrinə sadiq qaldıqlarını təzə ilin başlanğıcında bir daha nümayiş etdirdirlər. Onlardan biri də ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikdir. Yeni il girər-girməz bəyan elədi ki, 2015 Qarabağ məsələsi üçün ən uğurlu il olacaq. Ancaq təxminən elə həmin gün ATƏT-in yeni sədri, Serbiyanın xarici işlər naziri İviç Daçiç bildirdi ki, 2015-ci ildə təşkilat üçün ən prioritet məsələ Ukrayna olacaq.**

**Belədirsə, Dağlıq Qarabağ məsələsinə beynəlxalq diqqət də azalacaq. Bunu indi həm də başqa faktorlar şərtləndirir. Onlardan ən əsası Rusiya ilə Qərb arasında Ukraynaya görə yaranan qarşıdurmanın nə ilə sonuclanacağının hələ ki bəlli olmamasıdır. Proses yekunlaşmadığından Qarabağ məsələsində Moskva ilə Qərbin effektli əməkdaşlığından danışmağa da dəymir.**

***

Qəribədir ki, bu kimi reallıqların fonunda amerikalı vasitəçi Uorlik iki gün öncə növbəti "gümrahlaşdırıcı" açıqlama ilə çıxış edib. Diplomat deyib: "Çox vacibdir ki, tərəflər 2015-ci ildə Qarabağ münaqişəsinin sülh yolu ilə həlli barədə üzərilərinə öhdəlik götürsünlər". Bu fikirləri o, cəbhə xəttində müşahidə olunan növbəti gərginliyi şərh edərkən söyləyib.

"Həmsədrlər münaqişənin həlli istiqamətində irəliləyişə nail olmaq üçün ən yüksək səviyyələrdə tərəflərlə işini davam etdirəcək. Sülh razılaşmasına gətirib çıxaran danışıqların aparılması və cəbhə xətində, eləcə də Ermənistan-Azərbaycan sərhədində insidentlərin qarşısını ala biləcək tədbirlərin görülməsi gərginliyin azalmasında yardımçı ola bilər. "Biz tərəflərə belə bir təklifi ciddi şəkildə nəzərdə saxlamağı tövsiyə edirik" - əlavə edib amerikalı diplomat.

Əslində növbətçi xarakterli bu kimi bəyanatlara çoxdan münaqişə tərəfləri üçün ciddi əhəmiyyət kəsb etmir. Bu cür bəyanatların kəsərini həm də həmsədr ölkələrin özləri (bir tərəfdə Rusiya, digər tərəfdə isə ABŞ və Fransa timsalında Qərb) arasında davam edən "soyuq müharibə" minimuma endirir.

Üçüncü yandan, Kremlin ovucun içində olan Ermənistan müstəqil şəkildə Qarabağa dair öz üzərinə hansı öhdəliyi götürə bilər ki? Güney Qafqazda Rusiyanın yeganə hərbi bazasının yerləşdiyi bir ölkə konfliktin həllində rəsmi Moskvanın iradəsindən kənar hansı söz sahibliyinə malik ola bilərmi? Əlbəttə ki, yox. İrəvan Putinin Avrasiya layihələrinə rəsmən qoşulmasından sonra bu yöndə hansısa nikbin təxminlər söyləməyə dəymir.

***

Elə rusiyalı tanınmış analitiklər də o qənaətdədirlər ki, mövcud şərtlər daxilində möcüzə olmayacaq. "Güney Qafqazda xüsusi heç nə gözləmək lazım deyil. Hər şey necə gedirdisə, elə də gedəcək". Bu sözləri rusdilli vesti.az portalına Strateji İnkişafın Modelləşdirilməsi Mərkəzinin 1-ci vitse-prezidenti, moskvalı ekspert Qriqori Trofimçuk bildirib.

Onun əminliyinə görə, Cənubi Qafqazda, o sırada Dağlıq Qarabağ zonasında vəziyyətin olduğu kimi qalması Moskvanın əsas məqsədidir: "Ona görə ki, regionda istənilən disbalans Ukrayna müharibəsinə əlavə kimi "dağdan" daha bir müharibəni endirə bilər. İkinci belə bir müharibəyə isə Rusiya tab gətirməz. Hələ biz buna bənzər bir şeyin Mərkəzi Asiyada da başlaya biləcəyindən danışmırıq. Odur ki, Rusiya üçün baş hədəf - yalnız sakitliyə çalışmaqdır".

### "Minsk Qrupu çərçivəsində irəliləyiş Ukraynaya dair Minsk anlaşması reallaşandan sonra mümkün görünür..."

Politoloqun sözlərinə görə, Rusiyanın gah bir, gah da digər istiqamətlər, həm Baltikyanı regiona, həm də Güney Qafqaza hücum edəcəyi ilə bağlı deyilənlərin heç bir ciddi əsası yoxdur: "Bu absurdu da ağıllı şəkildə Qərb yayır: yəni o məqsədlə ki, Krımı özünə birləşdirəndən sonra Moskva onsuz da bu iddiaların əksini sübut edə bilməyəcək, Rusiya oldu-olmadı 100 il sonranın da təcavüzkarıdır və s. Vaşinqton belə siyasi uğuru açıq-aşkar gözləmirdi. Ancaq belə narahat fonda kimsə hər şeyi Kremlin üstünə yıxmaq, Cənubi Qafqazı təzədən şəkilləndirmək üçün mütləq situasiyadan yararlanacaq. Misal üçün, Azərbaycan onsuz da əmindir ki, "Moskva Qarabağ münaqişəsi üzərində öz qanlı əlini saxlayır". Bu fonda Moskva və Bakının rəqibləri onları zəiflətmək üçün alın-alına toqquşmaq şansını əldən verməyəcəklər. Vəziyyət məhz buna doğru gedir".

***

Rusiyalı politoloqun da açıqlamasından göründüyü kimi, Minsk Qrupunun iki əsas həmsədr-gücü - Qərb və Rusiya arasında ən azından dərin inamsızlıq mövcuddur. Belə bir durumda Moskva, Vaşinqton və Parisin sinxron şəkildə hərəkət edib yaxın perspektivdə Qarabağ məsələsində hansısa ortaq mövqeyə gəlməsi, üstəlik, həm də Bakı və İrəvanı qane edən formulla çıxış eləməsi ağlabatan görünmür.

Qarabağ probleminin həllinə dair öhdəlikləri isə ən əvvəl bu problemi dinc yolla nizamlamağa görəvləndirilmiş vasitəçi güclər götürməlidir. O da ki, üfüqdə görünmür. Təzə ildə bu güclərin gündəmində ATƏT-in yeni sədrinin də bəyan elədiyi kimi, Ukrayna böhranını yola qoymaq olacaq. Bundan ötrü isə Minskdə ötən ilin sonlarında əldə olunmuş "üçlü anlaşma" - Rusiya-Ukrayna-Avropa Birliyi formatında razılığın bəndləri yerinə yetirməlidir.

**Belə qənaət hasil olur ki, yalnız ondan sonra, yəni Ukraynaya dair Minsk sənədi reallaşandan sonra Minsk Qrupunda bir irəliləyiş, canlanma mümkün ola bilər. Buna qədər isə Dağlıq Qarabağ məsələsində ən prioritet məsələ yüzdə yüz münaqişə zonasında yeni hərbi əməliyyatların başlanmasına imkan verməmək olacaq.**

# Ermənistanın boşalması sürətlənir, orduya çağırışçı çatmır

## Erməni müharibə veteranı isə Azərbaycanın hərbi qüdrətini etiraf edir: "Biz indi rəqibimizin gücünü hiss edirik..."



**Blokada şəraitində olan işğalçı Ermənistanda sosial-iqtisadi durum ötən ilin sonlarından daha da ağırlaşmağa başlayıb. Qonşu ölkənin iqtisadi cəhətdən Rusiyadan birbaşa asılı olması, sonuncunun isə maliyyə-iqtisadi göstəricilərinin xeyli pisləşməsi, o sırada rublun dəyərdən düşməsi ermənilərin güzəranından da yan keçməyib.**

Məlumatlara görə, yaxşı dolanışıq üçün Rusiyaya üz tutanlar da indi ciddi problemlərə tuş gəliblər. Erməni mətbuatının yazdığına görə, onlar cəmi bir neçə ay öncəkindən üç dəfə pis durumdadırlar. Ermənistanın özündə isə milli valyuta olan daram dəyərdən düşməkdə, ərzaq məhsulları isə bahalaşmaqdadır. Nəticədə "əzabkeş xalq" daha əzablı duruma yuvarlanmaqda, ölkədən emiqrasiya sürətlənməkdədir.

Təbii ki, neqativ proseslər orduya çağırışçı məsələsində də özünü göstərməkdədir. Gələn xəbərlərə görə, bu sahədə ciddi problemlər yaşanmaqdadır - rəsmilər problemi israrla gizlətməyə çalışsalar da. Vəziyyəti daha da ağırlaşdıran ölkədə doğum faizinin ildən-ilə aşağı düşməsi və imkanlı adamların, məmurların öz övladlarını ordudan yayındırmasıdır. Nəhayət, münaqişə zonasında son aylar yaşanan məlum olaylar, erməni tərəfinin ciddi itkilər verməsi də çağırışçı probleminə neqativ təsirini göstərməkdədir.

"İndi Ermənistanda cəmi 1,5 milyon adam qalıb". Bu barədə İsveçrə ermənilərı birliyinin sədri Sarkis Şainyan bildirib (anspress). Onun sözlərinə görə, əhalinin ölkəni tərk etməsində əsas səbəblərdən biri övladlarını ordudan uzaqlaşdırmaqdır. "Biz hər şeyə gedirik ki, övladlarımız orduda xidmət etməsin. Biz cəmi 1,5 milyon qalmışıq. Gedin, yoxlayın, nazirlərdən, oliqarxlardan hansının öz uşağı, qohumlarının və dostlarının uşağı əsgərlikdə xidmət edib? Bizdə vəziyyət çox pisdir", - deyə Şainyan vurğulayıb.

Şainyanın fikrincə, ermənilərin ölkələrini tərk etməsində mövcud hakimiyyətin qurduğu diktatura rejimi də rol oynayır: "Bu gün biz qula çevrilmişik, həm əqli, həm də fiziki cəhətdən. Əgər insan öz ölkəsini tərk edirsə, deməli, qul kimi yaşamaq istəmir, gerçəklik budur".

Erməni müharibə veteranı isə bu arada Azərbaycanın hərbi gücündən danışıb. Ehtiyatda olan mayor, müharibə veteranı Pavel Manukyan rəsmi İrəvanın apardığı siyasətin yanlış olduğunu, Azərbaycan ordusunun qüdrətləndiyini dolayısı ilə etiraf edərək deyib: "Bunları mütləq bilmək və demək lazımdır. Biz indi rəqibimizin gücünü hiss edirik, təhlükəsizliyini necə möhkəmləndirdiyini görürük. Təxribatlarla, məqsədsiz cəhdlərlə nə etmək olar ki?! Bəli, biz müharibəni gözləməliyik, amma bu, çox təhlükəlidir. Çünki bizim əsgərimiz öz liderinin səhvini görür, o, ruhi cəhətdən anlaşılmaz vəziyyətə düşür. Müharibə mümkündür. O deməlidir ki, bu, müharibəni Ermənistan dəqiq udacaqmı, Azərbaycan dəqiq uduzacaqmı. Bizim müttəfiqimiz olan Rusiya Azərbaycanı çox yaxşı silahlandırdı, nə lazımdırsa, onunla təmin etdi". P.Manukyan öz hakimiyyətlərinə məsləhət görüb ki, könüllülərdən ibarət olan Ermənistan ordusuna güvənsin.

**Görünür, erməni zabit hələ qəflət yuxusundan ayılmayıb. Zaman dəyişib, iqtisadi-siyasi reallıqlar göz önündədir. Sadəcə, "müharibə veteranı", bu "qəhrəman" anlamalıdır ki, kimlərinsə kölgəsinə girib şücaətlənmək dövrü keçib, müvəqqəti qələbənin əbədi məğlubiyyətə çevrilmə ehtimalı daha çoxdur.**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT

Son səhifə

N 7 (6035) 13 yanvar 2015

# 9 ayda iki dəfə ana oldu

Galli Claire Ormrod 9 ay boyunca düz iki dəfə ana olmaqla həkimləri heyrətə salıb. Tibb tarixinə keçən 26 yaşlı Ormrod say etibarilə dördüncü uşağı olan qızı Alisanı 2011-ci ilin 6 dekabrında, 25 həftəlik ikən dünyaya gətirib. 540 qram doğulan AliSA Gallerin çəki baxımdan ən balaca uşağı olub. 7 həftə sonra yenidən hamilə qalan Ormrod beşinci uşağı olan Garethi isə 7 sentyabr 2012-ci ildə dünyaya gətirib. 29 həftəlik ikən 906 qram olaraq doğulan Gareth de böyük bacısı kimi təcili qeysəriyyə əməliyyatı ilə dünyaya gəlib. Ormrod indiki zəmanədə 5 uşaq anası olmanın az qala qəhrəmanlıq olduğunu deyib: "Mənə ikiqat qəhrəman demək olar. Çünki başqa qadınlar 9 aya bir uşaq dünyaya gətirdikləri halda mən ikisini dünyaya gətirmişəm".





## Bu ölkədə ən gözəl qadınlar ən kök qadınlardır...

Dünyada qəbul edilən gözəllik kriteriyalarına görə, qadın müəyyən bədən formalarına malik olmalıdır. Amma bir ölkədə qadının arıq olması rüsvayçı fakt kimi qəbul edilir. Söhbət Afrikada yerləşən Mavritaniyadan gedir. Belə ki, bu ölkənin ən gözəl qadınları ən kök olanlar hesab edilirlər. Arıq qadınlara isə yeməyə çörək belə ala bilməyən yoxsul kimi baxırlar. Həmin ölkədə evlənmə yaşına gələn qızlar ailə qurmaq üçün kök olmalıdırlar. Bunun üçün də özləri üçün xüsusi qida rasionu hazırlayırlar. Bura dəvə südü, zeytun yağına batırılmış çörək, keçi ətindən olan bol kalorili yeməklər daxildir.

Mavritaniyada bu adət "gavage" adlanır. Bu rasion sayəsində iki günə 5 kq-a yaxın kökəlmək mümkündür. Bu adət haqqında sənədli film çəkilişlərində iştirak edən kişilər belə kök qadınların daha cəlbedici olduğunu düşündüklərini deyiblər. "Gavage" adət-ənənəsinə məruz qalanlar isə bunun müəyyən zamandan sonra işgəncəyə çevrildiyini, hətta yeməkdən imtina edəndə valideynlərin şiddətinə məruz qaldıqlarını, barmaqlarının qırıldıqlarını deyirlər.

# Kompensasiya almaq üçün barmağını kəsdi

Almaniyanın Potsdam-Mittelmark rayonunda 43 yaşlı stomatoloq külli miqdarda sığorta haqqı almaq üçün öz barmağını kəsib. Bu hərəkətinə görə dələduzluq maddəsi ilə ittiham edilən və 1 il müddətinə şərti azadlıqdan məhrum edilən stomatoloq isə bunun iftira olduğunu deyib. Onun dediyinə görə, ötən ilin martında çalışdığı stomatoloji kabinetə iki naməlum şəxs girərək silah gücü ilə ondan pul və qızıl tələb edib. Onlara yox cavabı verəndə isə soyğunçular onun baş barmağını kəsiblər. Amma istintaqçılar bu olayı araşdıranda maraqlı faktla qarşılaşıblar. Stomatoloji kabinetdə qan izləri ilə yanaşı ağrıkəsici iki naməlum şəxs girərək silah gücü ilə ondan... 





## Uşağını telefonun köməyi ilə dünyaya gətirdi

Türkiyənin Samsun şəhərində 112 Təcili Yardım xidməti hamilə bir qadına ilginc formada yardım edib. Qara görə qadının yaşadığı məhləyə maşın çıxa bilmədiyi üçün Təcili Yardım Xidmətinin əməkdaşları qadına necə doğuş həyata keçirməli olduğunu telefonla başa salıb. Xidmətin Zuhal Bektaş adlı əməkdaşı hamilə qadının qohumu ilə telefonla danışaraq, üçlü konfrans həyata keşçirib. Ginekoloq hamilə qadının yanındakı yaşlı qadına nə etmək lazım olduğunu izah edib. Yaşlı qadın həyəcanlananda isə dövriyyəyə yenidən 112 xidmətinin əməkdaşı girib. Evdə işıq da yanmadığı üçün əl lampasının köməyi ilə yaşlı qadına doğuşu necə keçirməli, uşağın göbək bağının necə kəsilməli olduğu da telefon vasitəsilə izah edilib. Beləliklə, dünyaya 112 əməkdaşının köməyi ilə sağlam bir körpə gəlib.




QOÇ - Astroloji göstəricilər qarşınızda görüşlərlə zəngin bir gün olduğunu bəyan edir. Səfər üçün uğurlu olmasa da, yaxın məsafədə yaşayan simsarlarınıza baş çəkməyiniz sizə rahatlıq gətirəcək.

BUĞA - Energetik anlamda sizin üçün əhəmiyyətli bir təqvimdir. Qarşınızda duran sınaqlardan daha mənfəətli şıxmaq üçün bunun böyük əhəmiyyəti olacaq. Axşama doğru ailə üzvlərinizlə əlaqəni dərinləşdirin.

ƏKİZLƏR - Saat 13-ə qədər bütün ciddi işlərinizi təxirə salın. Çünki nəzərdə tutduğunuz planların reallaşma ehtimalı nəinki yoxdur, habelə bu istiqamətdə maneələriniz artacaq. Sonrakı saatlar qismən uğurludur.

XƏRÇƏNG - Hiss olunur ki, ötən günlərin verdiyi gərginlikdən özünüzə gəlməmisiniz. Amma bu təqvimdə eyni şeylərin təkrarlanacağına inanmayın. Çünki saat 11-dən müvəffəqiyyətli müstəvidə olacaqsınız.

ŞİR - Yaxşı olar ki, hər şeydən əvvəl Tanrıya üz tutasınız. Son zamanlar bunu etmədiyiniz üçün işləriniz heç də yaxşı getmir. Elə isə vaxt itirməyin, nahardan etibarən hərəkətə keçin. Doğru olanı seçin.

QIZ - Maraqlı səfərlər yolunuzu gözləyir. Ümumiyyətlə, indi sizə insanlarla çoxəlaqəli ünsiyyət qurmaq həddən artıq vacibdir. Ən azı ona görə ki, tənhalıq, özünə qapılmaq daxilinizdə irticaçı fikirlər formalaşdıra bilər.

TƏRƏZİ - Göy qübbəsinə inansaq, bu gün maddi problemləriniz düzəlməlidir. Amma gərək boş-boş şeylərə xərc çəkməyəsiniz. Əks təqdirdə müflisləşə bilərsiniz. Günün ikinci yarısında perspektivli təkliflər alacaqsınız.

ƏQRƏB - Özünüzü xəstəlikdən qorusanız, ixtiyarınızda olan bu təqvimdə heç bir ciddi problemlə rastlaşmayacaqsınız. Ulduzlar bəyan edir ki, saat 15-dən etibarən qarşınızda böyük perspektivlər açılacaq.

OXATAN - Bu gündən şəxsi həyatınızda böyük dönüş yaranacaq. Bu, həm fəaliyyət zəminində, həm də qarşılıqlı münasibətlərdə özünü büruzə verəcək. Bu arada aldığınız hər bir təklifə ciddi yanaşın.

OĞLAQ - Bürcünüzün aktivlik dövrünə təsadüf edən bu təqvimdə əsas diqqəti əsəblərinizin qorunmasına yönəltməlisiniz. Çünki ünsiyyədə olduğunuz adamlardan bir çoxu zəhmətinizin dəyərini aşağı salmağa çalışacaq.

SUTÖKƏN - Saat 13-ə qədər sağlıq durumunuza diqqət yetirsəniz, qalan müddəti rahat şəkildə başa vuracaqsınız. Üstəlik, yeni iş təklifləri, pozulmuş münasibətlərin bərpası ovqatınızı xoş edəcək.

BALIQLAR - Kosmik mənzərə əleyhinizə işlədiyi üçün bütün şübhəli və həll olunmamış məsələlərdə daha çox neytral mövqe nümayiş etdirin. Əsəblərinizi qorumaq isə başlıca öhdəliyiniz olmalıdır.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Amerikada keşiş insanları dinə döyə-döyə gətirirmiş...




Nyu Cersidəki (Amerika) Baptist kilsəsinin keşişi Erik Demenn etiraf edib ki, insanları dini inanca gətirmək üçün fiziki gücdən istifadə edib. Hətta çıxışlarından birində deyib ki, bir dəfə balaca bir uşağı sinəsindən vurandan sonra o, Allaha inanmağa başlayıb. Demennin sözlərinə görə, bu, bir neçə il əvvəl Kanadada yaşadığı vaxt baş verib. O vaxt keşiş gənclərlə çalışırmış. Ben adlı yeniyetmə isə həmin vaxt Allahı ciddi qəbul etmirmiş: “”Mən ona yaxınlaşdım və sinəsinə zərblə bir neçə dəfə vurdum. Bundan sonra ona yenidən "Allaha inanırsanmı" sualını verdim və o, bu dəfə inandığını dedi. Keşişin bu çıxışı 2014-cü ilin sonunda yayımlanıb. Amma KİV və internet istifadəçiləri bu roliki 8 yanvarda görüblər. Bundan başqa, cəmi 4 gün ərzində bu videoya 1.5 milyon nəfər baxıb.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300